AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

TACİR SƏMİMİ
ANAR HÜSEYNOV

# QƏRBİ AZƏRBAYCANDAKI İZİMİZ, SÖZÜMÜZ

BAKI – 2023

**Redaktor:** **Nigar HƏSƏNOVA**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Məsləhətçilər:** **Turan İBRAHİMOV**
*texnika üzrə fəlsəfə doktoru*

**Ələsgər VƏLİYEV**

**Rəyçilər:** **Sönməz ABBASLI**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Mahmud SARIKAYA**
dosent doktor

**Elnur ELTÜRK**
**Cəmilə NOVRUZOVA**

**Naşir:** **İsfəndiyar VƏLİYEV**

**Tacir Səmimi, Anar Hüseynov. Qərbi Azərbaycandakı izimiz, sözümüz.** *Bakı, SkyG, 2023, 348 səh.*

Qərbi Azərbaycan bizim əzəli və əbədi torpaqlarımızdır. Dədə-babalarımız burada yaşayıb pərvəriş tapıblar. Qərbi Azərbaycanın bir bölgəsi də Amasiya (Ağbaba mahalı) rayonudur.

Bu kitabda Amasiya rayonunun Təzə İbiş və Qoncalı kəndlərində yaşayan Bayraməlilər tayfasının tanınmış adamları (Ağsaqqal Vəli, Xəstə Zərnişan, onların yaxınları (Yetim Əskər, Hüseyn Əsəd oğlu, Usta Məcid), tayfanın hikmət və kəramət sahibi olan şəxsləri haqqında məlumat verilib.

Burada təbli adamların ədəbi irsi, onlar haqqında folklor örnəkləri və xatirələr də toplanmışdır.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978-9952-440-33-1

© Tacir Səmimi, Anar Hüseynov , 2023

## ÖN SÖZ

Uşaq vaxtlarımdan, yəni ağlım kəsəndən atamla həmişə söhbətim tutub. Çünki atam soydan-kökdən, babalardan söz salıb, deyib:

– Hər kəs azı yeddi arxa dönənini tanımalıdır.

– Bu nə deməkdi, ata?

– Yəni yeddi babasını tanımalıdır. Hərə öz soy-kökünü, şəcərəsini bilməlidir, bala.

– Yaxşı, ata, bunları necə öyrənmək olar?

– Yazılmalıdır...

– İndiyə qədər yazıblarmı?

– Yazanlar da olub, amma yazmayanlar daha çoxdu.

Mən yenə sualı sual dalınca verəndə atam gülümsünüb:

– Bala, qabaqlar təhsil-filan zəif olub. Bizim bu Ağbaba mahalında vur-tut dörd nəfər gimnaziya təhsili alıb. Onlar da varlı-hallı kişilərin övladları olublar.

Mən təəccüb və maraqla atamın gözlərinin içinə baxanda o, bir uzaqlara, bir də mənə baxıb deyib:

– Qabaqlar iri sinilər vardı, onlara məcməi də deyirdilər. Uşaq anadan doğulanda onun kənarına yazırdılar. Əski əlifba ilə. İndi əski əlifbanı da hər kəs bilmir.

– Bəs oxumurdular?

– Mollaxanalar vardı. Orda ibtidai təhsil alırdılar. İmkanlı olanlar uşaqlarını mədrəsədə də oxudurdular.

– Ata, onda bizim babalardan da oxuyanlar olub, eləmi?

Atam gülümsündü:

– Əlbəttə, var. Biri də Vəli babam.

...Beləcə saatlarla atamla söhbət etsəm də, nə yorulmuşam, nə bezmişəm. Nəhayət, ali məktəbi də qurtardım.

Humanitar sahə məni cəlb etdiyindən yavaş-yavaş məqalələr yazdım, televiziya verilişlərinə meyl etdim. Yenə atamla sözüm-söhbətim qurtarmadı. Bir dəfə söhbət zamanı atam dedi:

– Bala, sən ki bu qədər maraqlanırsan, niyə bizim soy-kökdən olan tanınmış adamları yazıya almırsan?

– Düz deyirsən, amma məndə məlumat azdı. Düzdü, səndən, Hüseyn babamdan eşitdiklərimi qeyd etmişəm, amma...

– Amma nə?

– Amma istəyirəm bir az ətraflı bir şey olsun...

Atam yenə sirli-sirli gülümsündü:

– Deyirəm axı, oğlum yaxşı bir işə imza atacaq.

Atamın ümidlə mənə baxması məni sevindirsə də, həyəcanlandırdı da:

– Ata, deyəsən səndə söz var. De, nə deyəcəksənsə.

– Bu yaxşı təşəbbüsdü. Yəqin sən Tacir Səmimini tanıyırsan. Bu adamın işi-gücü nədir, bilirsən? Elin-obanın folklorunu, etnoqrafiyasını yazıya alır... Deyirəm, sən bu işi onunla birlikdə işləyəsən.

– Yaxşı deyirsən, razı olarmı?

– Niyə olmasın, o, səni yaxşı tanıyır, təqdir edir. Neçə dəfə mənə də deyib... Səninlə fəxr edir...

Bu sözləri eşidəndə əhvalım yaxşılaşdı, narahatlığım keçib getdi.

Nəhayət, bir dəfə Tacir müəllimlə görüşdüm. Məqsədimi, məramımı deyəndə razılıqla başını tərpətdi. Beləcə bu xeyirxah adamın, eləcə də atamın xeyir-duası ilə işə başladıq.

Mən 1988-ci ilin məlum hadisələri ilə bağlı Qərbi Azərbaycandan Azərbaycana gələndə vur-tut altı yaşım vardı. Adamların tutqun sifətləri, qaçqınlığın gətirdiyi dərd-

sər heç vaxt yadımdan çıxmır – yaddaşıma yazılıb. O gəzib-dolandığım yerlər, dağ-daş da sanki könül dünyama həkk olundu. Hüseyn babamın, atamın, eyni zamanda yaşlıların Ağbaba-Şörəyellə bağlı xatirələri, bəzən də qəhərlənmələri, yana-yana Ağbabanı xatırlamaları məni də təsirləndirdi, mənim humanitar sahəyə marağım və həvəsim artdı. Təbii ki, burada Ceyran bibimin də az təsiri olmadı. Bu adlı-sanlı dil-ədəbiyyat müəllimi, tanınmış pedaqoqdu. Hə, bir də baxdım ki, tarixə könül vermişəm. Müəllim işləsəm də, baxdım könlüm dədə-baba torpaqlarının həsrəti ilə od tutub alışır. Buna görə könlümdən keçənləri də yazıya çevirməyə başladım. Beləcə məqalələrim işıq üzü gördü. “Qarabağ salnamə”sinə addım atdım. Bizim soy-kök, şəcərə məni çox maraqlandırdığından bu sahədəki boşluğu dolduracaq bir kitab işləməyi qərara aldım. Əslində bunun əsasını könlümdə Hüseyn babam qoymuşdu. O həmişə fəxrlə deyərdi:

– Bala, mənim ata tərəfim də, ana tərəfim də tanınmış adamları ilə bəllidir. Ağsaqqal Vəlini, yəni Vəli babamı tanımayan yoxdu. Qaldı ana tərəfim... Vəlibəyovlardı. Rza, Cəfər Vəlibəyovları kim tanımır ki!

Beləcə addım-addım istəyimə, məqsədimə doğru irəlilədim. Bəli, bu iş reallaşdı. Tacir Səmimi ilə birlikdə işləməyi qərara aldıq.

Ağbaba-Şörəyelin tarixini tanınmış tarixçi alim Nazim Mustafa ətraflı işləyib. Mən burada sadəcə yığcam məlumatlarla kifayətlənmək fikrindəyəm.

...Amasiya adı bizim yaşadığımız bölgəyə elə də qədim dövrdə verilməyib. Bu, 1930-cu illərdəki Sovet rayonlaşması dövründə yaranıb, yəni Ağbaba mahalı iki rayona

bölünüb: Amasiya və Qızılqoç. 1915-1920-ci illərdə baş verən erməni vəhşəti nəticəsində Qızılqoçun kəndləri xarabalığa çevrilib, əhalisi qırılıb, sağ qalanlar da pərən-pərən olublar. Qızılqoç bundan sonra Quqasyan adlandırılıb. Arpaçayı da Quqasyan adlandırıblar.

...Burada qeyd olunan görkəmli adamlar, yəni Ağsaqqal Vəli, Xəstə Zərnişan, Yetim Əskər, Hüseyn Vəliyev, Usta Məcid təkcə Amasiyanın Təzə İbiş kəndində deyil, bütün rayonda tanınmış adamlardı. Sözləri ilə, hikmət və kəramətləri ilə Ağbaba torpağının yetirdiyi adamlardı. Bu yerin saz-söz adamlarıydı. Xəstə Zərnişan boşuna demir ki:

Axı ayrılmazdı Ağbaba Qarsdan

Yəni Ağbaba həmişə Qarsla bağlı olub, onun tərkibində bir nahiyə olub. Burada bizim dirliyimiz, birliyimiz, bütövlüyümüz var. Bu, folklorda yaşayır, bunu unutmayaq.

Bəli, Qərbi Azərbaycanın bir rayonu da Amasiyadır. Adətən, ağbabalılar həmişə buraya Amasiya yox, Hamasa deyirlər. O yer-yurd bizimdi. Amasiya Qərbi Azərbaycan deyilən əbədi və əzəli torpaqlarımızın bir bölgəsidir. Biz ora qayıdacağıq!

***Anar HÜSEYNOV***

# REDAKTORDAN

Tacir Səmimi və Anar Hüseynovun böyük zəhmət hesabına araya-ərsəyə gətirdikləri "Qərbi Azərbaycandakı izimiz, sözümüz" kitabının çapa hazırlanmış nüsxəsini Tacir müəllim mənə Zəfər günümüzün üçüncü ildönümü ərəfəsində göndərdi. İnstitutumuzun – AMEA Folklor İnstitutunun nəşr etdirdiyi bir sıra kitabların çapa hazırlanmasında yaxından iştirak etmişəm. Deyərdim ki, bu dəfə çox sevincli idim. Qarşımdakı kitabın adı, mövzusu Qərbi Azərbaycanla bağlıdır – ata-babalarımızın yurdu, əzəli, əbədi torpaqlarımız olan Qərbi Azərbaycanla! Vaxtımızın qızıldan qiymətli olduğu vaxtda dəqiqəsini, saatını bu müqəddəs işin görülməsinə həsr etməkdən gözəl nə ola bilər ki?! Həm də zəfərimizin üçüncü ildönümünü qeyd etdiyimiz qürurlu günlərimizdə! Kitabı oxuya-oxuya Qarabağlı Azərbaycanımızın sevincini indi yaşadığımız kimi ata-baba yurdumuz olan Qərbi Azərbaycana qayıdışımızın sevincini bir gün qeyd edəcəyimizə inamım artır. Qarabağı işğaldan azad edincə hər bir vətəndaşımız qarabağlı olduğu kimi, bu gün də hər kəs Qərbi Azərbaycana layiqli qayıdışımızı görmək arzusu ilə o doğma yurdun övladıdır.

Hüzür məclislərində bəzən diqqəti çəkir ki, kimsə sənin itirdiyin əzizini heç də şəxsən tanımır, lakin necə göz yaşı axıdır. Onda böyüklərimizdən eşitdiklərimizi xatırlayırıq: "Ürək yanmasa, gözdən yaş çıxmaz". O da öz əzizini itirib deyə bu acını qəlbən anlayır. Bəli, müəlliflərin fikirlərini, xatirələrini oxuyarkən bu müqayisə ürəyimdən keçdi. Çünki Qərbi Azərbaycan həsrəti, ata-baba torpaqlarına qovuşmaq arzusu o insanlar kimi mənim də ağrılı yerimdir. Tacir müəllim, Anar müəllim inandığı kimi, mən də Qərbi Azərbaycana – babam Axund Həsənin Dərələyəz mahalının Arınc kəndindəki ocağına qovuşacağım günə inanıram. Demək, biz o yurd

yerlərimizin yaşlı insanlarından topladıqlarımızı yazıya almalı, şirin ləhcəsinə də toxunmadan çap etdirməliyik. Şəcərəmizin, ata-baba yurdumuzla bağlı xatirələrimizin yazıya alınması təxirəsalınmaz işimiz olmalıdır. İnsan yaşa dolduqca xalqı üçün yararlı iş görməyə, özündən sonra yaxşı bir iz, xatirə qoymaq üçün daha çox çalışır. Müəlliflərin bu dəyərli kitabı böyük zəhmət bahasına haırlaması da həmin faydalı işlər sırasındadır. Tacir müəllimin, Anar müəllimin gördüyü bu müqəddəs iş – yaşlı insanlarımızdan Qərbi Azərbaycanın bir hissəsindən böyük bir tayfa, nəsil haqqında məlumatları, folklor örnəklərini, aşıq və el şairlərinin şeirlərini, xatirələrini nitqinə heç bir müdaxilə etmədən, dialektə məxsus şəkildə onların dilindən olduğu kimi yazıya alması yurd həsrəti ilə yanan insanın ürəyinə su səpmiş olur. Bu, gələcək nəsillərə ən gözəl yadigardır. Tariximizin dil yaddaşını gələcək nəsillərə ötürməkdir. Nə yaxşı ki çox xatirələr zehinlərdən silinməyib, xalq arasında yaddaşlarda yaşayır.

Kitabdan Təzə İbiş və Qonçalı kəndlərində yaşayan Bayraməlilər tayfasından olan insanlar haqqında məlumatlar əldə etmək mümkündür. Toplanmış xatirələr bölgədəki insanlar, insanların xüsusiyyətləri haqqında, yerimiz, yurdumuz haqqında nə qədər bilgi verir.

Folklor örnəkləri bölümündə yer alan Süleyman dayının lətifələri müdriklikdən, hazırcavablıqdan, bölgədəki insanların təmkinindən, dünyagörüşündən xəbər verir. Rəvayətlərdə bölgədəki tanınmış adamların – Əlinin, Əhməd ağanın, Aşıq Nəsibin, Aşıq İsgəndərin və başqalarının haqqında el arasında rəvayətə çevrilmiş söz-söhbətlər diqqəti cəlb edir. Demək olar ki, çox ərazilərdə müşahidə olunmayıb, xüsusilə bu bölgəyə xas olan tırınqılar, qımqımılar maraq doğurur. Aşıqlar və el şairlərindən Yetim Əskərin, Xəstə Zərnişanın, Usta Məcidin yaradıcılığında poetik xüsusiyyətləri araşdırsaq, ayrıca bir

tədqiqat mövzusudur. Onların hər biri haqqında avtobioqrafik məlumat Tacir müəllimin və Anar müəllimin yorulmaz əməyinin nəticəsində toplanıb yazıya alınmışdır. Xəstə Zərnişanın tövsiyə dolu şeirləri gələcək nəsillərə yol göstərir. Vətən nisgilli şeirləri, torpaq sevgisinin ifadə olunduğu misralar bizi o yurda səsləyir.

Mənə yurdsuz deyən, didərgin deyən,
Qəddimi gör necə əyif gəlirəm.
Ağbaba dərdindən dəli olmuşam,
Cütəlli başıma döyüf gəlirəm.

Yurdum yadın oldu, sahibsiz obam,
Bumbuza dönübdü isticə yuvam.
Sanki boğuluram, çatışmır havam,
Yuxuda dağlara dəyif gəlirəm.

Misralarda dağlara, bulaqlara həsrət qaldığını haray çəkən Xəstə Zərnişanın fəryadı duyulur. Dövrünün naqis cəhətlərinin, eybəcərliklərinin diqqətə çatdırıldığı misralar Zərnişanın necə cəsarətli, sözünü deyən qadın olduğunu bəlli edir.

Örnəklərdə müşahidə edilən insan adları, yer adları folklor onomastikası istiqamətində tədqiqat aparmaq üçün, sonda hazırlanmış dialektoloji lüğət dialektologiya sahəsində tədqiqat aparmaq üçün dəyərli mənbədir.

# SOY-KÖK, ŞƏCƏRƏ




Vəli
Əsəd
Güllər
Hüseyn
Ələsgər
Esmira
Almaz
Hüseyn
İsmayıl
Şahin
Samir
Turan
Ulduz
Ceyran
Müşfiq
Məlahət
İsfəndiyar
Vüsalə
Zümrüd
Anar
Xədicə
Baqir
Səccad
Qulu
Leyla
Əsəd
Pərviz


Vəli
Hümmət
Abbas
Əmir
Binəli
Rəsul
Əflaz
Məhəmmədəli
Natiq
Namiq
Abbas
Əmrah
Sultan
Hətəm
Mərdan
Həcər
Gülzadə


Eyyub
Süleyman
Vəli
Mərcan
Qotaz
Göyərçin
Tahir
Qalib
Cavanşir
Buludxan
Katya
Səfiyə
Minaya
Ağbaba
Rafayel
Sona
Sevil

Adamların mənsub olduqları tayfanın, tirənin yazılı şəcərəsinə çox az-az rast gəlinir. Bu da təsadüfi deyil. Keçmişdə təhsil, məktəb məsələləri yaxşı olmayıb. Digər tərəfdən Sovet hakimiyyətinin qurulması, qurulduğu ilk günlərdən də iman-din adamlarına, təhsilli şəxslərə qarşı amansız siyasət yeritməsi (mollaları, seyidləri, adlı-sanlı din xadimləri və başqalarını nəzərdə tuturuq) nəticəsində şəcərə məsələləri az qala unudulmuşdur. Sovet hökuməti varlı-hallı adamları da "sinfi düşmən" adı ilə qaralamış, onları Sibirə, ya da Qazaxıstana göndərdiyindən çox vaxt şifahi şəkildə yeddi arxa dönənin tanıdılması məsələsi yaşlılar tərəfindən bir növ "unudulmuşdur". Çünki onlar nəvə-nəticələrinin hökumətin qəzəbinə gələcəklərini yaxşı bilirdilər. Buna görə çox vaxt soyadlardakı "ağa", "bəy" sözləri çıxarılmışdır. Təbii ki, bu prosesdən Bayraməlilər tayfası da kənarda qalmayıb. Ola bilsin yazılı şəcərə də olub, sadəcə tutatut və sürgünlər, bir sözlə, Sovet hökumətinin sərt qanunları bunu ortalığa çıxartmağa imkan verməyib.

## BAYRAMƏLİLƏR TAYFASI

Bayraməlilər tayfasının əsasını Bayraməli qoyub. O, əslən Şərurdandır. Nadir şahın dövründə Bayraməli Şərurdan İrəvanın yaxınlığına – Neciliyə gəlib orda binə bərkitmişdir. Onun bir oğlu (Hüseyn) olub. Hüseynin oğlu Bayraməlidir. Onun oğlu Bayram köçüb Ağbabaya, Təzə İbişə gəlib. Bayramın üç oğlu (Vəli, Məhəmməd, Əli) olub. Sonralar Bayraməlilər tayfasının üç tirəsi (Vəlinin uşaqları, Məhəmmədin uşaqları, Əlinin uşaqları) yaranıb.

## BAYRAMALI

Əslində bu kişinin adı Bayraməlidir, danışıqda “Əli” sözü “Alı” şəklini alıb. Bayraməli Bayraməli tayfasının ulu babası hesab edilir. Yaşlıların dediklərinə görə o, Qarsın Ağüzüm kəndində (Qarsın Akyaka ilçəsində iki Ağüzüm var; Kiçik Ağüzüm, Böyük Ağüzüm. Bunlardan hansının nəzərdə tutulduğu məlum deyil) dünyaya gəlib. Bayraməli kəramət sahibi, təhsilli olub, el-oba arasında böyük hörmət qazanmış şəxslərdən olub. Haqqında çox az məlumat qalıb.

## HÜSEYN BAYRAMƏLİ OĞLU

Hüseyn Bayraməlinin yeganə oğludur. Yaşlıların dediklərindən məlum olur ki, bu şəxs el arasında Nər Hüseyn adı ilə tanınan ünlü pəhləvan olub. Səxavəti, mərdliyi, eyni zamanda sinədəftərliyi ilə şöhrət tapıb. Onun bədahətən dediyi şeirlər vaxtında toplanıb yazıya alınmadığından itib-batmışdır.

## ƏLİ BAYRAM OĞLU

Əli tirəsinin ulu babası sayılır. Deyilənə görə, bu kişi ortaboylu, güclü-qüvvətli bir adam imiş. El-obada yaxşı biçinçi, rəncbər kimi tanınıbmış. At minməkdə, güllə atmaqda da tayı-bərabəri olmayıb. Bir sözlə, el-obada böyük hörməti olan bir şəxs olub. Elə buna görə də haqqında xeyli rəvayətlər yaranmışdır.

## MƏHƏMMƏD BAYRAM OĞLU

Məhəmməd də kənddə yaxşı rəncbər, qonşuluğa böyük önəm verən bir zəhmətkeş kişi kimi tanınıb. Onun Namaz adlı bircə oğlu olub. Sovet hakimiyyətinin tutatutu, sərt qanunları onu da cana gətirdiyindən bir gün gecə ilə sərhədi keçib o yana, Türkiyəyə pənah aparıb. Haqqında ətraflı bilgi yoxdur.

## ORUC ƏLİ OĞLU

Oruc Əlinin oğludur. O da atası kimi işgüzar, bədəncə sağlam, qüvvətli olub. 37-nin tutatutu ondan da yan keçməyib. Orucu tutub aparıblar, bir də ondan heç bir xəbər alınmayıb.

## ƏLİNİN UŞAQLARI TİRƏSİ

Əlinin bir oğlu (Oruc) olub. Orucun iki oğlu (Abdulla, Cahangir), dörd qızı (Sona, Dönə, Ağca, Ətlaz) olub.

## VƏLİNİN UŞAQLARI (AĞSAQQAL VƏLİNİN UŞAQLARI) TİRƏSİ

Bu tirənin ağsaqqalı Ağsaqqal Vəlidir. Ağsaqqal Vəli vaxtilə bir neçə il qlava işləyib, tanınmış din xadimi, ağsaqqal kimi bütün Ağbabada, Çıldırda, Gümrüdə tanınıb. O, Güllübulaqlı qlava Mustafa, Təzə İbişli Həmzə ağa, Topal Əli ağa, Gülməmməd ağa, Qanlı Mahmud (tanınmış qaçaq olub), Qaçaq Yusif, gümrülü Əliqulu ağa, Hacı Yusif, Şa-

ban Katta, Qaraçantalı Hacı Əmrah, çıldırlı Aşıq Şenlik, Göləli İbrahim kimi ünlü şəxslərlə yaxın dostluq etmiş, yeri gələndə sinədən, bədahətən şeirlər də söyləmişdir. Ağsaqqal Vəli kəramətli, dünyagörmüş, qeyri-adi qabiliyyət sahibi olduğuna görə el arasında nüfuz sahibi olub.

## HÜMMƏT VƏLİ OĞLU

Kəndin yaşlı kişilərindəndi. Bu ortaboy, arıq kişi olduqca söhbətcil, dünyagörmüş, ağıllı idi. Hümmət kişiyə övladları "əmi" deyə müraciət edirdilər. Təbiətcə sərt olsa da, ürəyiyumşaq, mehribandı. Kənddə, ailədə hörmət sahibi idi, hamı onun hörmətini saxlayırdı. Bu rəhmli kişinin sözünü nə oğul, nə gəlin, nə də nəvə yerə sala bilməzdi. Hümmət kişi uzun müddət arabaçı, çoban işləmiş, bir sözlə çətinliyin hər üzünü görmüşdü. Olduqca ailəcanlı, qohum sevən adamdı. Həyat yoldaşı Qəmər vaxtsız vəfat etsə də, o yenidən evlənməmiş, övladlarını tək böyüdüb boya-başa çatdırmışdı. Hümmət kişi də kəndin sinədəftər, danışıqlı, xoşrəftar kişilərindən sayılırdı.

## RÜSTƏM

Zəhmətkeş, əməksevər bir adamdı. Qardaşı İsa tutulandan sonra onun qızlarını da özü ilə Balakənə aparmış, orada yaşamağa başlamışdı. O da Hümmət kişi kimi təbiətcə sərt olsa da, qardaşı qızlarına öz övladları kimi baxmış, onları böyüdüb ərə vermiş, ailə sahibi etmişdi. O, qonaqpərvər, comərd, şirin danışıqlı idi.

## İSA

Rüstəm kişinin qardaşı Ağsaqqal Vəlinin oğulluğudur. İsa kişi də yaxşı rəncbər kimi tanınmışdı. O, Təzə İbiş kəndinin ilk kolxoz sədrlərindəndi. O, kolxoz sədri işləyəndə tutulmuş, həbs edilmişdi. Bu hadisədən sonra ondan xəbər-ətər alınmamışdır.

## HƏSƏN BABA

Cavan vaxtlarından çobanlıq eləyirdi. Sadə, işgüzar, kənd adamlarına qarşı mehriban və xoş rəftarlı idi. Heç kimin könlünə toxunmaz, başını aşağı salıb öz işi ilə məşğul olardı. O, böyük qardaşları Əsədə, Hümmətə böyük hörmət edər, onların bir sözünü iki etməzdi. Həsən kişi bacısı Xəstə Zərnişanı çox sevər, onun zarafatlarına gülümsəyər, söhbətinə diqqətlə qulaq asardı.

## HÜRÜ NƏNƏ

Əslən Çıldırın Külverən kəndindən idi, qohum-əqrabaları o tərəfdə – Çıldırda qalmışdı. O, üç uşaqla (Rüstəm, İsa, Ayvaz) Təzə İbiş kəndinə pənah gətirmişdi. Hürünün əri ölmüş, böyük qızı Tükəz (Tükəzban) Ağüzüm kəndində (Türkiyədə) ərdə idi. Hürü olduqca gözəl, həm də gözəl xasiyyətli idi. O, Təzə İbişdə ikinci dəfə ailə qurdu. Ağsaqqal Vəliyə ərə getdi. Çünki Ağsaqqal Vəli çox insaflı, mürvətli adamdı, Hürünün oğullarını öz doğma övladlarından ayırmırdı.

Hürü nənə həm də sinədəftərdi. Onun bayatıları ağız-da-dildə dolaşırdı.

## ƏSƏD VƏLİ OĞLU

Kəndin boylu-buxunlu adamlarından biri olub. Əsəd yaxşı rəncbər, zəhmət adamı kimi kənddə tanınmışdı. Onun olduqca gözəl avazı vardı. Hamı onun Quran oxumasına valeh olarmış. Tayfasının adamları hörmət əlaməti olaraq ona "dədə" deyə müraciət edərmişlər.

## HÜSEYN ƏSƏD OĞLU

Kəndin boylu-buxunlu kişilərindən biridir. Müharibəyə gedib sağ-salamat qayıtmış, kənddə kolxoz sədri işləmişdir. İnsaflı, mürvətli, qədirbilən rəhbər kimi el-oba arasında böyük hörmət qazanmışdır. O vaxtlar kəndlərə kolxoz sədrlərini bilərəkdən başqa kəndlərdən (bu erməni bicliyi idi) qoyurdular ki, adamlar əzab-əziyyət çəksinlər. Çünki başqa kənddən gələn adam kənd adamlarına can yandırmaq, onların dərd-sərinə şərik olmaq istəmirdilər. Onlar daha çox əllərində sərvət toplamağa çalışır, adamlara əzab-əziyyət verməkdən çəkinmirdilər.

Hüseyn 1952-1959-cu illərdə kənddə kolxoz sədri işlədi. Onun sədrliyi dövründə elə bil adamların üstündən bir ağır yük götürüldü. Yeni sədr cavan olsa da, adamlara canı yanan, işgüzar və mürvətli olduğundan kəndlilərin taleyində xeyli dəyişiklik etdi. Kolxoz tayalarını Naprazların yanından köhnə yerinə, suyun başına, bulağın başına gətirdi. Tayaların belə uzaqda qurulması bir tərəfdən əvvəlki rəh-

bərlərin şəristəsizliyindən irəli gəlsə də, burada əsas məqsəd adamlara zülm və işgəncə vermək, onları incitməkdən ibarətdi. Çünki tayadan otu çobanlar, naxırçılar şələ ilə aparmalı idilər. O vaxtlar arabadan, öküzdən istifadə etmirdilər, qapandan istifadə yoxdu. Əlbəttə, bunlar "rəhbərlərin" sadəcə "yadlarından çıxmışdı", onlar adamları qorxu və vahimə altında saxlamağa daha çox üstünlük verirdilər. Hüseyn sədr olanda kolxozun səksən baş öküzü vardı. Bu da qırx boyun (bir cüt) öküz deməkdi. Təzə sədr dərhal göstəriş verib bir neçə araba bağlatdı, qapan tərəzi gətirtdi. Çobanlar, naxırçılar tayadan otu araba ilə daşımağa başladılar. Hüseyn iki inək ferması tikdirdi. Onun vaxtında kəndə elektrik xətti, radio çəkildi. O, hökümətə çoxlu ət verib (o vaxtlar ət planı artıqlanması ilə yerinə yetiriləndə kolxoza maşın verirdilər) bir maşın aldı. Adamların yaşayışı yavaş-yavaş öz axarına düşdü.

Hüseyn Əsəd oğlu sonralar uzun müddət kənddə kənd sovetinin sədri işlədi. O, yaşlı vaxtlarında kənd sovetinin katibi oldu. 1988-ci il erməni vəhşətindən Azərbaycana pənah gətirdi, Xanlar şəhərində yer-yurd elədi, binə bərkitdi. Az keçmədi ki, Hüseyn kişi burada da hörmətli, nüfuzlu ağsaqqal kimi tanındı, veteranlar şurasının sədri kimi fəaliyyət göstərdi.

Hüseyn kişi Xanlar şəhərində səksən yeddi yaşında dünyasını dəyişdi.

## GÜLLƏR ƏSƏD QIZI

Amasiyanın İbiş kəndində doğulub. Əslən Gürcüstandan olan Əskərlə ailə qurub. Bu evlilikdən onun beş övladı

var: üç oğlan (İdris, Musa, Zahid), iki qız (Qələmzər, Cəmilə).

Oğlu İdris və qızı Qələmzər Qara Təhlə kəndində, digər övladları Rusiya Federasiyasında yaşayırlar. Güllər 1997-ci ildə Qara Təhlə kəndində vəfat edib.

## SÜLEYMAN

Bu kişi geniş dünyagörüşlü, olduqca ağıllı, düşüncəli adamdı. Həmişə maraqlı əhvalatlar danışar, cavanlara nəsihətamiz rəvayətlər danışardı. Süleyman kişi adamlar arasında böyük hörmətə malikdi. O, tay-tuşları ilə məclis qurmağı, Məhəmmədhəsənlə, Qəhrəmanla, Məzahirlə, Muxtarla, Çoban Calalla olduqca şirin söhbəti, baməzə əhvalatları el-oba arasında yayımış, rəvayətlərə, lətifələrə çevrilmişdir. Onu görən kimi cavanlar, yaşlılar başına toplanar, o da adamların nə istədiklərini yaxşca anladığından ötənlərdən-keçənlərdən (Həmzə ağadan, Mazmanın eşşəyindən, Kokorun bağrının çatlamasından, Nerses kişinin sünət məsələsindən, aclıq illərindən və s.) elə şirin-şirin danışardı ki, adamlar nağıla qulaq asan kimi ona huşu-quşla diqqət verərdilər. O, Sahil qəsəbəsində dünyasını dəyişib.

## AĞBABA SÜLEYMAN OĞLU

1961-ci ildə Amasiya rayonunun Təzə İbiş kəndində dünyaya gəlib. 1984-cü ildə Bakı Dövlət İnşaat-Mühəndislər Universitetini bitirib. Əvvəlcə rayonda texniki peşə məktəbinin Komsomol Komitəsində işləyib. Ağbaba daha sonra Bakı Gibs zavodunda müxtəlif vəzifələrdə (usta, sex

rəisi, baş texnoloq) çalışıb. Hazırda özəl təşkilatda baş mühəndis işləyir. Ailəlidir, üç övladı var.

## VƏLİYEV QULU HÜSEYN OĞLU

1949-cu ildə Amasiya rayonunun İbiş kəndində dünyaya gəlib. O, İrəvan Kənd Təsərrüfatı Texnikumunu bitirib. Qoncalı süd-heyvandarlıq sovxozunda müxtəlif vəzifələrdə (ferma müdiri, zootexnik) işləyib. Daha sonralar təhsilini davam etdirərək Gəncə Kənd Təsərrüfatı Akademiyasını bitirib. Qulu Qaraçanta sovxozunun baş zootexniki, daha sonralar (1982-1988) Qarabulaq kökəltmə sovxozunun direktoru işləyib.

Digər soydaşlarımız kimi o da 1988-ci ilin məlum hadisələri ilə bağlı Azərbaycana – Sumqayıta pənah gətirib. Burda binə bərkidib. Burada Azərkimya şirkətinin yardımçı təsərrüfatının müdiri kimi çalışıb. 1990-cı ildə Göygölə köçüb, orada Göygöl sanitariya-epidemologiya idarəsinin müdiri işləyəndən sonra 2000-ci ildə yenidən Sumqayıta köçüb. 11 il Sumqayıt qaz istehsalı idarəsində usta kimi çalışandan sonra təqaüdə çıxıb. 2021-ci il mayın 24-də vəfat edib.

## CEYRAN HÜSEYN QIZI

1952-ci ildə Amasiyanın İbiş kəndində doğulub. O, N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin dil-ədəbiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib. Əvvəlcə İbiş kəndində, daha sonra Qoncalıda dil-ədəbiyyat müəllimi işləyib.

Ceyran müəllimə pedaqoji fəaliyyətini Sumqayıt orta məktəblərinin birində davam etdirib. Hazırda təqaüdçüdür. Evlidir. İki övladı (Müşfiq, Məlahət) var.

## VƏLİYEV İSFƏNDİYAR HÜSEYN OĞLU

1954-cü ildə Amasiya rayonunun İbiş kəndində dünyaya gəlib. Bakı plan-uçot texnikumunu bitirib.

1977-1982-ci illərdə Amasiya rayon maliyyə şöbəsində vergi müfəttişi, 1982-1988-ci illərdə Göllü heyvandarlıq sovxozunda baş hesabdar işləyib.

1988-1983-cü illərdə Azərkimya trestində, 1995-1998-ci illərdə Aviasiya texnikalarının təmiri zavodunda, 1999-2009-cu illərdə Fuad MTK-da, daha sonra 2010-2018-ci illərdə Azərsu təsərrüfatının su-kanal İdarəsində baş hesabdar kimi çalışıb. Hazırda təqaüdçüdür.

## VƏLİYEV ƏLƏSGƏR HÜSEYN OĞLU

1962-ci ildə dünyaya gəlib. Qoncalı kənd səkkizillik məktəbini bitirəndən sonra, 1978-ci ildə İbiş kənd orta məktəbini bitirib. O, Qoncalı süd-heyvandarlıq sovxozunda fəhlə işləyəndən sonra, 1979-cu ildə könüllü olaraq hərbi təhsil almaq qərarına gəldiyindən Amasiya rayon hərbi komissarlığı tərəfindən Donetsk Ali Hərbi siyasi məktəbinə göndərildi. Ələsgər bu hərbi məktəbi 1983-cü ildə başa vurdu. O, əvvəlcə Prikarpatiya hərbi dairəsinin Lvov vilayətinin Nestrov rayonunda rabitə briqadasında bölük komandirinin siyasi işlər üzrə müavini, 1984-88-ci illərdə uzaq Şərq hərbi dairəsində Saxalin vilayətinin Aniva rayonunda xüsusi təyinatlı radiotexniki alayda rabitə bölük ko-

mandirinin siyasi iş üzrə müavini, 1988-89-cu illərdə isə Xabarovsk vilayətində tədris alayında rabitə tədris bölüyü komandirinin siyasi iş üzrə müavin işləmişdir. Ələsgər Zaqafqaziya hərbi dairəsinin Neftçala rayonu motoatıcı alayında klub rəisi, daha sonra Bakı şəhərində tədris bölük komandirinin siyasi iş üzrə müavini, 1991-92-ci illərdə Qusar rayonunda alayda zenit diviziyanın komandirinin müavini kimi hərbi xidmətini davam etdirmişdir.

Ələsgər Vəliyev 1992-ci il fevralın 21-dən Azərbaycan Respublikasının silahlı qüvvələrində müxtəlif vəzifələrdə (hərbi hissə komandirinin siyasi işlər üzrə müavini, hərbi hissə komandiri, hərbi hissə komandirinin müavini) işləmiş, 1994-1999-cu illərdə Müdafiə Nazirliyinin Əməliyyat idarəsinin komanda məntəqələri şöbəsinin baş zabiti olmuş, 1999-2000-ci illərdə Hərbi Akademiyanın dinləyicisi olmuşdur.

Ələsgər Hüseyn oğlu 2000-2003-cü illərdə hərbi hissənin Əməliyyat və döyüş hazırlığı şöbəsi rəisinin baş köməkşisi, 2003-cü ildən Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində İdarəetmə bölməsi rəisinin baş köməkçisidir.

O, 1992-1994-cü illərdə Zəngilan, Qubadlı, Laçın, Ağdərə, Kəlbəcər, Füzuli, Xanlar rayonları uğrunda gedən döyüşlərdə iştirak edib, 1996-cı ildən polkovnik-leytenant rütbəsini almışdır.

## İDRİS ƏSKƏR OĞLU

Hüseyn Əsəd oğlu bu bacısı oğlunu “istəkli bacım oğlu” deyə çağırıb, dayı-bacıoğlu bir-birinə çox mehriban olublar. İdris həmişə dayısının yanına gəlib, ona hədiyyələr

gətirib. Onu könlü istəyən yerlərə aparıb, cibinə xərclik qoyub, dayısına böyük hörmət və ehtiram göstərib. Dayısı vəfat edəndə Rusiyada olsa da dərhal gəlib, onun ehsanını İdris verib. Beləcə el-oba arasında qədirbilən bacıoğlu kimi hörmət qazanıb.

## ƏHMƏDOV CAVANŞİR SÜLEYMAN OĞLU

Təzə İbiş kəndində göz açıb. Ali məktəbi İrəvan şəhərində bitirib. Yaxşı müəllim, geniş dünyagörüşlü adam kimi el-oba arasında hörmət qazanıb. Cavanşir müəllim həm də erməni və rus dillərini mükəmməl bilirdi. O vaxtilə bu sətirlərin müəllifinin də müəllimi olmuşdur. Cavanşir müəllim Qaradağ rayonunun Sahil qəsəbəsində müəllim işləyirdi. Xeyli vaxtdır ki, vəfat edib.

## VƏLİYEV MÜBARİZ HƏSƏN OĞLU

Təzə İbiş kəndində dünyaya gəlib. İrəvan Kənd Təsərrüfatı texnikumunu bitirib. Kənddə uzun müddət baytar həkimi, sürücü işləyib. Musiqiyə, şeirə xüsusi maraqlı adamdı. Şən əhvallı, zarafatcıldı. Əmircanda yaşayırdı.

## VƏLİYEV TAHİR EYYUB OĞLU

Amasiya rayonunun İbiş kəndində doğulub. Gəncə Pedaqoji İnstitutunun riyaziyyat fakültəsini bitirib, əvvəlcə Qoncalıda, daha sonra İbişdə müəllim işləyib. İndi də pedaqoji fəaliyyətini davam etdirir.

## HÜSEYN ƏLƏSGƏR OĞLU

Bakı Dövlət Universitetini bitirib. Hazırda ABŞ-da yaşayır, ailəlidir.

## ALMAZ ƏLƏSGƏR QIZI

Azərbaycan Tibb Universitetinin əczaçılıq fakültəsini bitirib. Ailəlidir. Bakı şəhərində yaşayır.

## ESMİRA ƏLƏSGƏR QIZI

Azərbaycan Xarici Dillər Universitetini bitirib. Ailəlidir. Bakı şəhərində yaşayır.

## VƏLİYEV RAFAYIL AĞBABA OĞLU

Amasiya rayonunun İbiş kəndində doğulub. Bakıda Kooperasiya Universitetini bitirib. Ailəlidir. Dostluq Mərkəzində işləyir.

## SONA AĞBABA QIZI

Amasiya rayonunun İbiş kəndində doğulub. Moskva Hüquq və İdarəetmə İnstitutunun Bakı filialını bitirib. Ailəlidir.

## SEVİL AĞBABA QIZI

Amasiya rayonunun İbiş kəndində doğulub. Bakıda Müəllimlər İnstitutunu bitirib. Ailəlidir.

## VÜSAL ƏLİZADƏ

Ağbabanın nəvəsi, Sonanın oğludur. Bu il Neft-Kimya Akademiyasına yüksək balla daxil olub, tələbə adını qazanıb.

# FOLKLOR ÖRNƏKLƏRİ

## BİR NEÇƏ SÖZ

Bayraməlilər tayfasının (danışıqda "Bayramalılar" deyirdilər) maraqlı adamları çoxdu. Elə hikmət sahibləri də, sinədəftərləri də. Di gəl ki, bunları toplayıb yazıya alanlar olmadığından olduqca dəyərli xalq inciləri – folklor örnəkləri itib-batmışdır. Bölgənin dağlıq ərazi olması, qışın buralarda uzun sürməsi (buna görə "qara qış" deyirdilər) mal-heyvan saxlayan ağbabalıları, şörəyellililəri qorxurmurdu. Uzun qış gecələrini əritmək üçün maraqlı məclislər, yığnaqlar keçirirdilər. Bu vaxt nağılçılar, aşıqlar, sinədəftərlər məclisi aparırdılar.

Kəndin ən yaxşı sinədəftəri Mahmud dayı idi. Ən yaxşı nağıl deyən və nanay oxuyan Əziz dayı idi. Bu kişi həm də toylarda toy babası işini yaxşı aparırdı.

Nağıla çox adam maraqlı idi. Yaşlılar buna qara nağıl deyirdilər. O biri nağıl dastan hesab edilirdi.

...Dəfələrlə qışda dayım Usta Məcidlə Gümrüyə Mehdi babanın nağıllarına qulaq asmağa getmişəm. İndi mənə bunlar yuxu kimi gəlir.

...Cavanlıq belədir, insan enerjili olur, güclü olur, amma çox vaxt ağılla iş görə bilmir, yeri gələndə səhvlərə də yol verir. Əlində olanın qədrini bilmir. Onu itirəndən sonra onun nə qədər dəyərli olduğunu anlayır. Bu da gecdir. Atalarımız yaxşı deyiblər: "Daldan atılan daş topuğa dəyər".

Mən də vaxtında-vədəsində rast gəldiyim folklor örnəklərini yazıya almadım. O vaxt heç bu, mənim ağlıma gəlmədi.

...Amma nənəm bunu mənə tez-tez xatırladırdı:

– A bala, qələm-dəftərini gətir, yaz.

Bunu mənə dayım Usta Məcid də xatırladırdı...

...Səhvlərimi də, topladıqlarımın əhəmiyyətini də indi-indi başa düşürəm. İtirdiklərimizdən geriyə qalan bu folklor örnəkləridir. Bu düşüncələrimi elə bu bir neçə sözlə ifadə etməyi özümə borc bildim.

***Tacir Səmimi***

## TIRINQILAR

1.

Uca dağ başından çəkib aldılar,
Qəfil bəndə düşdüm, atdan saldılar.
O gözəl günlərim harda qaldılar,
Dərdin ətəyindən tutub gedirəm.

Uca dağ döşündən yol belə düşdü,
Dərd birdi, zərbəsi düz belə düşdü.
Ah-naləm yayıldı, həm elə düşdü,
Dərdin ətəyindən tutub gedirəm.

Uca dağ döşündən, Ağbabadanam,
Gərək "yurdum" deyib, od tutub yanam.
Yurdumda yağılar, boş qalıb xanam,
Dərdin ətəyindən tutub gedirəm.

2.

Didərgin olandan üzüm gülməyib,
Kənardan baxanlar dərdim bilməyib.
Neynim, müxənnətlər çoxdu – ölməyib,
Mənim də xoş günüm, vaxtım var idi.

Didərgin olandan yurd oldu nağıl,
Huşum getdi başdan, yox oldu ağıl.
Qaçaqaç, köçəköç, dağılhadağıl,
Mənim də xoş günüm, vaxtım var idi.

Didərgin olandan dilim gödəkdi,
Hərcayılar deyir: "Bu nə öddəkdi".

Fələk sinəm üstə necə dağ çəkdi,
Mənim də xoş günüm, vaxtım var idi.

3.

Ağbaba deyəndə cana can gəlir,
Sifətim açılır, üzə qan gəlir.
Göz önünə dağlar, ötən an gəlir,
Xəyalı yaxındı, yolu uzaqdı.

Ağbaba deyilən bir gözəl yerdi,
Məni gəldi tapdı didərgin dərdi.
Yağı yurdum aldı, gülümü dərdi,
Xəyalı yaxındı, yolu uzaqdı.

Ağbaba deyilən yaxındı Qarsa,
İnanan inansın, umudu varsa...
O gözəl yerləri kim məndən sorsa...
Xəyalı yaxındı, yolu uzaqdı.

4.

Kəndimiz İbişdi, sinor yanında,
Bu həsrət yandırdı məni qınında.
Ağbabanın dərdi-odu canımda,
Yaşayır-yaşamır – bir Allah bilir.

Kəndimiz İbişdi, bir adı qalıb,
Hər ürəkdə sözü, bir odu qalıb.
O tərəfdən əsən bir badı qalıb,
Yaşayır-yaşamır – bir Allah bilir.

Kəndimiz İbişdi, ucqardı, dağdı,
Bəzən yay vaxtı da ora qar yağdı.
Çoxu ölüb gedib, qalanlar sağdı,
Yaşayır-yaşamır – bir Allah bilir.

5.

Sinor qırağında o yana baxdıq,
Dedik ki, bəxtimiz oyana – baxdıq.
Dərd gəldi, qəm gəldi – hayana baxdıq,
Alosman həsrəti öldürdü məni.

Sinor qırağında ah çəkə-çəkə,
Xırda dərd yekəldi – yekədən yekə.
Adam bu yollara elə göz dikə?!
Alosman həsrəti öldürdü məni.

Sinor qırağında qalana yazıq,
Dağ boyda dərdləri alana yazıq.
İstəyin xəyaldan al, ana, yazıq,
Alosman həsrəti öldürdü məni.

6.

Alosman deyəndə gözdən yaş axır,
Bu yandan o yana həsrət, qəm axır.
Dilimiz lal olub, gözümüz baxır,
Dərdi deməyə də imkanım yoxdu.

Alosman deyəndə anam ağlayar,
Könül, bu dərdini gəl dərddən ayır.

Güllərə bürünüb yenə çöl-bayır,
Dərdi deməyə də imkanım yoxdu.

Alosman deyəndə yada türk düşür,
Üzümüz güləndə kafir ülküşür.
Bir yandan Allaha edirəm şükür,
Dərdi deməyə də imkanım yoxdu.

# SÜLEYMAN DAYININ LƏTİFƏLƏRİ

## DƏYİŞİK SALIB

Süleyman qonşu kəndlərdən birinə gedir. Yaşlı qadınlardan biri Süleymanı görən kimi başlayır gəlinindən giley-güzara:

– Vallah, billah, a Süleyman, bizim gəlin məni dəli edəcəh. Bilirsən, bu ölmüş mənə nə deyir?

Süleyman kişi bu arvadın xəsiyətini yaxşı bildiyinnən ona baxıf əlini yelliyir:

– Sən özün də dəli-dolusan, amma gəlin sana nə deyir... Bax, bu maraxlıdı.

– Alabaşdı deyir.

– Bu nə deməhdi?

Arvat hersinnən başınnan şalı açıf başını görsədir:

– Yaxşı bax, saçımın yarsı ağdı, yarsı qara.

– Desin də.

– Ay Süleyman, sən birini bilirsən, birini bilmirsən. Bizim itin də adı Alabaşdı...

Süleyman kişi qımışır:

– Bəyaxdan özün demirsənmi gəlin dəlidi?

– Dəli də dedin... Lap ipləmənin biridi.

– Belə de da. Balaca səf eliyif.

– Necə, necə?

– İtnən səni dəyişih salıf.

## DƏDƏ BELƏ DƏDƏLİH ELƏMƏZ

Bir gün Süleyman baxır çobanın oğlu yapışıf atasının yaxasınnan:

– Ay dədə, mənə çanta al, kitab al. Bə dedin alacam, pütün uşaxların var... Mənim yoxdu.

Kişi oğluna acıxlanır:

– Sən axmax-axmax danışma. Məhtəf nədi, zad nədi. Bir azdan quzuları otarmağa apararsan.

– Ay dədə...

– Zəhrimar dədə, nə dediyimi eşitmədinmi?

Süleyman burada özünü saxlaya bilmir. Uşağı yanına çağırıf deyir:

– A bala, bir bəri gəl.

Uşax da, çoban da buna maraxnan baxıllar. Süleyman çobanı oğluna görsədif deyir:

– Sən bir də buna dədə-zad demə, elə çobandı.

Bunu eşidəndə uşax qorxa-qorxa bir dədəsinə, bir də Süleyman kişiyə baxanda o deyir:

– Bu sənin dədən “dədə” sözünə layıx olsaydı, sana kitaf-dəftər, çanta alardı. Sən də oxuyuf bir adam olardın. Bu bir. İkincisi, dədə olan belə dədəlih eləməz.

## DƏLİ GƏLİN BAŞ ÇIXARDAR

Süleymanın dostlarından biri başlayır gəlininnən gi-ley-güzar eləməyə:

– Çığıra-çığıra danışır, daha demir ki, qaynatamdan ayıf eliyim, bir az alçaxdan danışım. Elə çığırır ki, damnan

torpax tökülür. Di gəl yaxşı gəlindi. Boyu-puxunu, işi-gücü... Bircə bu dəliliyi olmasaydı...

Süleyman dosdunu yaxşı tanıdığından deyir:

– Bu gəlinin sizin ocağa tüşməyi çox yaxşı oluf, kişi.

– Sən nə danışırsan, a Süleyman.

– Əşi, sən özün guva bilmirsən mənim nə dediyimi?! Sən dəli, arvadın dəli, uşaxların dəli... Bir bölüh dəli... Bir bölüh dəlinin içində də belə dəli gəlin baş çıxardar.

## TƏPİYƏ DIRMAŞDIRIF

Bir gün Süleyman baməzə dostdarınnan birini bikef görüf xəbər alır:

– Sənnən çıxmayan işdi bu. Nə oluf?

– Arvatnan aramız dəyif. Sözümüz düz gəlmiyif.

– Niyə?

– O, mənə Şah Abbasın nəvəsi dedi. İş də burdan yoğunnadı...

– Sənin baban nökər olmuyufmu? Bunu sən də, mən də yaxşı bilirih. Sən nahax yerə arvatnan ağızdaşıfsan. Sənin arvadın gör necə qanacaxlı adamdı.

– Yox, əşi... Sən bir əməlli danış görüm nə deyirsən.

– Əhsən arvadına. Sənin babanı dağın başına qoyuf, səni də təpiyə dırmaşdırıf.

# RƏVAYƏTLƏR

## ƏLİYNƏN NAXIRÇI

Bir dəfə Əli tüfəngi çiynində gedirmiş. Baxır xeyli aralıda, bataqlığın içində camışlar var. Onnan azca uzaxda bir qarabəniz adam camışın birinin belində mil duruf. Bu, tüfəngi üzünə qaldırdığıynan tətiyi çəhdiyi bir olur. O sahat adam şapbıltıynan yerə tüşür.

Əli deyir:

– Nə oldu, qorxdunmu?

Deyir:

– Qorxmadım, səhsəndim.

Deyir:

– Mil durmax da hünərdi. Dedim sənin mərtdiyini də yoxluyum.

Deyir:

– Yoxladınmı?

Deyir:

– Yoxlamasam güllə atardımmı?

Deməh, bu dağlar mərd adamlar az yetirmiyif.

## ƏLİYNƏN ƏHMƏD AĞA

İbişdə piçinə çıxanda qırx kişi çıxır. Bunnarın başında, yanı qabaxda Əli gedir... Piçinçilər də onun dalıcax. Ona kimi Hacabbas oğlu Əhməd ağa da gəlir. Əlinin qabaxda otu piçə-piçə getdiyini görüf deyir:

– Can Əli bala, can, sana halal olsun.

Ona kimi colpaynan barabar Aşıx Nəsif də gəlir. Əhməd ağanın sözünü eşidif başını buluyur:

– Ay Əhməd ağa, “can”, “can” deməhnən nə fayda. Kərənti çəkənnərə yaxşı yeməh-işməh lazımdı. Bu iş adamnan quva işdiyir. Bu Əliyə puldan-zaddan da bir şey ver.

## ƏLİYNƏN ERMƏNİLƏR

Bir dəfə Dərəyoluynan gedəndə Əlinin qabağını iki atdı kəsir. Baxır bunnarın ikisi də yekəpər adamlardı, özdəri də erməniyə oxşuyullar. Özünü itirmir.

– Nə isdiyirsiniz?

– Atdan tüş. At bizim, nəyin var, o da bizim.

– Yaxşı.

Qəfildən atdının birinə, sonra da o birinə möhkəm bir zoxma vurur. Onnarı atdan salan kimi üsdərini kəsdirir. Ermənilər üzdən fağır görünən bu atdının ac asdan olduğunu annıyıf yalvarırlar:

– Ara, kirvə biz etdi, sən etmə.

Deyir:

– Siz məni soymax isdədiniz. Aldığınızı aldınız, azarı da canımıza saldınız.

## OĞURRUĞUN HAQQI

Bir gün bir at oğrusu Əlinin yanını kəsdirir:

– Bilirəm, at sevənsən. Filan yerdə bir ağa var. Çox yaxşı atdarı var. Sənnən barabar gedəh, ikicəciyini gətirif satax. Bizə bəsdi.

Deyir:

– A kişi, at sevənəm, amma başqasının malında gözüm yoxdu.

Deyir:

– Olmasın, artıx tikə göz çıxartmaz ki.

Bir söznən, oğru dil boğaza qoymur, bunun zəhləsini tökür. Əli işi belə görüb, ona bir az da yaxınnaşıf birdən yağlı bir şapalax tutuzdurur. Oğrunun gözdərinnən qığılcım çıxır:

– A kişi, məni niyə vurdun ki?

Deyir:

– Deyirəm mənnən oğru olmaz, əl çəhmirsən. Bu, oğurruğun haqqıdı. İndi isdiyirsən get oğurruğa, isdiyirsən də getmə. Bu şapalax yumşağıdı, ələ keşsən lap betəri olacax.

## AŞIQ İSGƏNDƏRNƏN HÜSEYN

Bir dəfə Hüseyn Aşıq İsgəndərə rast gəlir. Ağlına nə gəlirsə deyir:

– Aşıq, deyirlər ərzağın-zadın azalıb.

Deyir:

– Həyə, elədi. Bir də işlənən şey azalır.

Deyir:

– Yəqin külfətin çoxdu.

Deyir:

– Yox, mən həmişə qonşuları da düşünürəm. Hamı çətinlik çəkir. Buna görə də nə alsam qonşulara da pay ayırıram.

Deyir:

– Onda araba ilə sizə yenə üç kisə taxıl yollayacam.

Deyir:

– A sədir, bu çox olmurmu?

Deyir:

– Yox, elə səxavətə ancaq belə hörmət eliyəllər.

## ÇOBANNAN HÜSEYN

Bir dəfə gecə Hüseyn baxır bir çoban kolxoz tayasından şələ ilə ot aparır. Gedib onun qabağını kəsir:

– Bunu hara aparırsan?

Deyir:

– Neynim, mal-heyvan pəyədə acdı.

Deyir:

– Bə sən arvad-uşağını heş tüşünmürsən?

Deyir:

– Neyniyim?

Deyir:

– Sabah gəl yanıma. Sana ot da, bir az ərzaq da verəcəm. Bə sən bilmirsən indi bəlalı zəmanədi, bir ovuc arpaya belə 5-10 il iş verirlər?! Özünə yazığın gəlmir, arvad-uşağa yazığın gəlsin.

## AĞSAQQAL VƏLİYNƏN XALLI AĞA

Bir gün Ağsaqqal Vəli Çıldır tərəfə getmişdi. Kətdərin birində baxdı bir çoban bu harya gedirsə yanıcax gəlir. Əmə ürəh eliyif bir şey deyə bilmir. Dedi:

– A çoban, sənin dərdin nədi – bilirəm. Düş qabağa, gedək ağanın əvinə.

Dedi:

– Xallı ağa o qədər də qonağ-zad sevən adam döyül ha.

– Olsun, eləcə bir çay içərəm.

Gəldilər. Ağa baxdı, a balam, nökər, yanında da Ağsaqqal Vəli. Tez irəli gəldi.

– Buyur, Ağsaqqal, sən xoş gəlif, səfa gətirifsən.

Dedi:

– Xallı ağa, mən sənin mətini çox eşitmişəm. Surfada çörəh-zad kəsmərəm. Bu Yetim Qaranın hakqını-muzdunu niyə vermirsən? Bu dillənəndə də ağzınnan vurursan.

– Əynin geyinir, qarnın yeyir... Yanı geyinməyin, yeməyin mənnəndi. Sənin insafın-mürvətin yoxdumu?

Bu belə deyəndə nökər də mətəl qaldı ki, a bala, bu Ağsaqqal bunu necə bildi.

Dedi:

– Başına dönüm, Ağsaqqal, birdən ağa elə bilər bunu sana mən demişəm.

– Daha nələr... Sən de görüm bunnan nə isdiyirsən?

Ağsaqqal Vəli belə deyəndə biçara nökər qorxa-qorxa ağıya baxdı:

– Mənim deməyimnəndimi? Nə isdəsəm ağa verəcəhmi?

– Verəcəh.

– Onda on qoyun, beş keçi, bir də bir inəh isdiyirəm. Bu qapıda on ildi işdiyif əziyət çəhmişəm. Aldığım, donnuğum olmuyuf.

Əv sahabı əlini atdı cevinə, xeylax pul çıxartdı, verdi Ağsaqqala. O da bunu nökərin avcına qoydu. Tez də əyağa qalxdı. Xallı ağa çox narahat oldu:

– Bə heş çörəh-zad kəsmədin.

Dedi:

– Nökərini ki razı saldın, mana bəsdi. Elə bil bir yaxşı qonaxlıx elədin. Bu sana dərs olsun, bir də belə yamanlıx eləmə.

# ÇILDIRLI ÇOBANNAN AĞSAQQAL VƏLİ

Ağsaqqal Vəli Çıldıra gedəndə bir çoban bunun yanını kəsdirdi. Çoban bir yerə baxdı, bir göyə baxdı. Di gəl özünü tofluyuf buna bir şey deyə bilmədi, əmə ürəyində sözü varıydı. Ağsaqqal Vəli bunun dərdini başa tüşdü, dedi:

– Ay çoban, bilirəm dərdini. Ağan səni qapısınnan qavalıyıf, sənin də gedəcəh yerin yoxdu. Gəl belə eliyəh, sənnən barabar gedəh ağanın yanına. İnnən belə çoban işdəməzsən... Genə orda işdiyərsən.

– Bu nə təhər olacax, a sənin qadan alım.

Çoban bunun dediyinnən bir şey qanmasa da umuddandı, tüşdü bunun yanına. Ağa baxdı ahan Ağsaqqal Vəli bunun axmax çobanıynan gəlir. Öz-özünə çobanı yamannadı: "Ay sənin üzün tökülsün, həyə. Ədə, zalım oğlu, nə əlinnən iş gəlir, nə də bir baltıya sap olursan, üsdəlih, Ağsaqqalı da qapıma gətirdirsən. Utanmırsanmı sən? Bilmirəm ki". Bəli, ona kimi bunnar gəlif qapıya çıxdılar. Ağa bunnarı hörmətinən içəri dəvət elədi. Dedi:

– Ağsaqqal Vəli, bu axmax çobana naxax inanırsan.

Dedi:

– Kim deyir inandım?

Dedi:

– Bə onda nəyə gəldin?

Dedi:

– Bilirsənmi, məni buraya kim gətdi?

Dedi:

– Kim?

– Bu axmax dediyin çobanın haqqı.

Dedi:

– Bunun haqqı-zadı qalmıyıf.

Dedi:

– Necə?

Dedi:

– Onda qulağ as. Bir dəfə qonşu kətdən bir ağanın üç qoyunu qarışmışdı bizim heyvanların içinə. Onların üçünü də kəsib qoyub tişinin altına. Yenə demişəm nolar, kasıv adamdı, küfləti var. Bağışdıyım... Bağışdamışam. Əmə bunun da qabağına üç qoyun qatmışam… xeylax da pul vermişəm. Demişəm apar bunu ver bu qoyunnarın sahabına. Denən belə, belə... Səf olur, bu o heyvannarın əvəzinə. Bu da üsdündə pul... Səf eləmiyən bir Allahdı. Bu da dediyimi eliyif. Bu bir səfi.

Bir dəfə də vuruf bir qoçun buynuzunu qırıf. Onu da kəsif çobannara alışma elətmişəm, buna da pay veriflər. Bu da elədim iki səf?

Bir də bizim qurdcul itin iki küçüyünü götürüf bir keçiyə bir çobana verif. Bu da oldumu üç? Ay sənin qadan alım, atalarımız üçə qədər demiyiflərmi? Daha bu adam mənim yanımda işdiyə bilməz, qoyuna gedə bilməz.

Dedi:

– Deməh, bu kişiyi qapıdan qavalıyırsan, eləmi?

Dedi:

– Ay Ağsaqqal, axı mən nə oluf onu danışdım.

Dedi:

– Qandım. Sana yaxşı qulağ asdım. Bə mən sana nə dedim? Demədim burya məni bunun haqqı gətdi? Dedim. Bə heş xəbər almırsan bu nə deməkdi?

Dedi:

– Həyə, vallah, bu nə deməkdi. Mən bunu heş başa tüşə də bilmədim.

Dedi:

– Onda qulağın məndə olsun. Bu çobanın əvdə yeddi uşağı var, altı qızı, bir oğlu, bir də arvadı, anası... Bu elədi səkkiz qadın... Uşağı da, oğlu da balaca... Bə sən bunu tüşünürsənmi ki, bunlar nə yeyəcəhlər? And olsun Allahın böyüklüyünə, buna yox desən, qapıdan qavalasan varın-dövlətin bir göz qırpımında yox olacax... Bir qara qəpiyin belə qalmıyacax.

Bu belə deyəndə əv sahabı çox qorxdu, zarafat deyil, Ağsaqqal Vəli nə deyirsə olur. Odu ki, dedi:

– Mən başı daşdı nə eliyim? Axı bundan mana çoban olmaz.

Dedi:

– Həyə, çoban olmaz.

Dedi:

– Bə onda mən neyniyəcəm?

Dedi:

– Heş zad. Əvində, qapıda, bacada iş-zad görər. Ahan ağaş qırar, ocax qalıyar, hayatı-zadı təmizdiyər. Unutma, buna da o biri çobanlara verdiyin qədər pul verəcən ha. Əhsih versən vay halına. Bir söznən, bunu yola verəcən.

Dedi:

– Yaxşı.

Dedi:

– Nə yaxşı. Bəyaxdan otumuşux, əmə sənin yadına çay-çörəh də tüşmədi.

Dedi:

– Bağışla, başımız söhbətə qarışdı.

Dedi:

– Onda isdəmirsənmi səndən razı qalım?

Dedi:

– İsdəmərəmmi?

Dedi:

– Onda bu çobana xeylax pul ver. Bir iri xurcun da hazırrat. İçinə də pendirdən, yağdan qoydur, doldur. Mənim də yeməyimi-işməyimi bilirsən... Elə bil yedim-işdim. Səndən də razı gedim.

Ağa bunun dedihlərinin hamısını elədi. Onda Ağsaqqal Vəli də çobana dedi:

– Çoban, innən belə axılnan iş gör, arvat-uşağını da nəzərə al. Yaxşı iş tut, sana pis deyən olmasın.

## NIKKIZ AĞAYNAN AĞSAQQAL VƏLİ

Bir dəfə Ağsaqqal Vəli Şörəyel kətdərinnən birinə getmişdi. Burda bir nıkkız ağıya rasd gəldi, məzə damarı tutmadımı bunun. Dedi:

– Ağa, bunnan neçə dəfələrdi burya – kəndə gəlirəm, məni qonağ eləmirsən. Bu nə deməhdi?

Dedi:

– Sənin bu kətdə neçə qonaxcın var, onnarı qoyuf mənim əvimə gedərsənmi – mən də bunu tüşünüf sana təklif eləmirəm.

Dedi:

– Yox, bu dəfə də sana qonağ olacam. Əmə yeməhzad yemiyəcəm, eləcə çay içəcəm. Əmə mənim xəsiyətim belədi ki, bir dəfə çay içəndə epeycə quru çay, bir də bir kəllə qənd lazım olur.

Bunnarı eşidəndə ağanın boğazı qurudu:

– Yanı bu qədər qənd ancax səni görür?

Dedi:

– Bə sən nə bilmişdin. Sən ki belə mərd gəldin, fikrimi dəyişdirdim… Sən də xəsiyətini dəyişdir, bu nıkkızlığı tərgit, adam ol, hərdən qonaxdan-zaddan da içəri al.

## OĞRUYNAN HÜSEYN

Bir gün Hüseynin əvinə qonax gəlir. Buna yaxşı hörmət eliyillər. Yeyif-içir. Qonax eşiyə çıxanda nəsə bir səsə əv sahabı çıxır ki, qonax motalı salıf qabağına, helliyə-helliyə aparır. Ona kimi əv sahabı yüyürüf motalı alır qucağına. Genə qonağın xətirinə dəymir:

– Ayə, qonağ olanda nə olar. Sən bu motalı aparırsan özünün halal malı kimi. Bə biz yeməh yeyənnən sonra üsdünnən bir-iki dürməh pendir-çörəh yemiyəhmi? Onda pendiri hardan alax? Yoxsa motalı sana verərdim.

## YUXUSU QAÇAN ÇOBAN

Bir gün Söyün qolxoz sədiri olan vaxıtdar gecənin bir vədəsi bir çobana rasd olur. Deyir:

– Gecənin bu vədəsi sən nə gəzirsən?

Deyir:

– Heç. Yuxum qaçıf, ona görə…

Deyir:

– Yalan danışma. Ot şələnnən quzunun cəmdəyini harya gizdədifsən? Sən onu de.

Çobanın boğazı quruyanda deyir:

– A zalım oğlu, bə bilmirsənmi, sən nə qədər usda oğru olsan da, mənim xəbərim olacax?

Deyir:

– Ay Söyün, sən bunu hardan bildin axı?

Deyir:

– Mən də Ağsaqqal Vəlinin nəvəsi dəyiləmmi? Bə nə bilmişdin, atalarımız boşuna demiyiflər ki: “Əslində olan dırnağında göstərər”.

Deyir:

– Deməh, mənim işim tamamdı. Bə mənim oğul-uşağım necə olacax?

Deyir:

– Ay axmax adam, mən səni tutdurmuyacam, bir də belə iş görmə, yetər. Özünə də, ailənə də yazığın gəlsin. Bir də elə bil ki, nə sən məni gördün, nə də mən səni. Götürdühlərini də tez apar, görən, bilən olmasın, ay yuxusu qaçan çoban.

## DƏDƏM BUNU DEYİRMİŞ

Ağsaqqal Vəli Sovet hökuməti gələnnən çox narahat olur, həmməşə Allaha duva eliyif deyir:

– Ay Allah, sən mənim canımı tez al. Gavurlara fürsatdı…

Bir gün Əsəd nə tüşünürsə atasına deyir:

– Ay dədə, niyə belə deyirsən? Allaha ağır getməzmi?

Deyir:

– Ay oğul, həlbət mən bir şey bilirəm ki, belə deyirəm.

Deyir:

– Ay dədə, bir şey deyəndə nəyi deyirsən ki?

Deyir:

– Allah bu Sovetin qoxusunu kəssin. Bu özüynən müsəlman olannara bəla gətdi, ermənilər dirildilər, qudurdular. Qabaxdan da çox betər illər gəlir. Ona görə deyirəm ki, Allah mənim canımı tez alsın, mən bunnarı görmüyüm.

Doğrudan da, aradan bir az keçməmiş Ağsaqqal Vəli vəfat eliyir.

…37-də tutatut başdıyanda, sürgünlər olanda Əsəd atasının dedihlərini xatırrıyır:

– Dədəm elə bunu deyirmiş!

## DƏLİ SƏFƏRNƏN AĞSAQQAL VƏLİ

Bir gün Ağsaqqal Vəli Gümrüyə getmişdi. Baxdı Dəli Səfər bir ortaboylu, ətdi-cannı, qara kötüh kimi bir kişinin yaxasınnan yapışıf, səsləndi:

– Ay dəli, əl saxla, genə dəli tərəfinə salma.

Bu səsə belə döndü. Baxdı Ağsaqqal Vəlidi. Qabağındakı adama asdadan dedi:

– Anan namaz üsdəymiş, yoxsa boğazını üzərdim, qurban olasan bu ağsaqqala.

Bəli, Ağsaqqal gəlif bunnara yetişdi. Dedi:

– Bu kişi də gəlsin.

Gedəh sizə, görüm bu nə əhvalatdı.

Dedi:

– Nə deyirəm, gedəh deyirsən gedəh.

Bunnar gəlif qapıya çıxanda Ağsaqqal dedi:

– Bu kişi qapıda gözdəsin. Burda buna bir yer düzəldin, dincəlsin, çörəh yesin, uzun yol gəlif, qonaxdı. Bir azdan danışarıx.

Bəli, bunun dediyini elədilər. Bunnar Allah verənnən yeyəndən sonra Dəli Səfər dedi:

– Dənçiyim doluf, sana bir söz deyəcəm.

Dedi:

– Buyur.

İndi görəh Dəli Səfər burda götürüf nə dedi:

Mən neyniyim, öz əlimdə deyil ki,
Dəli şeytan "gəl buna söz qoş" deyir.
"Sən şairsən, gərək sözün deyəsən,
Şükür başda ağlı ilə hüş" – deyir.

Elə-belə dedim dəli şeytanı,
Sən bilirsən, mənimki söz meydanı.
Sən böyüksən, dəyişmərəm qaydanı,
Görünüşün mənə bunnar boş deyir.

Burda Ağsaqqal Vəli dilləndi:

– Sən de görüm nə oluf? Bu erməni hardan gəlif sana rasd oluf?

Bu belə deyəndə Dəli Səfər mat qaldı:

– Axı bunun adı Hasandı.

Dedi:

– Bu musurman adıdı, erməni adı Arakeldi. Mən ona görə onu içəri gəlməyə qoymadım. Mundarrığını sənin təmiz ocağına gətirib buruyu mundarramasın.

Dedi:

– Belə de. Deyirəm axı. Həyə, onda əhvalata da bir söz deyim.

Dedi:

– De görəh nə deyirsən.

İndi görəh genə bu götürüf burda nə dedi:

Demə dəli tərəfinə bu salıb,
Öküz gəlib dana olub, neyləyim.
Zalım oğlu yalan deyib and içir,
Səbir kasam tamam dolub, neyləyim.

Nə yaşınnan, nə başınnan utanır,
Bu, insafdan, ədalətdən nə qanır.
El yanında xəcalətdən nə qanır,
Demirəm ki, rəngi solub, neyləyim.

Dəli Səfər dəli-dəli deyinər,
Mərd oğuldu, mərd paltarı geyinər.
El içində şayır kimi öyünər,
Söz deməyə mehir salıb, neyləyim.

Dedi:

– İndi çıxax eşiyə, bu sırtıx erməniyə sözümüzü deyəh.

Çıxdılar eşiyə. Ağsaqqal Vəli dedi:

– A kişi, sən heç utanmırsanmı, yalan danışırsan? Üsdəlih, erməni ola-ola özünü müsürman kimi qələmə verirsən!

Dedi:

– Mənim adım Hasandı axı.

Dedi:

– Arakel deyilsənmi?

Bu bunu eşidəndə gözdəri ağara qaldı, daha heş-zad deyə bilmədi.

Dedi:

– Burdan radd ol, get. Bir də bu aralarda görünmə. O öküz də sənin olsun, o Allahın bəlası da.

Erməni çıxıf getdi. Aradan bir az keşməmiş bir atdı gəldi, Dəli Səfərə bir dolu xurcun verif getdi. Baxdılar için-də yazılı kağız da var. Məmmədqasım ağa yolluyuf. Çuxa, xançal, papax, xrom çəhmə… Hələ içində pul da var. Dəli Səfər puldan bir qoma da Ağsaqqal Vəliyə verdi:

– Baxırsanmı, o it erməniyə də güzəşt elədih, Allah da əvəzini belə verdi, Ağsaqqal. Sağ ol, sən deməsən mən onun erməni olduğunu hardan biləciydim ki!

## QARA CƏNNƏT

Axırkələhdə bir pəhlivan varıydı, Qara Cənnət. Həm çox uzun adamıydı, həm də çox qaraydı. Di gəl bədəni qa-yış kimiydi. Çox hünərri pəhlivan sayılırdı deyin, bir ara dizdərinə ayna da bağlıyırdı. Buna görə də buna çox vaxıt Diziaynalı pəhlivan da deyirdilər. O qədər şöhrət-şan saha-bı olmuşdu ki, daha demə. Bunun da Cəfər addı bir dostu varıydı. Çox vaxt buna Dəli Cəfər deyərdilər. Bunun da gü-cü, quvatı yerindəydi, di gəl betər dəliliyi də vardı. Bir iş varıydı ki, o nə desə Qara Cənnət onu deyirdi.

Bir gün bu Dəli Cəfərin necə oldusa axlına tüşdü ki, aya, deyirlər bu Ağsaqqal Vəli hər şeyi bilməyindən başqa çox quvatdı adamdı. Bəlkə Cənnət bir gücünü sınasın. Ey Ağsaqqal hər halda yaşdı adamdı. Cənnətin də olar qırx, qırx iki yaşı. Amma Cənnət Ağsaqqal Vəliyi alt eləsə ürə-yimnən tikan çıxar. Çünki məni bir dəfə camahatın içində rüsvay eliyif. Bəli, Dəli Cəfərin dəli tərəfinə tüşmüşdü. Qa-

ra Cənnətə dedi bə belə, belə… Bu Ağsaqqal Vəlinin hörmətini sal aşağı, qoy dili gödəh olsun. Bəli, bunnar barabar gəldilər Məsim ağanın əvinə. Ağsaqqal Vəli burdaydı. Salam verif keçdilər içəri. Ağsaqqal Vəli Qara Cənnəti görüb yavaşca dedi:

– Özünü biyabır eləmə. Bu nədi dizdərinə də ayna bağlıyıf gəlifsən. Yanındakı dəlidi – bildik. Sən dəmi dəlisən?

Bu dillənmədi. Onda Ağsaqqal Vəli əyağa qalxdı:

– Cənnət, dalımcax gəl.

Bu qapıdan çıxan kimi qabaxda Qara Cənnət, dalıcax da Dəli Cəfər gələndə Ağsaqqal Vəli dedi:

– Xata səni tutmasın, çıx get, o güləşməh məsələsini də unut.

Dedi:

– Niyə unudum ki? Açıxca de ki, qorxuram. Qoy hamı eşitsin.

– Yaxşı, indi elə eliyəcəm, hamı eşitsin.

Sağ əlinin dalı ilə buna necə dürtmə vurdusa Cənnət dığırlana-dığırlana yerə tüşüf qaldı. Səs-küyə camahat yığıldı. Baxdılar bunun dizindəki aynalar da qırılıf. Ağsaqqal Vəli dedi:

– Mən sözümü dedim, amma məni eşitmədin. Bu da bunun nəticəsi. Mən bu yaşa çatmışam, heç vaxt gücümnən, quvatımnan öyünməmişəm. Həmməşə ağılnan hərəkət eləmişəm. Yaqın innən belə sən də düz yolu tutarsan, a pəhlivan.

# XƏSTƏ ZƏRNİŞANLA BAĞLI RƏVAYƏTLƏR

## LAZIM GƏLƏNDƏ ZEYNAF XALANIN ÇİYNİNƏ VURARSAN

Bir gün genə qız-gəlinnər Zərnişanın başına toflanıfmış. Ona kimi bir gəlin də gəlir. O, orya-burya baxanda Zeynaf arvat ona deyir:

– A qızım, sən Zərnişan xalanın yanında otur.

Bu gəlin Zərnişanın yanında oturan kimi başdıyır danışmağa:

– A Zərnişan bacı, canım saa desin, ahan getmişdim filan yerə. Baxdım nə?! Bizim o dırdır arvat da ordadı. Bu da hara aşdı, orda başdı.

Danışa-danışa da əlini tez-tez Zərnişanın çiyninə vurur. Bir belə, beş belə. Birdən Zərnişan bu gəlinin çiyninə bir yağlı qappaz ilişdirir. Gəlinin gözdərinnən ildırım çıxır. Bu ağrıdan özünü bir təhər ələ alanda Zərnişan deyir:

– A qızım, sən söhbətini davam elə, əmə mən gedirəm, əvdə işim var. Lazım gələndə də Zeynaf xalanın çiyninə vurarsan.

## ALA DANA

Kışın laf oğlan vaxdıymış. Xəsdə Zərnişan da sarınıf-sarmanıf çıxır eşiyə. Bir də baxır bulaxdan qonşusu söylənə-söylənə gəlir:

– Ay bu ala dananın canı yansın. Yox, bu pəyiyə-zada girənə heç oxşamır. Doncuxluyur elə, doncuxluyur belə... Gah məliyir, gah qaçır... A başına dönüm, mənim baxdımnandı yaqın, quduruf bu heyvan.

Qonşusunu yaxşı tanıyan Zərnişan burda özünü saxlıya bilmir:

– Həlbət ki, qaçacax. Təzəcəh bu heyvan.

Qonşu arvat bu belə deyəndə təcüflənir:

– Bu nə deməhdi, a qonşu?

Xəsdə Zərnişan gülür:

– Bu ala danıya otdan çox çörəh-lavaş yedirirsən, əmə...

– Əmə nə?

– Əmə bu yedirtdiyin çörəh-lavaş özünün dəyil, qonşunun çörəh tabağınnandı. Görmüşüh çörəyi adamlar yeyəllər, mal-heyvana verməzdər. Yanı özgənin çörəyini öz malına yedirirsən.

Qonşu qadın bunun sözünün qabağında daha heç nə deyə bilmir. Onda işi belə görüf Xəsdə Zərnişan deyir:

– İndi sana bir söz deyəcəm, əmə isdiyirsən küs, isdiyirsən də inci.

Bu belə deyəndə qonşu arvat bir az belə özünü itirən kimi olur.

– Sən də elə qonşumuz Gülxanım kimisən, gərəh sözü üzə deyəsən!

Dedi:

– Qulax as.

İndi görəh burda Xəsdə Zərnişan götürüf nə dedi:

> Doncuxluyur, kefi sazdı,
> Ala dana at kimidi.

Daha girərmi pəyiyə,
O ki yelqanat kimidi.

Sözümü dedim bu başdan,
Yeyif çörəhdən-lavaşdan.
Deyən qalxıfsan obaşdan,
Dana kefdən mat kimidi.

Zərnişan dedi dediyin,
Utan, a tamahı yeyin.
Xəlvətdə dalımcax deyin,
Bu, qonşu arvat kimidi.

## TÜLKÜ-ÇAQQAL ƏHVALATI

Bir gün qonşu arvatdar bir yerə toflanır. Yanı Xəsdə Zərnişanın təzəh qalağının yanına. Dərtdəri açılır, nə açılır. Deyillər:

– Daha pində toyux-cücə, qaz qalmadı. Bu ağzıyanmış tülkü-çakqal bunnarı nə vaxıt gəlif aparır ki, bizim bunnan heç xəbərimiz olmur?

Arvadın biri də əlini əlinə vuruf yana-yana deyir:

– Vallah, bu işə mətəl qalmışam. Heç kəsin toyux-cücəsi qalmıyacax yanı?!

O biri arvat dedi:

– Bə görən bu işin axırı nə olacax?

– Əşi, bu tülkü-çakqala kim neyniyə bilər ki. Bir də bunnar xəlvət gəlif, xəlvət gedir.

Xəsdə Zərnişan baxır ahan hərə bir söz dedi, əmə heç kəs bunun kimin əməli olduğunu demədi. Deyir:

– Nə olar, hərə öz sözünü dedi. Əmə mən də öz sözümü deyəcəm. Qanan qansın, qanmıyan da özü bilər.

İndi görəh Xəsdə Zərnişan burda götürüf nə dedi:

Tülkü-çakqal nə karədi,
Gəlif çata sana, qonşu.
Qonşular sənin əlinnən
Gəlifdi laf cana, qonşu.

Pinə girirsən xəlvəti,
Yolunnan çıxmazsan qəti.
Edirsən böyük qələti,
Pisliyini sana, qonşu.

Toyux-cücə, qaz qalmadı,
Müftə yedihcəh doymadın.
Sən ki bizləri saymadın,
Dişin batıf qana, qonşu.

Pinnəri gəzdin, bezmədin,
Əyriyə dodax büzmədin.
Bu işdən əlin üzmədin,
Göz ağartdın mana, qonşu.

Zərnişan deyir düzünü,
Mürdəşir yusun üzünü.
Sənin bu söhbət-sözünü
Yayacam hər yana, qonşu.

Söz tamama yetir, qonşular gülüşür, o sahat sözün kimə deyildiyini bilillər.

## PƏHLİVAN ARVADI

Bir gün genə qız-gəlinnər Xəsdə Zərnişanın qapısının yanındakı təzəh qalağının yanına yığılır. Baxıllar əv sahabı gözə dəymir. Ona kimi Zeynaf arvat da gəlir. O sahat bunnardan biri deyir:

– Ay Zeynaf xala, bu Zərnişan xala çox maraxlı adamdı, sözdü-söhbətdidi. Bə sən niyə belə dəyilsən?

Deyir:

– A bala, onun atası axund oluf, bilici adam oluf.

Deyir:

– Bə bu hər şeyi hardan bilir?

Deyir:

– Atasınnan ona keçif. O da onu kimi bilicidi.

Deyir:

– Bə niyə qız-gəlinnər həmi də onnan çəkinillər?

Deyir:

– A günün qara gəlməsin, onda yeddi kişinin quvatı var.

Deyir:

– Bə niyə elə quvatdıdı?

Deyir:

– Pəhlivan arvadıdı. Onun ərinin kürəyinin yerə gəldiyini görən olmuyuf. Bə bilmirsənmi, arvatnan kişinin torpağı bir yerdən götürülüf. Bunnan belə onnan danışanda artıx-əhsih şeylər danışma ki, çiyninə elə qappaz vurar ki, onun sızıltısı bir ay kəsməz.

# AŞIQLAR
# VƏ
# EL ŞAİRLƏRİ

# YETİM ƏSKƏR

Haqqında, yəni mənsub olduğu tayfa haqqında məlumat çox azdır. Ağsaqqal Vəlinin qızı Səhnənin həyat yoldaşıdır. Kəndin dəmirçisi, ağac ustası olub. Üstəlik, bu təbli kişi tanınmış el şairi idi. Həyat yoldaşı vəfat etdiyindən azyaşlı uşaqlarını böyütmək üçün Azərbaycana – Daşkəsənə pənah aparmışdır. Yetim Əskər gözəl səsi, şirin söhbəti, bədahətən dediyi şeirlərlə adamları valeh edən bir el şairi idi.

## YETİM ƏSKƏRİN POETİK DÜNYASI

Həmişə Yetim Əskərdən Hüseyn babam həvəslə söz açardı. Sonralar mən onun şeirlərini görəndə çox təəccübləndim. Təhsil, məktəb görməyən adamın belə zəngin mənəviyyatı, düşüncələri təsadüfi deyil, Allah tərəfindən verilən bir bəxşişdir. Bəzən bunun adına istedad da deyirlər.

Əlbəttə, Yetim Əskərin burada yaradıcılığından xeyli verilib. Elə bu poetik örnəklər də onun necə qabiliyyət sahibi olduğunu əks etdirməkdədir. El şairi Sovet hökumətini, onun "yeniliklər"lərini qəbul edə bilmir. Məsələn, Yetim Əskərin "Qalmadı" gəraylısı kolxoz quruluşunun yaxşı quruluş olmadığını belə əks etdirir:

Yığılıb kolxoz qururlar,
Adamlarda hal qalmadı.
Nə vardı dartıb aldılar,
Qapılarda mal qalmadı.

Acımızdan qaldıq belə,
Yavan da keçmədi ələ.
İnsaf yoxdu bircə gilə,
Bizə ayrı yol qalmadı.

Əmək günü nədi bilməm,
Ha işlərəm, heç dincəlməm.
Evə də vaxtında gəlməm,
Görmədiyim al qalmadı.

Buradakı şeirlərdən "Gəlmir" qoşması da diqqətçəkicidir. El şairi bu poetik örnəkdə adlı-sanlı usta olsa da, pis yaşadığını, kasıblıqdan əzab çəkdiyini çılpaqlığı ilə anladır:

Məjqalam, ustayam, dəmirçiyəm mən,
Di gəl ki, əlimə pul-para gəlmir.
Gün-gündən pis olur əhvalım, halım,
Zəhmətim, əməyim heç kara gəlmir.

Hərdən söz deməyi etmişəm peşə,
Zəmanə qəlbimi keçirdi şişə.
Bir loxma çörək yox çəkəsən dişə,
Bir kimsə kasıba havara gəlmir.

Yetim Əskər bu qeyd etdiyim şeirin əvvəlində həm rəncbər, həm usta (ağac ustası), həm dəmirçi olduğunu xatırladır. Burada "məjgal" "məcin dəstəyindən tutan", yəni kotanın, xışın məcindən tutan adam anlamındadır. O, əkinçilərin rəhbəri sayılırdı. Yeri gələndə hodaqları (öküzlərin qabağı ilə gedənləri) döyüb cəzalandırırdı. Müəllif burda nə qədər əzab-əziyyət çəksə də, çətinlik içində olduğunu deyir. Deyir ki, zəmanə onun qəlbini şişə keçirib, onu bir tikə çörəyə möhtac edib.

Yetim Əskərin dərdinin üstə bir dərd də əlavə olunur. Həyat yoldaşı Səhnənin vaxtsız ölümü onu pərişan edir. Azyaşlı uşaqlarını dolandırmaq üçün Azərbaycana – Daşkəsənə üz tutur. Bu qəmli əhvalatı şair "Ərzi-hal" qoşmasında da xatırladır:

Hayıf, bu dünyada dərd qanan azdı,
Demə Yetim Əskər yolunu azdı.
Yazan taleyimi qürbətə yazdı,
Odur ki, qəmlərin bərəsindəyəm.

Əlbəttə, cəmi bir neçə şeir haqqında geniş mülahizə söyləmək olmur, amma bu kamil poetik nümunələr məni necə təsirləndirdisə buna laqeyd qala bilmədim deyə ürəyimdən keçənləri yazıya aldım. Deyirəm, bu da Yetim Əskərin poetik dünyası haqqında təəssürat olsun.

***Anar Hüseynov***

# GƏRAYLILAR

## QALMADI

Yığılıb kolxoz qurullar,
Adamlarda hal qalmadı.
Nə vardı dartıb aldılar,
Qapılarda mal qalmadı.

Acımızdan qaldıq belə,
Yavan da keçmədi ələ.
İnsaf yoxdu bircə gilə,
Bizə ayrı yol qalmadı.

Əmək günü nədi bilməm,
Ha işlərəm, heç dincəlməm.
Evə də vaxtında gəlməm,
Görmədiyim al qalmadı.

## OLMAYA

Könül tutan, qəlbə yatan
Nə arıq, nə kök olmaya.
Nər gedə, dalınca maya,
Yolu yoxuş, dik olmaya.

Kişi yükün özü çəkə,
Zəhmət çəkibən tər tökə.
Əməyinə gözün dikə,
Nə qatır, nə lök olmaya.

Yetim Əskər, düz danış, din,
Baxıram ki, söz danışdın…
Tənhalıqda çox alışdın,
Mərd olanlar tək olmaya!

# QOŞMALAR

## KASIBLIQ

Məni bərkə salıb dirədin daşa,
Zərrə insafın yox, ədə, kasıblıq.
Başıma döydükcə kefin duruldu,
Mən nə edim sən tək bədə, kasıblıq.

Nə cavanlıq gördüm, nə də bir xoş gün,
Mən də bir kişiyəm, bir özün düşün.
Namərd olanlarla yoxdumu işin,
Sən mənə gəlirsən hədə, kasıblıq.

Yurdumdan-yuvamdan elədin məni,
Odlara bürüdün, bələdin məni.
Olmadı simasarım, bələdim mənim,
Sən məni eylədin gədə, kasıblıq.

Düşmədin belimdən, elədin yağır,
Döydün, söydün məni, oldum bir fağır.
Mənim baxtım qara, yüküm çox ağır,
Hər yana salıbsan səda, kasıblıq.

Məni öldürəcən nəyin artacaq,
Onsuz da yanıram, sinəm od-ocaq.
Sinəmin üstünə gəl az vurnan dağ,
Yetim Əskər olub dədə, kasıblıq.

## MAŞALLAH

Gen gündə qohumsan, darda yad oldun,
Pulları üst-üstə qala, maşallah.
Tamahdan itisən, könüldən kasıb,
Barmağın batıbdı bala, maşallah.

Var dərdindən oldun bir sümük-dəri,
Gəzirsən qoynunda nisyə dəftəri,
Səndən Əzrayılın yoxmu xəbəri,
Demə oxşayırsan kala, maşallah.

Pulun xışıltısı çox həzin səsdi,
Xəsisdə pul saymaq ayrı həvəsdi,
Sən də bir adam ol, qul olma, bəsdi,
Vardan qudurubsan qala, maşallah.

Yetim Əskər, istər qəlbin sağ ola,
Bir məclis qurasan, damaq çağ ola,
İstəməzsən eldə üzün ağ ola,
Hamıdan qalıbsan dala, maşallah…

## OLA-OLA

Sən necə qohumsan, durubsan gendə,
Əlində ixtiyar, pul ola-ola.
Görübsən dardayam, ləzzət çəkirsən,
Özün ağıldan qıt, mal ola-ola.

Gözləyirsən ölüm, “qohum” deyəsən?!
Üzdə “rəhmət” deyib, dalda söyəsən.
Bilmirəm, doğmasan, yoxsa ögeysən,
Hələ ağlın yoxdu, çal ola-ola?

Dünya belə qalmaz, var belə qalmaz,
Səxalı könüldən kərəm azalmaz.
Haqdan yanan çıraq heç vaxt sozalmaz,
Nur yayar ətrafa, al ola-ola.

“Yahu” deyən kəslər şəfa tez tapar,
Dediyim sözləri yığ başa, apar.
Mərd yaxşılıq eylər, it olan qapar,
Qabağında isti yal ola-ola.

Boşuna söylətdin Yetim Əskəri,
Durma buralarda, uzaqlaş, yeri.
Tərifin edəcəm dillər əzbəri,
Bu dərd ürəyimdə xal ola-ola.

## AY FƏLƏK

Könül həmdəmimi aldın əlimdən,
Çəkdiyim ah-nalə, ahdı, ay fələk.
Simsarsız adamam, arxasız kişi,
Mənim dərdim-odum çoxdu, ay fələk.

Qalmışam qürbətdə körpə uşaxnan,
Tutmuşam işimi əzəldən haqnan,
Mənim əhvalıma bir yaxşı baxnan,
Beləsi dünyada yoxdu, ay fələk.

Məni qaraladın, yoxdumu işin,
Günahım-suçum nə, bir yaxşı düşün.
Qəm ilə üstümə töküfsən qoşun,
Gözümə soxduğun oxdu, ay fələk.

Kimim var dünyada eləyə çarə,
Ortada qalmışam mən bəxti qara.
Yaramın üstündən gəl vurma yara,
Əskər qəm çox yeyib, toxdu, ay fələk.

## MƏNİ

Gümanım bir sənsən, uca Yaradan,
İnsaf et, sıxmaynan divara məni.
Arxasız adamam, yoxdu heç kimim,
Əzəldən edibsən füqarə məni.

Hara üz tuturam gətirmir əlim,
Peşimlə dolanır bir qara ölüm.
Sənə qurban olum, qadanı alım,
Niyə eləyibsən avara məni?!

Yetir qismətini Yetim Əskərin,
Qırma qol-qanadın, həm balü-pərin.
Acınnan ağunur, yoxmu xəbərin?!
Odlara qalama dübarə məni.

## İNDİ

Patraxın matraxı düşmür əlindən,
Yetimlər acınnan ağunur indi.
Səni od tutasan, belə zəmanə,
Tülkülər aslana toxunur indi.

Tökülür əynimiz, qarnımız acdı,
Harda kafir varsa, ordan haqq qaçdı!
Sovet başımıza yüz hoqqa açdı,
Şuranın kitabı oxunur indi.

Dinmə, Yetim Əskər, kəsərlər dilin,
Yurdum xarabadı, qan ağlar elin,
Ağır iş görməkdən əyilib belin,
“Davariş” kef çəkir, uğunur indi.

## GƏLMİR

Məjgalam, ustayam, dəmirçiyəm mən,
Di gəl ki, əlimə pul-para gəlmir.
Gün-gündən pis olur əhvalım, halım,
Zəhmətim, əməyim heç kara gəlmir.

Hərdən söz deməyi etmişəm peşə,
Zəmanə qəlbimi keçirdi şişə.
Bir loxma çörək yox çəkəsən dişə,
Bir kimsə kasıba havara gəlmir.

Yetim Əskər acdı Sovet gələli,
Yazıqlar, fağırlar başı bəlalı,
Erməni-urusun cahı-calalı,
Müsəlmana dövlət aşkara gəlmir?!

## QOŞMA

Boş tərif nə lazım, partiyamız var,
Deyirəm, dərdimiz başdan aşıbdı.
Üzüldü qalmadı sağlam canımız,
Çoxu mənim kimi haldan düşübdü.

"Xaroşo" urraynan doymaz ki adam,
Gərək qan ağlaya müsəlman müdam?
Özüm, özüm boyda alovam, odam,
Yaramı neştərlə kafir deşibdi.

Gəl, ey Yetim Əskər, ara, bəy-xanı,
Əzəlki kişilər taplmır, hanı?
Dərbədər hərlənib, dolan cahanı,
Təbin betər gəlib, qanın coşubdu.

## ALLAH

Sədrin söyüşləri, şallağı yetər,
Gədəyə-güdəyə qul olduq, Allah.
Döydülər, söydülər gəlib-gedənlər,
Dinmədik, qorxudan mal olduq, Allah.

Qızıl qanımıza bulandıq hər gün,
Böyüklər öküz tək olubdu durğun.
Erməni-urusu vuraydı vurğun,
Dilimiz bağlanıb, lal olduq, Allah.

Hökumət vergisi belimi qırdı,
Yetim Əskər necə çəksin bu dərdi?!
Erməni minaslar qapıda durdu,
Kotana qoşulu kal olduq, Allah.

## A QARDAŞ

Şeytan insaflıdı, cəllad amanlı,
Sədrdən qəddarı yoxdu, a qardaş.
Bir ayrı qəssabdı, qana susayan,
Yeyib yağlanıbdı, toxdu, a qardaş.

Vurağan öküzdü, qızmış buğadı,
Quduran gədədi, sümsük dığadı,
Geyinib-keçinir, sanki ağadı,
Artıb varı-pulu, çoxdu, a qardaş.

Yetim Əskər deyər, sədr yağıdı,
Kəndi talan edir, eli dağıdır.
Sovetin orağı, həm bayrağıdı,
Vallah, adam deyil…, a qardaş.

## DEYİL

Əlbət ki, hürəcək itdən törəyən,
Bunu hamı bilir, yalan ha deyil.
Qoduq yekəlsə də, tərs böyüsə də,
Bir sıpa olacaq, qulan ha deyil.

Dərdə düçar olan dəmi itirər,
Yaxşı hər nəyi var, cəmi itirər,
Necə ki, səmtini gəmi itirər,
Bir yanda ilişib qalan ha deyil.

Nə deyim, müxənnət birdi-beşdimi,
Dana-duna görən kala eşdimi,
Hər buynuzlu, kəlləvuran qoçdumu,
Meydan xəlvət olmaz, dalan ha deyil.

Bəsdi, Yetim Əskər, hər dərdi çəkmə,
Qızışıb ağzından od-alov tökmə.
Çox gəlib-gedənə gözünü dikmə,
Hər yetən telli saz çalan ha deyil.

## AY FƏLƏK

El görkü çoxalıb, yetər, bəsdi, bəs,
Bunları sil-süpür apar, ay fələk.
Pisin kökünü kəs, izini qazı,
Yandır ciyərini, qopar, ay fələk.

Abır itirəni sən də gəl itir,
Naxələf insanı aradan götür.
Fağıra-yoxsula gücün tez çatır,
Gədən köhlən minib çapar, ay fələk.

Yetim Əskər deyər, yaxşıları seç,
Müxənnət olanı pencər kimi biç.
Mərdlərin ömrünü gəl eyləmə puç,
Nə vaxt haqq yerini tapar, ay fələk?

## QADINDADI

Çətin müəmmadı fitnəsi, toru,
Şeytanlıq, min kələk, fel qadındadı.
İstəsə evini uçurar tamam,
Zəlzələ, vəlvələ bil, qadındadı.

Qəddardan-qəddardı, zalımdan-zalım,
Pis arvada yaxın düşərmi ölüm?
Ona nə gərəkdi "can", "qurban olum",
Saz çənə, yellənən əl qadındadı.

Ondan Əzrayıl da uzaq dolanır,
Qəlbi çirkab dolu, ürək bulanır,
Qurtarmaz yaradı – elə sulanır,
Zəhrimardan acı dil qadındadı.

İblisdi, mələkdi, şərdi, xatadı,
Bulunmaz azardı, betər qadadı.
Əskər məxluq deyil, tez tutur badı,
Gözlərə tökülən kül qadındadı.

## ƏRZİ-HAL

Küsmüşəm qohumdan, dostdan-tanışdan,
Mən ki, uçurumun bərisindəyəm!
Bir az yaşamışam, dərdi-qəmim bol,
Doğrusu, ömrümün yarısındayam.

Bir də üzüm gülməz, könlüm şad olmaz,
Deyirəm qara gün belə də qalmaz.
Sərrafsız bazarda ləl yerin almaz,
Diliacıların yörəsindəyəm.

Hayıf, bu dünyada dərd qanan azdı,
Demə Yetim Əskər yolunu azdı.
Yazan taleyimi qürbətə yazdı,
Odur ki, qəmlərin bərəsindəyəm.

## XƏSTƏ ZƏRNİŞAN

Xəstə Zərnişanın maraqlı həyat yolu var. Anası Hürü xanım əslən Qarsın Akyaka ilçəsinin Külverən kəndindəndir. O, Qars vilayətinin gözəllər gözəli kimi tanınmış, bir nəfər əsilzadə ilə ailə qursa da, ailə münaqişəsi nəticəsində əri öldürülmüş, Hürü xanım üç uşaqla (İsa, Ayvaz, Rüstəm) Ağbabanın Təzə İbiş kəndinə pənah gətirib. Bu vaxt Hürü xanımın qızı Tükəz (Tükəzban) ağüzümlü Bəşirlə ailə qurubmuş. Təzə İbişli Həmzə ağa və kəndin ağsaqqalı Ağsaqqal Vəli Hürü xanımı hörmətlə qarşılayıblar. Həmzə ağa xanıma torpaq sahəsi, ev və xeyli ərzaq verib. Bir neçə ildən sonra Hürü xanım Ağsaqqal Vəli ilə ailə qurub.

1910-cu ildə Zərnişan Təzə İbiş kəndində Ağsaqqal Vəlinin ailəsində dünyaya gəlib. Hürü xanım Ağsaqqal Vəlinin ikinci qadını olsa da, xoş xasiyyəti, sinədəftərliyi, eyni zamanda cəsarəti ilə (at minib güllə atmaqda  mahalda tanınırmış) nəinki Təzə İbişdə, eləcə də Ağbabada, Çıldırda, Qarsda, Axılkələkdə hörmət-izzət sahibi olub.

Maraqlıdır ki, Ağsaqqal Vəlinin birinci arvadından üç oğlu (Əsəd, Hümmət, Həsən), bir qızı (Səkinə) olsa da, Hürü xanımın yanında gətirdiyi uşaqları da öz doğma övladlarından ayırmamışdır. Bu ailənin əziz övladı Zərnişan sayılıb. O, beş yaşından atasının dizinin dibini kəsdirib, onun oxuduğu Quran ayələrini əzbərləmiş, məktəb, təhsil görməsə də, Qurana bələd olmuş, hələ gənc yaşlarından sinədən deməyə başlamışdır. Deyilənə görə, Ağsaqqal Vəli mədrəsə

təhsili almış olsa da, həm də sinədəftər, boylu-buxunlu, gülərüz, nəhəng boylu bir adammış. Çay içəndə bir dəfəyə bir kəllə qənd ona ancaq bəs edərmiş. O, sinədən deməklə bərabər, həm də hər şeyi qabaqcadan bilmək qabiliyyətinə malik olduğundan el-oba arasında, bəy-ağalar içində böyük nüfuz sahibi imiş.

Zərnişanın anası Hürü xanım da sinədəftər olduğundan həmişə bayatı deyər, avazla zümzümə edər, qımqımı, nanay, tırınqı oxuyarmış.

Təbii ki, belə bir ailədə böyüyən Zərnişan hələ uşaq vaxtlarından şeirə, sənətə könül verib, ürəkdən bağlanmışdır. Eyni zamanda Ağsaqqal Vəlinin evinə aşıqlar, dərvişlər, nağılçılar, bir sözlə maraqlı qonaqlar gəldiyindən tez-tez yığnaqlar, məclislər qurulduğundan bunun da Zərnişanın el şairi kimi formalaşmasında az təsiri olmamışdır.

Zərnişan 1926-ci ildə Məşədi Qurbanın kiçik oğlu Əhmədlə ailə qurmuş, bu evlilikdən onun bir oğlu (Məcid), iki qızı (Minə, Səkinə) dünyaya gəlib. Amma Zərnişanın ailə xoşbəxtliyi uzun çəkməmiş, 30-cu illərdə həyat yoldaşı varlı ailədən olduğu üçün “xalq düşməni” kimi həbs edilib Gümrüdə Qara qalaya salınmış, orda güllələnmişdir. Gənc qadın üç balaca uşaqla çox ağır və gərgin bir həyat sürüb. O elə bu illərdən Xəstə Zərnişan adı ilə tanınıb.

Xəstə Zərnişan 1988-ci ilin məlum hadisələrindən sonra Qaradağ rayonunun Sahil qəsəbəsinə pənah gətirmiş, orada binə bərkitmiş, 1990-cı ildə Sahil qəsəbəsində vəfat etmişdir.

## HİKMƏT VƏ KƏRAMƏT SAHİBİ

Mən Xəstə Zərnişanı az görsəm də, onun haqqında yaşlılardan maraqlı rəvayətlər, əhvalatlar eşitmişəm. Bu da onun kəramət sahibi olduğundandı. Atası Ağsaqqal Vəli kimi o da hər şeyi öncədən bilir, adamlara düzgün yol göstərəndi. Bu ağbirçəyin hər yanda hörməti vardı. Ağzından dürr tökülən bu nənənin zəngin könül dünyası vardı. Həmişə bədahətən ya bayatı, ya gəraylı, ya qoşma, ya divani, ya müxəmməs, ya da təcnis deyərdi. Məktəb, təhsil görməsə də neçə-neçə el şairini, el sənətkarını görmüşdü. Atasının, eləcə də anası Hürü nənənin sinədəftərliyi ona hələ uşaq yaşlarından təsir etmiş, poeziyaya böyük maraq oyatmışdı.

Xəstə Zərnişanın ədəbi irsi tam yazıya alınmasa da, Tacir Səmiminin toplayıb yazıya aldığı folklor örnəkləri aşıq şeirimizin kamil nümunələri sayıla bilər. Bunların arasında aşıq şeirinin başqa növlərinə də rastlanır. Xəstə Zərnişanın ədəbi irsində Vətən həsrəti, yurd nisgili, Çıldır-Qars həsrəti, ayrılıq və digər motivlər işlənib. Öncə Xəstə Zərnişanın bayatılarına nəzər salaq:

Dərdə niyə verim dən?
Doymadım dərd yeməkdən.
Qabar oldu dil-ağız,
Tükəz, Tükəz deməkdən.

Baxsana ağ üzümə,
Həsrət baxan gözümə.

Gedəmmirəm, həsrətəm,
İbişdən Ağüzümə.

Bu iki bayatı arasında bir əlaqə var: hər ikisində də müəllifin bacı həsrəti (Tükəz həsrəti, bacısının adı Tükəzban olsa, ona "Tükəz" deyirdilər) var. Bu həsrəti ikincidə göstərməklə bərabər, bacıların birinin İbişdə (bu tayda), o birinin Ağüzümdə (o tayda) olduğu da əks olunub.

Digər bayatının birində Xəstə Zərnişan bacı dərdini bir az fərqli biçimdə, bir az da tünd notda, qəmli dillə verir:

Çısır batır gözümə,
Qəm ələnir üzümə.
Bacı deyib ağlaram,
Gücüm çatır üzümə.

Burada işlənən "çısır" sözü dialekt söz olub, "tikanlı məftil" anlamındadır. Yəni el şairi bununla sərhəd kənarında olduğunu bildirməklə həm də bacısı ilə görüşə bilməyəcəyini də anlatmaqdadır. Müəllifin yeni hökumətə – Şura hökumətinə nifrəti aydın verilir.

Şura gəldi, bəd gəldi,
Arxasınnan dərd gəldi.
Mərdi daşa basdılar,
Yerinə namərd gəldi.

Təbii ki, vətən həsrəti, yurd nisgili motivləri Xəstə Zərnişanın şeirlərində də qüvvətlidir:

Ötənləri ana-ana,
Ayrılıqdan yana-yana.

Qəsd edirəm şirin cana,
Xəbərim yox o dağlardan.
Göylərə ucalır ahım,
Dadıma yet, ay Allahım.
O dağlardı varım-yoxum,
Xəbərim yox o dağlardan.

El sənətkarı fələkdən də şikayətlidir, böyük Yaradan da. Deyir:

Gözümün yaşı qurumaz,
Kasıbın bəxti sarımaz.
Didərgin dərdli, yarımaz,
Əksik etdin kimdən məni.

Fələyə belə deyinir:

Kor olsun gözlərin, fələk,
Yurdun dərdi çiynimdədir.
Sinəm başı düyün-yara,
Oddan köynək əynimdədir.

Xəstə Zərnişan didərginliyin gətirdiyi dərdi daha qabarıq, özünəməxsus bir dillə belə ifadə edir:

Xanım-xatın bir qadındım,
Qapı-qapı gəzəndim mən?
Yurdsuzluq yandırdı məni,
Dərdi dərdə düzəndim mən?!

Yana-yana çox dolandım,
Sellər tək axıb bulandım.
Betər odlara qalandım,
Bağrın başın əzəndim mən?

Zərnişanam, külə döndüm,
Başdaydım, ayağa endim.
Çox dözə bilmədim, dindim,
Yurd-yuvadan təzəndim mən?

Xəstə Zərnişan didərginliyin gətirdiyi uyğunsuzluqları qəbul edə bilmədiyindən, digər tərəfdən də aran yerində çəkdiyi əziyyəti belə təsvir edir:

Hardan alım dağı, havanı, suyu,
Qarşımda bir yol yox, durub kor quyu.
Dərd deyir: nə dincəl, nə də ki, uyu,
Sinəmdə yurdunun yarası qalıb.

Ağlaya-ağlaya kor oldu gözlər,
Kimə təsir edir deyilən sözlər?
Zərnişan köç üstə, ölümü gözlər,
Çünki ona bəxtin qarası qalıb.

Xəstə Zərnişanın poeziyasında nəsihət, didaktika da qüvvətlidir. O deyir:

Yemə haram tikə, olar ziyanı,
Adam "haqq" sözündən yatmaz, oyanı.
Soyub-talamaqla o yan, bu yanı
Sanma qotur dana kələ olacaq.

Bəli, bu ağbirçək, kövrək qadın didərginliklə, qaçqın, köçkün adı ilə barışa bilmir:

Zərnişan, adına deyirlər köçkün,
Baxıram, gözlərdə ölürəm hər gün.
Talesiz, yuvasız, yurdsuz, didərgin,
Səninki də belə "dəmnən" tutulub.

El şairinin yaradıcılığında yurd sevgisi, yurddan ayrı düşmək, didərginliyin gətirdiyi ağır dərd ayrı-ayrı şeirlərində müxtəlif çalarlarda əks olunur:

Taleyimiz niyə belə gətirdi?
Elimizə ağır bəla yetirdi.
Yurdumuzu, yuvamızı itirdik,
Ağbabanın gözlərində yaş – ağlar.

Bu bəlaya qoca-cavan nə desin,
Bilən yoxdu dərd-sitəmin vədəsin.
Ay Zərnişan, yerin yoxdu gedəsi,
Yan-yörəndə damlar-daşlar boş, ağlar.

Xəstə Zərnişan bu dərdi – didərginliyin gətirdiyi əzab-əziyyəti "Tükəz bacım" qoşmasında da xatırladır:

Bu dünya gözümü qəmlə doyurdu,
Ehtiyac qılıncın qından sıyırdı.
Fələk doğmaları məndən ayırdı,
Oldu para-para el, Tükəz bacım.

Bəli, bu ağbirçək didərginliyi qəbul edə bilmir, dərdini belə dilə gətirir:

Mənə yurdsuz deyən, didərgin deyən,
Qəddimi gör necə əyif gəlirəm.
Ağbaba dərdindən dəli olmuşam,
Cütəlli başıma döyüf gəlirəm.

Yurdum yadın oldu, sahibsiz obam,
Bumbuza dönübdü isticə yuvam.
Sanki boğuluram, çatışmır havam,
Yuxuda dağlara dəyif gəlirəm.

Tutmuşam yükümü qəmnən beləcə,
Dəli-divanəyəm yurdsuz eləcə.
Dağlar hey yuxuma girir hər gecə,
Bayatı, həm ağı deyif gəlirəm.

Zənnimcə, burada şərhə ehtiyac yoxdur, müəllif yurdsuzluğun gətirdiyi dərd-səri ustalıqla təsvir edib.

Xəstə Zərnişanın divaniləri də xüsusilə maraqlıdır. Humanist, qəlbi təmiz el şairi dünyadakı qəribəliyi özünəməxsus şəkildə belə qeyd edir:

İnsaf, mürvət sözdə qalıb,
Həqiqətdə heç yoxdu;
Namərdlərin nə vecinə,
Qiyamət də heç yoxdu;
Dünya elə yalan dünya,
Mərhəmət də heç yoxdu;
Saf ürəkli adamları
Qəlbiqırıq saz gördüm.

Ay Zərnişan, ah-uf etmə
Müxənnətin yanında;
Haqq nurudu axıb gələn
Damarında, qanında;
Yaradana baş əyənsən –
Halallığın canımda;
Mən nə deyim, boran-qardı,
Yaz içində yaz gördüm.

Müəllif dünyanın hər üzünü görüb deyə sözün dəyərini, qədir-qiymətini yüksək qiymətləndirir, onu ağıl-kamal sahibi ulu Yaradanın etdiyini belə deyir:

Söz lətifdi, qədir bilən
Onu elə bilər xas;
Çərənçidən uzaq dolan,
Söz deyənə qulaq as;
Bəlanı alma başına,
Gəzdirmə əlində tas;
Mərdə ağlı Allah verib,
Sanma pul-maldan gələr.

Müəllifin gözü-könlü tox, sözün ustası olması onun ədəbi irsində aydınca bilinir. O, bunu müxtəlif çalarlarda oxucuya təqdim etsə də, bəzi şeirlərində daha qabarıq və obrazlı verir:

Var-dövlət gözümdə heçdi,
Sözüm safdı, dürr-incidi;

Taleyin qara yelləri
Əsəndə qəlbi incidi;
Kimi dünyada pir kimi,
Kimi dərdin girincidi;
Kimi bəlaya qalxandı,
Kimi uçan oxdu belə.

Bir mahnıyam dərd avazlı,
Haqqın gözəl bəstəsiyəm;
Sevdanın ətrini verən
Bir qızılgül dəstəsiyəm.
Zərnişanam, qəlb sakini,
Bir saf könül xəstəsiyəm,
Bir də gördün bu söz deyən
Bu dünyada yoxdu belə.

Əlbəttə, Xəstə Zərnişan kimi ünlü bir şairin yaradıcılığını adi bir məqalədə əhatə etmək mümkün deyil. Mən sadəcə burada bu ağbirçəyin poeziyasına ötəri nəzər salmış, bir oxucu gözü ilə düşüncələrimi qeyd etmişəm. Digər tərəfdən bu şeirlər məni elə cəlb etdi ki, barəsində yazmamaq olmazdı. Bilmirəm, nə qədər əhatəli oldu. Hər halda Xəstə Zərnişanın poeziyası haqqında bir yazıdır.

***Anar Hüseynov***

# BAYATILAR

Dağlar həmən dağlardı,
Bağlar həmən bağlardı.
Zərnişan da beləcə
Həmən, həmən ağlardı.

Dərdə niyə verdim dən?
Doymadım dərd yeməkdən.
Qabar oldu dil-ağız,
Tükəz, Tükəz deməkdən.

İllər ötdü, yaş keçdi,
Dərd ilə savaş keçdi.
Görəmmədim bacımı,
Vədə doldu, yaş keçdi.

Baxsana ağ üzümə,
Həsrət baxan gözümə.
Gedəmmirəm, həsrətəm
İbişdən Ağüzümə.

Türkə qurbandı canım,
Onsuz olmaz bir anım.
Həsrət məni yandırır,
Gərək oddara yanım.

Çisir batır gözümə,
Qəm ələnir üzümə.

Bacı deyib ağlaram,
Gücüm çatır özümə.

Sinor kəsib aranı,
Bağlamışam yaramı.
Qohum-qardaş o yanda,
Kim sarıyar yaramı?

Niyə dərdi er aldım,
Canıma qada saldım.
Üç balaca uşaqla
Dam altında tək qaldım.

Şura gəldi, bəd gəldi,
Arxasınnan dərd gəldi.
Mərdi daşa basdılar,
Yerinə namərd gəldi.

Külverən gül yeridi,
Şeyda bülbül yeridi.
O qədər həsrət çəkdim,
Üstümə dərd yeridi.

Qarsa düşməz heç yolum,
Gərək bulud tək dolum.
Arada sinor durur,
Bağlıdı əlim-qolum.

Çıldırdan gələn varmı?
Halımı bilən varmı?

Bacı dərdi yandırır,
Məni tək ölən varmı?

Sənə qurban, ay Allah,
Gərək gündə çəkəm ah.
Arada dağlar durur,
Aşmağa taqətim yox.

Ağüzümdən əsən yel,
Bağrım başın kəsən el.
Qarsa yollar bağlıdı,
Heç düzəlmir düzən, yel.

Ağüzümdən aralı,
Olub könlüm yaralı.
Dərdim dağlar boydadır,
Necə tapım qərəli.

Yana-yana ağlaram,
Dərd ilə xoşdu aram.
İtirmişəm özümü,
Ölmüşəm, yoxsa sağam?

Nə vaxt yollar açılar,
İtər dərdlər-acılar.
Qoşulub bir-birinə
Bayram edər bacılar.

Bu həsrət yaxdı məni,
Köhnədi, deyil yeni.

Bu qədər dərd çəkməzdim,
Bacı, görsəydim səni!

Aman, aman əlinnən,
Betər zaman əlinnən.
Hələ ki sağ qalmışam
Ümid-güman əlinnən.

Ağıl kəsir, göz görür,
Dərd içindən dərd çıxır.
Yaxamı tez tanıyıb,
Dərdə nə deyim axı.

Yollarım bağlı qalıb,
Ürəyim dağlı qalıb.
Sinor sındırıb məni,
Qollarım bağlı qalıb.

Bacı, görsəydim səni,
Dəmnən olardım qəni.
Əzəldən betər tutub
Fələyin daşı məni.

Dağ başında qar oldum,
Dərddən ahuzar oldum.
Gəl, ey bacı, görüşək,
Mən səninlə var oldum.

Dağ qaldı,
Ağbabada dağ qaldı.

Kimi öldü, qurtuldu,
Kimi yurdsuz sağ qaldı.

Dağ itdi,
Duman basdı, dağ itdi.
Biz də bir elat idik,
Fələk vurdu dağıtdı.

Ağlamaqdan doymuram,
Dərdi yerə qoymuram.
Qara baxtı tapıb bir
Gözlərini oymuram.

Fələk daşladı, susdum,
Elə xoş günü pusdum.
Ağbabanın dərdinnən
Qan ağlayıb qan qusdum.

Dərd bir olar, beş olar?
Gözüm ağlar, yaş dolar.
Qansızlara sur verdin,
Allah, belə iş olar?!

Pul-parada gözüm yox,
Ocaq sönüb, közüm yox.
Fələk, dərdi çox verdin,
Daha sənə sözüm yox.

Dərdə dəva tapılmır,
Təmiz hava tapılmır.

Zərnişanam, yerim yox,
Bir el-oba tapılmır.

Dövlət-malım qalmayıb,
Cah-calalım qalmayıb.
Fələk, məni az incit,
Daha halım qalmayıb.

Xanım idim bir zaman,
Əlimdən getdi iman.
Nə vaxt xoş gün görəcəm,
Qalıb quruca güman.

Qara baxtın üzündən,
Müxənnətin sözündən...
Fələk də mənə baxdı
Nazarlının gözündən.

Düzə qulaq asmışam,
Ayım-ilim qısmışam.
Mən də axı insanam,
Sinəmə daş basmışam?!

Ötüb keçir, vaxta bax,
Məni vurdu şaxta, bax.
Çoxu toyda-düyündə,
Mənə gələn baxta bax!

Aran odunda yandım,
Səbr eləyib dayandım.

Ah çəkən də özüməm,
Öz səsimə oyandım.

Fələk bizi düzdədi,
Nə vaxt verdi, gözdədi.
Qara günün qarası
Dildə, sözdə, gözdədi.

Dağda dumanım qaldı,
Ahım-amanım qaldı.
Yağı tutdu yurdumu,
Quru gümanım qaldı.

Bülbül kimi ötmədim,
Tüstü kimi tütmədim.
Həsrətini çəksəm də
O dağlara getmədim.

Sinor, külə dönəsən,
Niyə çıxdın önə sən.
Dil bilən bir quş olub,
Dərd üstündə dinəsən.

Ağbabanın dağları,
Şörəyelin bağları.
Bir də qalıb yadımda
Zərnişanın ahları.

Uzaqda dağlar qaldı,
Viranə bağlar qaldı.

Əldən çıxdı Ağbaba,
Yadda o çağlar qaldı.

Dərdi qanan hardadı,
Candan yanan hardadı.
Namərd kefdə, damaqda,
Mərd olanlar dardadı.

Eşidən yox səsimi,
Ah-naləmi, yasımı.
Kim alacaq görəsən
Yağıdan qisasımı.

Yaş ötəndən dərd aldım,
Qara günə mən qaldım.
Xəyal ilə gecələr
Ağbabaya yol saldım.

Gücüm çatır özümə,
Don geydirdim sözümə.
Bu dağların dərdindən
Zülmət endi gözümə.

Ha axtardım halalı,
Mən – bu başı bəlalı.
Bircə xoş gün görmədim,
Bu didərgin olalı.

Yüz irəngdə
Yüz boyda, yüz irəngdə.

Mən nə bədbəxt bəndəyəm,
Dərdim var yüz irəngdə.

Qədərə bax, qədərə,
Qul olmuşam kədərə.
Zərnişana yasaqmış
Həmi dağ, həmi dərə.

Dağlar dağımdı, neynim,
Qəm oylağımdı, neynim.
Qırağında durmuşam,
Sinor yağımdı, neynim.

O yan yaxın olsa da,
Sel-su, axın olsa da.
Əlim çatmaz o yana,
Rəngim-ruhum solsa da.

Quşlar uçar Çıldıra,
Könül qaçar Çıldıra.
Ya mən gedəm Çıldıra,
Ya dərd məni öldürə.

Külverəndən söz qalıb,
Sinəm üstə köz qalıb.
Ağlamaqdan kor oldum,
Daha məndə göz qalıb?

Qaraxan axar gedər,
Sinordan çıxar gedər.

Dərd məni edib dəli,
Hər gələn baxar gedər.

Dərdi verən zor verdi,
Ataşını gur verdi.
Fələk, sənə nə deyim,
Düşmənlərə sur verdin.

Fələk, dərdi aldım mən,
Başa daşı çaldım mən.
Bircə koma tapmadım,
Yolda, izdə qaldım mən.

Kədər cumdu yanıma,
Yeriklədi qanıma.
Simsarım yox,arxam yox,
Dərd daraşdı canıma.

Gəldim yad yurda düşdüm,
Beləcə dərdə düşdüm.
Fələyin tələsinə
Durduğum yerdə düşdüm.

Yurddan çıxdıq, dərd qaldı,
Öldü getdi, mərd qaldı?
El dağıldı hər yana,
Viran olan yurd qaldı.

Paralandı elat-el,
Betər əyyam, betər il.

Kim nə gəldi danışır,
Didərgin adam deyil?!

Dərdim artdı, yüz oldu,
Əyri gəlib düz oldu.
Dünyanın işinə bax,
Şıratımız üz oldu!

Dərdi betər almışam,
Dərdə meyil salmışam.
Xanım idim bir zaman,
İndi çöldə qalmışam.

Həsrət oydu gözümü,
İtirmişəm özümü.
Dərdsiz nə bilsin axı
Kül altında közümü.

Kaloğlan, Aşdıbaba
Gözə görünmür toba.
O yerləri hey anır,
Həsrət çəkir el-oba.

Karvan yolun basıb kol,
Gül-çiçəyi, otu bol.
Yoxdu gələn karvanı,
Qubarlanmaz bircə yol.

Görüş düşüb müşkülə,
Dərd gəlib əhli-dilə.

Bu tayda Çaxmaq, İbiş,
O tayda Çıldır, Gölə.

Sinor yana, kül ola,
Dərə boyu gül ola.
İki İbiş görüşə,
Ürəklər tel-tel ola.

Qoy xoş getsin Allaha,
Kəlam oxunmur daha.
Əcəl alır yaxşını,
Pisə toxunmur daha.

Dağlarda qara gedim,
Üzü bahara gedim.
Didərginəm yerim yox,
Haram var, hara gedim?

Qars dediyim o yandı,
Dərdli qəlbi oyandı.
Gözüm doldu, ah çəkdim,
Dağ da, daş da oyandı.

Bura dərvişmi gələr?
Dünyagörmüşmü gələr?
Eli-günü qırılan,
Mərdi ölmüşmü gələr?!

Dağ başında qar qaldı,
Canda ataş, nar qaldı.

Bülbül öldü, gül soldu,
Gül yerində xar qaldı.

Oturmuşam İbişdə,
Çalışıram hər işdə.
Dərd alıb qəm satıram,
Budur məndə səriştə.

İlan çaldı dilimdən,
Geri döndüm ölümdən.
Var-yoxumu, yurdumu
Yağı aldı əlimdən.

Müxənnət qınar məni,
Dərd  sanki sınar məni.
Fələk yurddan çıxarıb
Eylədi kənar məni.

Dərd karvanı ha gəlir,
Yekəldikcə yekəlir.
Bir yandan da bu həsrət
Qabağımda dikəlir.

Evdə yalqız qalınca
Baş qoyuram balınca.
Xoş gün atlı, mən yəyax,
Necə çatım dalınca.

Ellər yeridi getdi,
Mərdlər qarıdı getdi.

Ömrümə bax, ömrümə,
Şam tək əridi getdi.

Yeri, yeri, yerin yox,
Anarın yox, bərin yox.
Yaşıyırsan, Zərnişan,
Özündən xəbərin yox.

Baxt məni poraladı,
Sinəmi yaraladı.
Ürəyimə kədəri
Daş ilə koraladı.

Məniydim üzüyola,
Durmuşdum üzü yola.
Dolu döymüş ağacın
Alması üzüy olar.

Qoyun mələdi küzdə,
Varımız qaldı düzdə.
Yurddan çıxdıq, yox oldu
Şırat, ayran da, üz də.

Şörəyel yeri isti,
Meyvəsi bizə bəsdi.
Qışı mülayim keçər,
Yayı xəfədi, pisdi.

Didərgini
Xəbisi didər kini.

Nə çoxdur Ağbabanın
Yetimi, didərgini.

Bəxtiyara
Yetimin bəxti yara.
Gələn dərdliyə gələr,
Gələrmi bəxtiyara?!

Ayrıldı
Qohum-qardaş ayrıldı.
Hərə düşdü bir yana,
Bu da bir ayrı ildi.

Biz gələndə qış idi,
Əlim-qolum üşüdü.
Küçələrdə qalmışıq,
Fələk, bu nə iş idi?!

Ağlara
Dəymə mən tək ağlara.
Baxsan gözün qaralar,
Sinəmdəki dağlara.

O əsən yellər hanı?
O qara tellər hanı?
Ağbaba öz yerində,
Şenlənən ellər hanı?

Şörəyel köçü gələr,
Bir deyil, üçü gələr.

Arxada qoyun-quzu,
Qabaqda keçi gələr.

Ayrılıq düşdü, dağlar,
Ellər ülküşdü, dağlar.
Ya dərd yıxar, ya da mən,
Tutmuşam küştü, dağlar.

Dayanarmı göz yaşım,
Hanı bacım-qardaşım?!
Bir ovxarlı qılıncdır,
Ayrılıq kəsər başım.

Dağ qaldı,
Ağbabada dağ qaldı.
Kimi öldü, qutardı,
Kimi yurdsuz sağ qaldı.

Qocanın dişi olmaz,
Dünyayla işi olmaz.
Gədəyə ər deməklə
Pəsanda kişi olmaz.

Sinora bax, sinora,
Deyərdilər: sin ora.
Sərhədin bu üzündən
Sürünüb keçsən ora.

Gözümü kor elədim,
Çox ahu-zar elədim.

Həsrətindən, ay Tükəz,
Saçımı qar elədim.

Məzartəpə,
Hardasan, Məzartəpə?
Torpağını Zərnişan
Öpüb gözünə təpə.

Öldürürəm özümü,
Bacım, görüm üzünü.
Calanıb bir-birinə
Sinəmdə dağ düzümü.

Qarqara oynadı, gəl,
Sel-sular qaynadı, gəl.
Üz çevirək Çıldıra,
Ürəyim oynadı, gəl.

# QIMQIMILAR

1.

Heç bilmirəm nələr oldu, dərd ürəyimi dələr oldu. Damın altında tək, yanımda da üç uşax... Sən taleyin işinə bax! Nə səsin gəldi, nə sədan, ürəyimə düşəydi qadan. Bizi gözü yolda, qulağı səsdə qoydun. Çox həsrət çəhdim, göz yaşı töhdüm. Nə özün gəldin, nə sədan gəldi, nə də ürəyim sənsiz dincəldi. Yana-yana, bu dərdi qana-qana yaşadım. Dərdi daşıdım... Əhməd deyəndə ürəyim qofdu, gözüm dörd oldu: yaqın gəlir dedim. Nə mənə əl verdin, nə bu halımı gördün.

2.

Arada çısır, dirəhlər, asta-asta əsən küləhlər... Durmuşam sinorun yanında, dərd canımda. Səni gəzir gözüm, yanıxlıdı sözüm, Tükəz. Yol yox, iz yox. Nə gedən var, nə gələn.Ağüzüm uzax oluf, görüşməh, halallaşmax da yasax oluf. Dağılsın belə dünya. Deməyə sözüm qalmıyıf... Bu həsrətdən, bu ayrılıxdan kurtula bilmirəm.

3.

Sovetin gəlişinə bax, gədə-güdənin gülüşünə bax, qurban olum, ay Allah... Ağa arvadı, üç balaca uşaxnan qalıf ortalıxda. Var-dövləti qolxoza verilif, çünki Şura hökuməti quruluf... Nədi, nədi belə olmalıdı.Kimlər qalmalıdı, kimlər ölməlidi.Bunu da patraxlar bilər. Ay Allah, bizdəri də yada sal, bizi də gədə-güdənin əlinnən al.Almırsan, canımızı al, kutarsın bu qeylü-qal.

4.

Gəlsə də yazın nəfəsi, sədəsi, əmə mənim təngiyir nəfəsim. Həsrətnən ayrılıx boğur məni, sıxır məni, a Qarsın küləyi, kəsilir kələyim.Əssənə o yannan, xəbərin yoxdumu bu yannan; bu məni kimi dərdə-qəmə yanannan. Nə olar, doğmalardan xəbər gəti, ətər gəti. Gəti...barı onnarı görməsəm də iyini hiss eliyif səsini eşidim. Dünya dağılmaz ki.

Bu tərəfdən o tərəfə
Əssənə, a Qarsın küləyi.
Ayrılığın nəfəsini
Kəssənə, a Qarsın küləyi.

## TIRINQILAR

1.

Sinor qırağında qalmışam naçar,
Könlümün qıfılın görən kim açar?!
Nəqafil həsrətə olmuşam düçar,
Allah, qurban olum, yetiş dadıma.

Sinor qırağında döndüm heykələ,
Qəmlər yendi məni hey gələ-gələ.
O ötən günlərim gələrmi ələ,
Allah, qurban olum, yetiş dadıma.

Sinor qırağında günlərim keçdi,
Qohum-əqrabasız yaşamaq heçdi.
Bu dərdlər qudurub qanımı içdi,
Allah, qurban olum, yetiş dadıma.

2.

Sinor qırağında qalmışam ağlar,
Sızlayan yaramı görən kimi bağlar?!
Hayıma hay vermir bu uca dağlar,
Gələn-gedən yoxdu o Ağüzümdən.

Sinor qırağında gözümdə yaşdı,
Neyniyim, bilmirəm,mən bağrıdaşdı.
Canımı yandıran oddu-ataşdı,
Gələn-gedən yoxdu o Ağüzümdən.

Sinor qırağında çözülməz dərdim,
Sinəmin başınnan üzülməz dərdim.
Tükəz həsrətinnən elə qəm dərdim,
Gələn-gedən yoxdu o Ağüzümdən.

3.

Külverən deyilən qaldı o yanda,
Bilməyən nə bilsin görən hayandı.
Onun həsrətindən çox canım yandı,
Kaş mən də bu köyü görə biləydim!

Külverən deyilən dərvişlər yurdu,
Məni ayrılığın ataşı vurdu.
Vallah, belə dedim kim məndən sordu,
Kaş mən də o köyü görə biləydim!

Külverən deyilən Qarsa yaxındı,
Deyirəm, a könül, yaxşı bax indi...
Hisslər, həyəcanlar axın-axındı,
Kaş mən də bu köyü görə biləydim!

# GƏRAYLILAR

## DAĞLAR

Səni qoyub hara gedim,
Mənim atam-anam, dağlar.
Ellər köçür, mən nə edim,
Az qalıram yanam, dağlar.

Gedən gedir, kənd boşalır,
Dərd sinəmə düz baş alır.
Ürəyimə ataş dolur,
Axı mən də canam, dağlar.

Çoxu itirib başını,
Unudub yar-yoldaşını.
Ayrılıq çatıb qaşımı,
Bağrı dolu qanam, dağlar.

Kimə deyim dərd-sərimi,
Kim eşidər sözlərimi?!
Səndə qalan izlərimi
Mümkün deyil danam, dağlar.

Zərnişanam, başda ağlım,
Dərd əlindən qolum bağlı.
Gözüm ağlar, sinəm dağlı,
Çətin ki dayanam, dağlar.

## ELƏYİB

Sənə "balam" deyən fələk
Məni burda ac eləyib.
Salıb, bir bax, qapılara,
Dərddən başa tac eləyib.

Pulun çoxdu, yaxşı kefin,
Mənim kimi olmaz səfin.
Çalınır zurnaynan dəfin,
Vaxtsız səni hac eləyib.

Kor olsun zamanın gözü,
Boyayıbdı qara üzü.
Namərdlərə əyib düzü,
Şeytanları bic eləyib.

Biz də quluyuq Allahın,
Kimsə bizə gəlməz yaxın.
Dərdlər gəlir axın-axın,
Dəmi alır bac eləyib.

Zərnişan deməz yalanı,
Quruyub kədərdən qanı.
Dərdə dərman olan hanı,
Yoxluq bizi gic eləyib.

## TOX DEYİNCƏ

Mərd adam qorxarmı görən
Ona elə "xox" deyincə.
Var-dövləti bilən-görən
Artar, aza çox deyincə.

Mərdi sevən çoxdu eldə,
Kol-kos axar gələn seldə.
Bahar vaxtı əsən yel də
Əsər asta, "ox" deyincə.

Zərnişanın sözün dinlə,
Nə nalə çək, nə də inlə.
İnsan gərək adla-ünlə
Gözü-könlü tox deyincə.

## O DAĞLARDAN

Burda arana düşmüşəm,
Xəbərim yox o dağlardan.
Betər borana düşmüşəm,
Xəbərim yox o dağlardan.

Qəm betər tutub sinəmdən,
Ömür edirəm belə qəmnən.
Əksik olmaz gözüm nəmnən,
Xəbərim yox o dağlardan.

Qaçqın, didərgin olmuşam,
Gülüydüm, indi solmuşam.
Qara bulud tək dolmuşam,
Xəbərim yox o dağlardan.

Ağbabada dərdim azdı,
Çox sevdiyim bahar-yazdı.
Günlər vardı söhbət-sazlı,
Xəbərim yox o dağlardan.

Ötənləri ana-ana,
Ayrılıqdan yana-yana,
Qəsd edirəm şirin cana,
Xəbərim yox o dağlardan.

Göylərə ucalır ahım,
Dadıma yet, ay Allahım.

O dağlardı varım-yoxum,
Xəbərim yox o dağlardan.

Zərnişanam, qan ağlaram,
Başıma qara bağlaram.
Coşub çaylar tək çağlaram,
Xəbərim yox o dağlardan.

## AYRILIĞIN SİNORU YOX

Ayrılığın sinoru yox,
Məni qoyub dərd əlində.
Sən fələyin işinə bax,
Dərddən ürəyim dəlindi.

Ah çəkdikcə artır dərdim,
Dərdə özüm nişan verdim.
Qəm evinə niyə vardım?
Könül, buna döz gəl indi.

A Zərnişan, sözün dedin,
Elə hər vaxt kədər yedin.
Yoxmu sən tək dərdli qadın?
Çoxu da duldu, gəlindi!

# O DAĞLARIN ARASI

Sanki cənnət kimidi
O dağların arası.
Elin ağır qəmidi
O dağların arası.

Gözəldi, güldü hər yan,
Süsən-sünbüldü hər yan,
Güldü-bülbüldü hər yan,
O dağların arası...

Zərnişan orda ağlar,
Həmişə qara bağlar.
Orda çisir-sinor var,
O dağların arası...

## GÜNAHIM NƏ

Nə insaf var, nə mürvət var,
Fələk, sən də Şurasanmı?
Günahımız nədi görən,
Bizi dərddən qırasanmı.

Varı-dövləti kürüdün,
Üstümə betər yeridin.
Məni yerlərnən sürüdün,
Günahım nə sorasanmı.

Aldın əlimdən ərimi,
İgidimi, sərvərimi.
Cəhənnəm etdin yerimi,
Bircə yerdə durasanmı.

Qılıncın başım üstündə
Şirin canımın qəsdində.
Hazırdı, hər vaxt dəstində,
Həqiqəti arasanmı.

Zərnişanın yatıb baxtı,
Çevrilibdi sədri taxtı.
Gözdən yaşım sel tək axdı,
Sınıq könül qurasanmı.

## KİMƏ DEYİM?

Adım qəmin varağında,
Azarımı kimə deyim?
Dərdin-sərin durağında
Azarımı kimə deyim?

Tərs gəlibdi tale belə,
Ömür hədər getdi yelə.
Qar ələndi qara telə,
Azarımı kimə deyim?

A Zərnişan, zərin hanı?
Əhməd kimi ərin hanı?
Qırılıbdı pərin hanı,
Azarımı kimə deyim?

## BU DAĞLARDAN O DAĞLARA

Sözüm çoxdu, söhbətim çox,
Bu dağlardan o dağlara.
Gecə-gündüz çəkirəm ah,
Bu dağlardan o dağlara.

Ağbaba Çıldırnan qoşa,
Söz deyirəm coşa-coşa.
Gedir xəyal qoşa-qoşa,
Bu dağlardan o dağlara.

Zərnişan, yaxın yerlərdi,
Bu yerlərin birdi dərdi.
Gəlsin elin əri, mərdi,
Bu dağlardan o dağlara.

## MƏNİ

Allah, sənə qurban olum,
Kim ötürsün qəmdən məni?!
Bağlanıbdı izim-yolum,
Niyə etdin dəmnən məni?

Gözümün yaşı qurumaz,
Kasıbın bəxti sarımaz.
Didərgin dərdli, yarımaz,
Əksik etdin kimdən məni?

Zərnişanam, qara baxtlı,
Mən piyada, fələk atlı.
Bir gün mənim daşım atlı,
Kim qurtarar kəmnən məni?

## MƏNİ

O dağlardan uzaq düşdüm,
Qürbət, həsrət sıxdı məni.
Dərdlər doluşdu canıma,
Yurd niskili yıxdı məni.

Əldən düşdüm enə-enə,
Qəm ürəkdə saldı binə.
Fələk fürsət tapdı yenə,
Nizəsinə taxdı məni.

Zərnişanam, sözüm qəmli,
Ağlar qaldım,gözüm nəmli.
Günüm qara, həm sitəmli,
Qara bəxtim yaxdı məni.

## A ÇILDIRDAN ƏSƏN KÜLƏK

O tərəfdən nə xəbər var,
A Çıldırdan əsən külək.
Bağrımın başı yaradı,
A Çıldırdan əsən külək.

Ağüzümdən soraq ki yox,
Ah çəkirəm axşam-sabah.
İmdadıma yetsin Allah,
A Çıldırdan əsən külək.

Aylar illərə qarışıb,
Ürəyə dərdlər daraşıb.
Xəyal uçub, dağlar aşıb,
A Çıldırdan əsən külək.

Ağlamaqdan halım yoxdu,
Bu fələkdən zalım yoxdu.
Geydim qara, alım yoxdu,
A Çıldırdan əsən külək.

Zərnişanam, ağlar qalan,
Sinəsində dağlar qalan.
Yaşamağım olub yalan,
A Çıldırdan əsən külək.

## KOR OLSUN GÖZLƏRİN...

Kor olsun gözlərin, fələk,
Yurdun dərdi çiynimdədir.
Sinəm başı düyün-yara,
Oddan köynək əynimdədir.

Ötənlərim getdi, gəlməz,
Göz yaşımı kimsə silməz.
O dağ-dərə, heç kəs bilməz,
Xatirimdə, eynimdədir.

Eldən aralı qalmışam,
Bağrı yaralı qalmışam.
Zərnişan, qəmə dalmışam,
İki əlim qoynumdadır.

## AĞBABANIN GÖZƏL QIZI

Ağbabanın gözəl qızı,
Şuxluğun necoldu sənin?
Deyər-gülər, sevinərdin,
Axırın puç oldu sənin.

Didərgin yükü götürdün,
Yolun səmtini itirdin.
Sevinci yada ötürdün,
Əməyin heç oldu sənin.

Niyə doldu ala gözün,
Zərnişan tək solğun üzün.
Ah-nalədi söhbət-sözün,
Taleyin gəc oldu sənin.

## VAR

Yeri, yeri, sınıq könül,
O tərəfdən xəbərmi var?
Dərd betər alıb üstümü,
Ürəyimdə təpərmi var?

Ayrılıq kəsib əhdimi,
Qəlbimə qəmi əhdimi?
Sinəmə odun töhdümü,
Qalamı var, sipərmi var?!

Zərnişanı güldür bir az,
Öz-özünü bildir bir az.
Get Çıldıra, belə olmaz,
Könüllərə çəpərmi var?

## BELƏ OLUR

Qaş-qabağın tökülübdü,
Düşəndə nəf belə olur?
Mayıs yağının yerinə
Alanda kəf belə olur.

Araq aparıb ağlını,
Yaxşı yarıtdın oğlunu.
Kəsibsən qara toğlunu,
Olanda səf belə olur.

Gedib gətirdin çirkini,
Zərnişan edər ərkini.
Qaynata, bürün kürkünü,
Olanda "kef" belə olur.

## HƏLƏ BİZİM GƏLİNƏ BAX

Bir dəridi, bir də sümük,
Hələ bizim gəlinə bax.
Pal-paltarı əzik-üzük,
Hələ bizim gəlinə bax.

“Gözəlliyi” göz çıxardır,
Ağzından pis söz çıxardır,
İpəyi yox, bez çıxardır,
Hələ bizim gəlinə bax.

Nə başında dingəsi var,
Nə yanında yengəsi var.
Nə qurbanlıq cöngəsi var,
Hələ bizim gəlinə bax.

Burnu uzun, bülöv başdı,
Üz nazikdi, qələmqaşdı.
Gözü əyri, qara saşdı,
Hələ bizim gəlinə bax.

Adı uzun, qalmaz yadda,
Zərnişan, gəl bunnan adda.
Həyasızdı, yanar odda,
Hələ bizim gəlinə bax.

## O DAĞLARDA

Yenə vətən yada düşüb,
Kövrək könül oda düşüb,
Can evimə səda düşüb,
Mənim yolum o dağlarda.

Fələk, niyə qəhərlənim,
Mən qəmnənmi bəhərlənim?
Aha dönüm, sehirlənim,
Bulud olum o dağlarda.

Yazım necə qışa dönüb,
Ruhum uçur, quşa dönüb.
Ahım gözdə yaşa dönüb,
Deyir: dolum o dağlarda.

## QALDI

Gəldim fələyin daşına,
Daha nə bəlası qaldı.
Heç baxmadı göz yaşıma,
Dağımın lalası qaldı.

Cavan qızım köç elədi,
Ömür-günün heç elədi.
Fələk onu puç elədi,
İkicə balası qaldı.

Zərnişan da sanki öldü,
Şaxta vuran gülə döndü.
Bulud tək gözləri doldu,
Fəryadı-naləsi qaldı.

## AYRILIQ GƏRAYLISI

Dağıldı Ağbaba, aman,
Qəlbim necə yaralandı.
Dərd üstündən dərddi gələn,
Sinəm üstə sıralandı.

Günahımız nəydi, Allah,
Daşın bizə dəydi, Allah.
Qəmlər bizi əydi, Allah,
Ürəyimiz paralandı.

Dağlara göz dikə-dikə,
Paralandıq tikə-tikə.
Kim sınan könlümü tikə?
Ellər yurddan aralandı.

Xəstə Zərnişanam, gəldim,
Qüssə məni əydi, bildim.
Didərginlik nəydi – bildim,
Adım yurddan qaralandı.

## BAĞIŞLAMAZ

O yerlərdə öləmmədim,
Dağlar məni bağışlamaz.
Ağbabadan aralandım,
Duman-çəni bağışlamaz.

Dərdi tökdüm varaqlara,
Həsrət qaldım bulaqlara.
Könül, indi varaq hara,
Bulaq məni bağışlamaz.

Məzartəpədə qalmadım,
Əbədi məskən salmadım.
Zərnişanam, bəlli adım,
Dağlar məni bağışlamaz.

## GÖZÜM QALDI O DAĞLARDA

Ağlaya-ağlaya gəldim,
Sözüm qaldı o dağlarda.
Qəlbimin parası, bir də
İzim qaldı o dağlarda.

Ləl ikən qara pul oldum,
Şaxta vuran bir gül oldum.
Ocaqdım, yanıb kül oldum,
Közüm qaldı o dağlarda.

El-obanı itirdim,
Deyib-gülməyi bitirdim.
Quruca canı gətirdim,
"Özüm" qaldı o dağlarda.

Zərnişan ağladı, doydu,
Həsrət ürəyimi oydu.
Fələk yaman günə qoydu,
Gözüm qaldı o dağlarda.

## ODLANA-ODLANA

Könül gedər Ağbabaya,
Gedər odlana-odlana.
O kimsəsiz obalara,
Yetər odlana-odlana.

Dağı-daşı gəzər, gələr,
Dərddən-qəmdən bezər gələr.
Vətən dərdi üzər, gələr,
Ötər odlana-odlana.

Zərnişanı dilləndirər,
Göz yaşımı gilləndirər.
Yaralarım əlləndirər,
Kədər odlana-odlana.

## QALOŞUN TƏRİFİ

Burnu dik deyil, yastıdır,
İçi epeycə istidir.
Elə bil aşıq məstidir,
Belə çarıq olmaz, ağam.

Altının til-til naxışı,
Geyinir həm qadın, kişi.
Cümlə çarıqların başı,
Belə çarıq olmaz, ağam.

Nə su keçir, nə islanır,
Üstü qara, par-par yanır.
Zərnişan da bir şey qanır,
Belə çarıq olmaz, ağam.

## GÖRÜNMƏZ

Uzaqlara hey baxıram,
Dağlar görünməz, görünməz.
Ağbabada buz bulaqlar
Çağlar, görünməz, görünməz.

Ağbabanın adı qaldı,
Ağızlarda dadı qaldı.
Ayrılığı daşnak saldı,
Ahlar görünməz, görünməz.

Bizim eldir yurdu itən,
Ürəklərə köçdü vətən.
Ömrümüzdən qəfil ötən
Çağlar görünməz, görünməz.

Bomboş qalmış bucaqlarda
Köz axtarır ocaqlarda.
Zərnişandı o dağlarda
Ağlar, görünməz, görünməz.

## DÖZÜM VER, ALLAH

Qalıbdı dağlarda gözüm,
Əslim, köküm, adım izim.
Bu həsrətə necə dözüm,
Bir sən ver dözümü, Allah.

Dağlarda hicran dəmidir,
Ellərimin matəmidir.
Ayrılıq can sitəmidir,
Yaş tutub gözümü, Allah.

Ulu Tanrı, nədi suçum?
Yurdsuzluq olub əlacım.
Dərd əlindən hara qaçım?
Bir eşit sözümü, Allah.

Ocaqlarım söndü, haray,
Zərnişan da dindi, haray.
Yox pənahım səndən savay,
Küləklə közümü, Allah.

## MƏN

Xanım-xatın bir qadındım,
Qapı-qapı gəzərdim mən?
Yurdsuzluq yandırdı məni,
Dərdi dərdə düzərdim mən?!

Yana-yana çox dolandım,
Sellər tək axıb bulandım.
Betər odlara qalandım,
Bağrın başın əzəndim mən?

Zərnişanam, külə döndüm,
Başdaydım, ayağa endim.
Çox dözə bilmədim, dindim,
Yurd-yuvadan təzəndim mən?

# QOŞMALAR

## YOXDU

Əbəsdi bu "urra", partiya, filan,
Kasıbın dərdini qanan ki, yoxdu.
Nəyinə lazımdı qolxozun işi,
Onu adamlıqda anan ki, yoxdu.

"Böyüklər" yeyirlər elin malını,
Kasıbın soruşmaz kimsə halını.
Kim çəkər dünyanın qeylü-qalını,
Özünü günahgar sanan ki, yoxdu.

Sədirlər, "yoldaşlar" pullu, kef çəkər,
Yetim-yesir işdə, elə tər tökür...
Zərnişan, mən dedim, sən eylə fikir,
Sənin ağ otağın, xanan ki, yoxdu.

## ELƏ

Bu fələk əzəldən pisə sur verib,
Yaxşını yandırıb qınında elə.
Müxənnət fürsəti verməyib əldən,
Pisliyi hərləyib qanında elə.

Çətin imtahanlar çox olub mərdə,
Haqdan əl üzməyib düşəndə dərdə.
Ölsə də mərd ölər, uymaz namərdə,
Namus, qeyrət çoxdu canında elə.

Zərnişan, az danış, həqiqəti gör,
Haqqın sədasına baş əy, cavab ver.
Yaradan böyükdü, kölgəsində dur,
Əlbət ki, bir qulsan yanında elə.

## MURADINA ÇAT

Dünya işlərinə qarışmaq olmaz,
Sən çalış düz yol tap, öz işinə get.
Özgənin oduna alışmaq olmaz,
Mərdsən, al canını öz dişinə, get;
Başın işlə qat.

Fitnə-fəsad çoxdu, önlə bunu da,
Mərd olan çətin ki, bunu unuda.
İblisin bəllidir qara donu da,
Demirəm dolaşıb hey peşinlə get;
Onun daşın at.

Boş yerə hərlənmə, əməkdən yapış,
Adamı qaldırar göyə yaxşı iş.
Ağılla dolansan bəysən, başa düş,
Zərnişan demir ki, yox ol, gözdən it;
Muradına çat.

## BETƏR YARAM VAR

Təzə ad qazandım: “didərgin”, “yeraz”,
Sağ olsun adamlar, nə ad tapdılar!
Bizi kimisinə xoş ad yaraşmaz,
Mərdə bu yamağı əcəb yapdılar,
Bəxt olmadı yar.

Düşdük qapılara, dərdi qanan yox,
Ürəkdən dərdinə baxıb yanan yox.
“Dərdin nədi, bacı?”- sorub deyən yox,
Yağılar xoş günü betər qapdılar;
Gülüm oldu xar.

Zərnişan, nə desən sağalmaz yaram,
Sitəmlər qoyarmı pozula qaram.
Söylə, sağmı qalar qəm üstə varan,
Qəmlər ürəyimi betər çapdılar;
Betər yaram var.

## VAXTINDA

Oğurluq, doğurluq bir deyil, kişi,
Halalla haramı ayır vaxtında.
Pis işə qulb etmə özünü, çəkin,
Adam yaxşı işdən doyur vaxtında.

Elə uzun olmaz əyrinin yolu,
Qəddi tez əyilər, qırılar qolu.
Müxənnətlə dolar sağı, həm solu,
Dərdlər böyür-başın oyur vaxtında.

Demirəm iş görmə, amma halal ol,
Zərnişan, tək yaşa, belə yaşa dol.
Gədəlikdən qaçıb sən əhli-hal ol,
Gözünü birtəhər doyur vaxtında.

## ZAMANAYA BAX

Mərdi qova-qova namərd etdilər,
Gədəni bəy edən zamanaya bax!
Müxənnətlər artdı, ərlər itdilər,
Bu Sovetlə bitən zamanaya bax!

Patrax at üstündə, əlində matrax,
Sinəsinə döyür: "Burda mənəm, bax!"
Döşə medal taxıb gəzir hər axmax,
Gəlib bizə yetən zamanaya bax!

Daha yoxa çıxıb "bəy", "ağa" sözü,
Kişi olanların kor olub gözü.
Axtaran taparmı halalı, düzü,
Bir tüstü tək tütən zamanaya bax!

Daha başa keçib urus, erməni,
Bu Sovet olubdu gavur dərməni.
Zərnişan, deyirəm, asarlar səni,
Namərdliyi güdən zamanaya bax!

## SİLƏNƏ KİMİ

Hər yetən adama güvənmək olmaz,
Əlbət vaxt-vədəsi gələnə kimi.
Üzdə mələk olan dalda kələkdi,
İş işdən keçəcək bilənə kimi.

Şirin söz, xoş sifət  çaşdırar səni,
Görməzsən arxanda dumanı, çəni.
Bir anlıq sevincdən olarsan qəni,
Yanarsan ataşa öləne kimi.

Yadlara meyl etmə, sayıq ol, çəkin...
Demə hər ürəkdə olmaz nifrət, kin.
Qəhərdən, kədərdən tutarsan yükün,
Zərnişan göz yaşın silənə kimi.

## BAXIR

Gözlərim kor oldu qan ağlamaqdan,
Neynim, bu ürəyim sözəmi baxır.
Dərd-ələm sinəmdə tonqal qaladı,
Ocağa, ataşa, gözəmi baxır.

Yadımdan çıxarmı Çıldırın adı,
Çıldır gölü mənə güzgü, aynadı.
Fələk elə vurdu, beynim oynadı,
Cavanlığa, başa-gözəmi baxır.

Zərnişan, haraya çağırım kimi,
Dərmansız xəstəyəm, yoxdu həkimim.
Ömür ötüb keçdi axan su kimi,
Dərəyə, təpəyə, düzəmi baxır.

## ŞURA

Əyriyə, oğruya, tülüyə baxır,
Niyə yağı olub halala Şura?
Varlının gözünü çəkib çıxardır,
Çatıbdı dövlətə, həm mala Şura.

Gədə "böyük" olub Şura gələndən,
Sığmır dərisinə çox yekələndən.
Yoxdu danışığı, gedir köndələn,
Bir şapka da verdi hambala Şura.

Muzdur da, nökər də, gədə də bəydi,
Bu Sovet düz yolu dolandı, əydi.
Erməniynən dostdu, bizlərə dəydi,
Batdı çox günaha, babala Şura.

Düzü görə bilməz kor olar gözü,
Guya çox əzizmiş "davariş" sözü.
Erməni qabağa çəkibdi közü,
Gətirib gavırı kamala Şura?

Zərnişan, səsin qıs, tutarlar səni,
Qolların arxadan çatarlar sənin.
Zindandan zindana atarlar səni,
Əzrayıl tək istər can ala Şura.

## DAĞLARA

Səsi-səmiri yox, hay vermir mənə,
Nə qədər desəm də sözü dağlara.
Deyirəm barı bir girsin yuxuma,
Hər zaman yatıram üzü dağlara.

Kaş ayağım dəyə bir də oraya,
Məlhəm tapılaydı qəlbdə yaraya.
İndilər xəyallar işə yarayar,
Çəkər baxışları, gözü dağlara.

Soyuq bulaqlara edəydim güzar,
Çıxaydı canımdan bu azar-bezar,
Öləydim o yerdə tapıb bir məzar,
Dönəydi Zərnişan özü dağlara.

## ÇIXARDIB

Tərsinə dolanır fələyin çarxı,
Gədəni gətirib başa çıxardıb.
Axmağı qaldırıb göyün üzünə,
Qurunun işini yaşa çıxardıb.

Namərdin başına yağır dövlət-var,
Hamı bir-biriylə olub barabar.
Zamana pis gəlib, yoxdu etibar,
Kişinin baxtını daşa çıxardıb.

Zərnişan, tökülüb elinin gözü,
Yaxşı kişilərin qalmayıb izi.
Fələyin bizlərdən dönübdü üzü,
Ermənini bizə paşa çıxardıb.

## ÖKÜZÜM YORULUB...

Öküzüm yorulub, dizimdə gir yox,
Elə hasand deyil bu əkin işi.
Gərək tər tökəsən hər axşam-səhər,
Buna dayanarmı hər yetən kişi?

Kənardan baxmaqla bilinmir bu iş,
İnsanda olmalı həvəslə vərdiş.
Fələk işindədi, eləyir gərdiş,
Kimiyə köçməli vədə yetişi.

Zərnişan, əlbət ki, bu sözü dedim,
Qocalıq üz verib, daha nə edim?!
Müxənnət əlindən yüz tənə yedim,
Bir də xatırladım gəlib-keçmişi.

## SÖZ GƏLƏN KİMİ

Hərdən yada düşür o ötən illər,
Qışdan sonra güllü yaz gələn kimi.
Gözdən yaş ələnər, ürəyim inlər,
Dərdi çox, nəşəsi az gələn kimi.

Xəyal qanadında uçub dağlara,
Dərman axtarıram mən tək ağlara.
Bilirəm, mümkün yox düzələ ara,
Məclisə balaban, saz gələn kimi.

Zərnişan, nədəndi, qaram çox gəlib,
Əzəldən dərdlərim, yaram çox gəlib.
Nə olsun ki könlün, gözün tox gəlib,
Ürəkdən dilimə söz gələn kimi.

## DƏRDİM ÇOXDU...

Dərdim çoxdu, necə çəkməyim dərdi,
Çıldır, Qars, Ağbaba çıxarmı yaddan?!
Nə qədər qırıldı yurdumun mərdi,
Nə qədər ər keçdi alovdan, oddan.

Elə yol gedirəm, çiynimdə dərdim,
Dərdə qayım olub könlümü verdim.
Ağlayıb-sızlayıb elə ah dərdim,
Dedim ürəyimə: alovlan, oddan!

Beləcə yaş gəldi yaşımın üstə,
Əcəl də yetişdi başımın üstə.
Zərnişan neyləsin, oldu can xəstə,
Yoxdu umacağı qohumdan, yaddan.

## QALIB

Mənim bu dərdimə loğman neyləsin,
Canımın yanmamış harası qalıb?
Ürək, göz, əl, ayaq çıxıb sıradan,
Yarı canım gedib, parası qalıb.

Hardan alım dağı, havanı, suyu,
Qarşımda bir yol yox, durub kor quyu.
Dərd deyir: nə dincəl, nə də ki uyu,
Sinəndə yurdunun yarası qalıb.

Ağlaya-ağlaya kor oldu gözlər,
Kimə təsir edir deyilən sözlər?
Zərnişan köç üstə, ölümü gözlər,
Çünki ona bəxtin qarası qalıb.

# İSTƏRƏM

Bu nə gözəllikdi, bu nə boy-buxun,
Sənin gözlərində itmək istərəm.
Ay başı dingəli, beli kəmərli,
Səninlə hər yana getmək istərəm.

Qəzada gözəl yox sənin tək, gəlin,
Yanaqların aldı, xınalı əlin.
Dodaqların şəkər, əcəb yeməli,
Bağçanda bülbül tək ötmək istərəm.

Mən də gözəl idim düz sənin kimi,
Vaxtsız qarı etdi baxtların kəmi.
İndi Zərnişanın gəlibdi dəmi,
O ötən günlərə yetmək istərəm.

## QALDI

Ey fələk, qəlbimi yaxdın odlara,
Yanmamış qəlbimin harası qaldı.
Qara günlərimin, qara baxtımın
Sinəmin başında qarası qaldı.

Nə qədər istədim güləm, sevinəm,
Qəza gəldi qəfil, yıxıldı binəm.
Gərəkdi həmişə qəm üstə dinəm,
Könlümdə Çıldırın yarası qaldı.

Zərnişan, arzuna çatmadın heç vaxt,
Yerdən-yerə vurdu səndəki bu baxt.
Gədəyə-güdəyə nəsib qızıl taxt,
Nıkqızın da pulu-parası qaldı.

## AY KÖNÜL

Hər yetən mərd olmaz, hər gəda ağa,
Taledən, həyatdan küsmə, ay könül.
İşini görürsən bir Allah ilə,
Ondan da ümidin kəsmə, ay könül.

Elə ibadətin, mərd kimi yaşa,
Fələyin əliylə nə gəlsə başa.
Bu gözəl dünyaya edib tamaşa,
Gah belə, gah elə əsmə, ay könül.

Zərnişan, təb verib o verən sənə,
Meylini söhbətə-saza versənə.
Bir günəvar yerə kürkün sərsənə,
Düz sözə ağzını büzmə, ay könül.

# AY ALLAH

Xoş günə tamarzı qalmışam niyə?
Bu ağır günləri bitir, ay Allah.
Bu mundar xislətli pis adamları
Eldən seçkin edib itir, ay Allah.

Ehtiyac gətirib bizi bu yerə,
Aclıq neçəsini keçirib girə.
Xəstəlik, qızdırma, bit ilə birə,
Ömür də qürbətdə bitir, ay Allah.

Kiminin pulu çox, varı çoxalıb,
Kiminin mənim tək qəlbi yuxalıb.
Zərnişan da bu fələkdən "ah" alıb,
Üz tutub haraya gedir, ay Allah.

# BARDI DEYƏNLƏR

*(cığalı qoşma)*

Əyrilik, tülkülük artdıqca artdı,
Bunu fürsət bildi kardı deyənlər;
Haram yeyənlər,
Özün öyənlər,
Mərdi döyənlər
Artdı, nə artdı –
Aranı qatdı,
Məqsədə çatdı.

Əyri yoğunnadı, mərd də yuxaldı,
Pullandı harama vardı deyənlər.

Gör necə dəyişdi bu dünya işi,
Zamana eşşəyə verdi kişmişi.
Qara günə düşdü eldə mərd kişi,
Qalmadı kişi,
Taleyin işi...
Beləymiş belə;
Gətirdi çilə
Obaya, elə.
Necoldu dövlətə nardı deyənlər?!

Söyləndi patraxlar qolxozu qurar,
Zərnişan, fikir ver, gələndən Şura

Şər yeridi başa haqq dura-dura,

Başa vura-vura,
Qəlbi qıra-qıra
Əydilər mərdi;
Bu fələk verdi
Bir belə dərdi.
Barmağın yaladı bardı deyənlər.

## VAXT VAR İDİ

Vaxt var idi gözəl günlər var idi,
Kədər-ələm gələrdimi yaxına.
Müxənnətlər el içində xar idi,
Halal zəhmət xoş gəlirdi çoxuna.

El-obada bəy olanlar bəy idi,
Gədə-güdə axmaq idi, səy idi.
Payız olcaq el-obada toy idi,
Arvad-uşaq qoşulardı axına.

Yallı, nanay bir-birinə eş idi,
Mərd olanlar məclislərdə baş idi.
Dəli könül göydə uçan quş idi,
Tuş olmazdı namərlərin oxuna.

Ruzi boldu, zalım, nıkqız azdı, az,
Bulunmazdı dələduzla yaramaz.
Qışdan sonra yetişəndə güllü yaz,
Meh istərdi qönçə gülə toxuna.

Ay Zərnişan, ötən günlər oldu xoş,
Fələk ilə ha dava sal, ha dalaş.
Keçən keçdi, daha əlin qaldı boş,
Dərd-ələmlər tez yapışdı yaxana.

## DÜŞMƏZDİ

Bir vaxt xanım idim, varım var idi,
Kasıblıq nə idi yada düşməzdi.
Al-yaşıl geyinib ləziz yeyərdim,
Canıma bir belə qada düşməzdi.

Yedi canımızı birə ilə bit,
Deyə bilmirsən ki, məndən uzaq get.
Biz hardan biləydik gələcək Sovet,
Heç yada bir belə xata düşməzdi.

Əziz tutulardım evdə, ocaqda,
İndi bir fağıram küncdə-bucaqda.
Günüm qara gəlib, xoş gün qaçaqdı,
Zərnişan bu yanar oda düşməzdi.

## BİLMƏDİK

Çörək atlı olub, biz isə yəyax,
Nə qədər yüyürdük, çata bilmədik.
Aclığın qılıncı endi başlara,
Qisməti aradıq, tuta bilmədik.

Dağıldı köylərdən gör neçə kişi,
Bizə betər oldu qolxozun işi,
Nə yavanı gördük, nə də bişmişi,
Zamana pis gəldi, bata bilmədik.

Ərzaq göyə qalxdı, çoxaldı zalım,
Nə deyim, Zərnişan, dəyişdi halım.
Namərd “çor” söylədi, mən “qadan alım”,
Evdə də biz rahat yata bilmədik.

## DEYİN

Bu yandan o yana, ay uçan quşlar,
Nə olar bacıma dərdimi deyin.
Bu həsrət, ayrılıq öldürdü məni,
Kəndimi, yerimi, yurdumu deyin.

Ölüb-dirilirəm burda yüz dəfə,
Fələyin əlindən baxıram “kefə”.
Bağrınız yanmırmı, çəkirəm cəfa,
Bu nalə, bu fəğan erdimi deyin.

Zərnişanın yeri sinorun yanı,
Yanında yoldaşı, sirdaşı hanı?
Bacımın da görən yanırmı canı,
O da o tərəfdə durursmu deyin.

## GƏLMİŞƏM

Neynim, mənim bacım qalıb o yanda,
Sinor, burda ağlamağa gəlmişəm.
Həsrət, ataş, ayrılıq var canımda,
Sinəm başın bağlamağa gəlmişəm.

Dərd əlindən Dəli Dərviş olan mən,
Güllər kimi vaxt-vədəsiz solan mən.
Üzüm cırıb, saçlarını yolan mən,
Dərdə dastan bağlamağa gəlmişəm.

Zərnişanam, mənim yaram sağalmaz,
Fələk vuran bəndə heç vaxt sağ olmaz.
Dərdim çoxdu, ürəyimdə yağ olmaz,
Qəm əliynən çağlamağa gəlmişəm.

## OLAR

Qismətin gətirsə, Allah da versə,
Quru daş üstündə bağça-bağ olar.
Səninki gətirər, tez ucalarsan,
Yeyərsən-içərsən, günün ağ olar.

Padşahlar kimi hökmün yeriyər,
İstəsən bir anda dağlar əriyər.
Hamı xətrin istər, alarsan dəyər,
Dərd nədi görməzsən, canın sağ olar.

Zərnişan, boşuna incitmə səri,
Sənin dediyinin gəlsə bir yeri...
"Qurban olum"larla "can", "can" sözləri
Canına yayılan sarı yağ olar.

## ƏZİZİM

Niyə alçalırsan sən ona-buna,
Hələ canın sağdı, çalış, əzizim.
Kimi söyür sənə, kim saqır deyir,
Kim edər ki, sənə alqış, əzizim.

Get fəhləlik elə, tök alın təri,
Halalca zəhməti incitməz əri.
Ağlın, huşun olsun, işlətnən səri,
Əməyə meyil sal, alış, əzizim.

Zərnişan neyləsin, dedi gördüyün,
Sən gedən yol deyil, inan, kor düyün...
Puç etmə ömrünü Allah verdiyin,
Sən də adamlara qarış, əzizim.

## GEDƏR

Bu dünya deyilən gözəl bir aləm,
İnsanlar qonağı, baxanlar gedər.
Boyu-buxunuynan, min bir nazıynan
Ərləri yandırıb-yaxanlar gedər.

Kimsə qala bilməz qala bu yerdə,
Muradın beş betər ala bu yerdə.
Gələ əməllicə hala bu yerdə,
Sel kimi çağlayıb axanlar gedər.

Zərnişan, belədi, qurulub mizan,
Fələyin yolundan olmaz bir azan.
Əcəl var qələmlə ömürü pozan,
Nə paşalar gedər, nə xanlar gedər.

# ƏZİZİM

Çox yerə yetişsə namərdin əli,
Axırda bəlasın tapar, əzizim.
Tamahı itidir, lap son tikəni
Ac canavar kimi qapar, əzizim.

Sən ona bənzəmə, Haqqa yaxşı bax,
Gör necə dolanır bu axşam-sabah.
Sən savab qazannan, eyləmə günah,
Yaxşı adın götür, apar, əzizim.

Demə Zərnişanın nədi bu sözü,
Boynuna ölçdürmə üç arşın bezi.
Axırın bəllidi, geci, ya tezi,
Fələk bildiyini yapar, əzizim.

## OLACAQ

Hər yetən şad olmaz, yaxşı yaşamaz,
Yazan necə yazıb elə olacaq.
Allah ruzi verən, nə verəcəksə,
Sənin də qismətin belə olacaq.

İstər aslan olnan, istər qurd-çaqqal,
Sənə paklıq çatmaz olmasan halal.
Kasıbın, yoxsulun hər vaxt könlün al,
Xasiyyətin yumşaq, pilə olacaq.

Heç vaxt “mənəm” demə, sinənə döymə,
Yetimi ağladıb yazığı söymə.
Qocanın-qoltuğun xətrinə dəymə,
Gün gələr, qocalar lələ olacaq.

Yemə haram tikə, olar ziyanı,
Adam “haq” sözündən yatmaz, oyanı.
Soyub-talamaqla o yan-bu yanı
Sanma qotur dana kələ olacaq.

Var-dövlət ha artsa tamah azalmaz,
Zərnişan, mərdlərdə insaf az olmaz.
Qış getməsə axı güllü yaz olmaz,
Qananla qanmazlar hələ olacaq.

## A DÜNYA

Çoxu öldü getdi Qars həsrətindən,
Əlinə nə keçdi görən, a dünya?!
Beləcə tutubsan bizə sitəmi,
Qarsı olacaqmı görən, a dünya?!

Axı ayrılmazdı Ağbaba Qarsdan,
Bu Sovet ayırdı bizləri qəsdən.
Könül təmizlənmir qubardan-pasdan,
Olarmı uçuğum hörən, a dünya?!

Zərnişan gözündən qəm yağa-yağa,
Daha dala düşüb, getməz qabağa.
Ölüb gedəsidi bu gün-sabağa,
Qalıb yurd-yuvası veran, a dünya.

## ÇILDIRIN

Gözümdə, könlümdə, canımda yaşar,
Yadımdan çıxarmı adı Çıldırın.
Əzəldən eləcə Ağbabadadı
Qohumu-qardaşı, yadı Çıldırın.

Hərdən yada düşür o ötən günlər,
O elli-elatlı toylar-düyünlər.
Dərd indi sinəmdə dərdi düyünlər,
Bilmirəm, əsirmi badı Çıldırın?!

Zərnişan, nə ola bir gözüm görə,
O səfalı yerlər, o gözəl yörə...
Mənim xoş günümü özümə verə,
Canıma yeriyə odu Çıldırın.

## OLA

Hanı o göy pendir, dürmək bükəsən,
Mayısın yağıynan xörəyin ola.
Gül-çiçək ətrindən məst olasan, məst,
Yediyin-içdiyin gərəyin ola.

Gəzəsən dağlarda, təmiz havada,
Dövran eləyəsən eldə-obada.
Günlərin xoş keçə isti yuvada,
Bir də ağrımayan ürəyin ola.

İçəsən dağların soyuq suyundan,
Dağlar səsə düşə haray-hayından.
Yüz il düşsə mənə ömür payından,
Zərnişan da sənin dirəyin ola.

## OLSA

Hər gədə-güdədən ağa-bəy olmaz,
Nə qədər mal-mülkü, dövləti olsa.
Namərd nə eləsə ucala bilməz,
Haramdan dağ boyda sərvəti olsa.

Əyri düzəlməz ki nəsihət ilə,
Şeytan yola gəlməz ha tutsan dilə.
Mərdə bol verilər dərd ilə çilə,
Hər kəsin yanında hörməti olsa.

Dünya yaranandan pis-yaxşı da var,
Saf insan könlünə qondurmaz qübar.
Bu fani dünyaya yoxdu etibar,
Zərnişanın ona minnəti olsa...

## KÖNÜL

Yahu-yahu deyib göylərə əl aç,
Haqqın nuru düşsün üzünə, könül.
Dünya naz-neməti keçici şeydi,
Görünməz mal-mülk də gözünə, könül.

Paxıllıq eləmə, pisdən uzaq qaç,
Haqqa qul olmağa olur ehtiyac.
Dərviş misal olsan olmaz gözün ac,
Əlini vurmazsan dizinə, könül.

Mərdə açıq olsun qapın taybatay,
Eyliyi həmişə özünə iş say.
Dərd-bəla gələndə qoparma haray,
Sən elə oxşaynan özünə, könül.

Demə ucadasan, bir az yengin ol,
Sənin bir yolun var: Haqqa gedən yol.
Kim nə olur-olsun, sən Zərnişan ol,
Alışsan alışnan közünə, könül.

## GƏTİRƏR

Gözəllik olsa da boyda-buxunda,
Ürəkdə olmasa xətər gətirər.
İnsan kasıb olsa qəlbdən, könüldən
Həmişə özünə kədər gətirər.

Nə qanar, qandırar ağlı qıt qadın,
Eldə səsin yayar, qorumaz adın.
Ata qədri bilməz onun övladı,
O evə, ocağa hədər gətirər.

Zatıqırıqlardan törəyər bəla,
Pis arvad kişini gətirməz hala.
Zərnişan, çoxusu heyran camala,
Özünə dərd-səri betər gətirər.

## OLMAZ

Oğul, gədələrə tutma yönünü,
Halal əldən gedər, hayın hay olmaz.
Tamahın işığı səni qandırar,
Çiy tikədən tikə, loxma, pay olmaz.

Demə qocalıbdı, azalıb ağlı,
Əfsanə danışır, uydurub nağlı.
Görərsən hər yana yolların bağlı,
Gədə şah olsa da mərdə tay olmaz.

Eşit sözlərimi, uyma boş sözə,
Var-dövlət deyilən pərdədi gözə.
Əyrilikdən tutsan gələrsən dizə,
Ömrün qışda keçər, sənə yay olmaz.

Demirəm dünyada kamalım çoxdu,
Ya da ki, bir suçum, günahım yoxdu.
Deyirəm, görmüşəm, gözlərim toxdu,
Zərnişan heç zaman ağlı zay olmaz.

## OLACAQ

Nə qədər ki, sağam, bilinmir qədrim,
Guya köç edəndə bilən olacaq?!
Yadlarda saxlanır hörmətim, xətrim,
Könlümün pasını silən olacaq?!

Qohumlar, doğmalar soyuyub məndən,
Yad sayır ki, məni, dolanır gendən?!
Qorxmur ki, vicdanın məhkəməsindən,
Bilmirəm, düz yola gələn olacaq?!

Düzə əyri deməm, deyiləm cahil,
Məni yaxşı bilir növcavan-ahıl.
Deyirəm, Zərnişan, od tut, yan, yaxıl,
Köç edənə qədər çilən olacaq.

## YALAN DANIŞIRSAN...

Yalan danışırsan, heç utanmırsan,
Yoxsa unudubsan göydə Allahı?
Bunun bədəlini ödərsən betər,
Bəlan qəfil gələr göydən, vallahı.

Kişi danışanda bilər sözünü,
Tamaha kor etməz görən gözünü.
İncimə, nə deyim, dedim düzünü,
Namərdin dünyada çoxdu günahı.

Deyirsən yenidən atılım oda,
Yenə də başıma gəlsin qan-qada.
Nahaqdan ömrümü mən verim bada,
Fağırın, kasıbın olmaz pənahı?

Zərnişan çox görüb sən tək gədəni,
Sən özün olubsan guya "mədəni".
Haramla həmişə doldur mədəni,
Səni tutmaz görən fağırın ahı?!

## İTİB XOŞ GÜNLƏRİM...

İtib xoş günlərim, qayıtmaz geri,
Ha qəlbi dağlayım, ha nalə çəkim.
Qara bəxt yatıbdi, gəlməz ki bəri,
Dərdə çarə tapmır nə loğman, həkim.

Allaha qalıbdı mənim bu halım,
Dərddən başqa nəyə meylimi salım?!
Dolanır Çıldırı qəmli xəyalım,
Gərək qəm kotanın sürüb qəm əkim.

Zərnişan neyləsin, qəm özü tapdı,
Qəm dəmi əlimdən qəfildən qapdı.
Bu ayrılıq məni taladı, çapdı,
Başını buladı gördüsə hər kim.

## NEYNİM

Sinorun qırağı oturaq yerim,
Oradan dərdimi yayıram, neynim.
Deyirəm, öləcəm görəsən haçan,
Günümü, ayımı sayıram, neynim.

Bu namərd zamana məni yandırdı,
Başımı əydirdi, qəlbim sındırdı.
Günü günə satıb məni qandırdı,
Gücüm çatmır dərdi ayıram, neynim.

Nə qədər ah çəksəm olmur eşidən,
Həsrət, ayrılıqdı qəlbimi didən.
Zərnişan deyil ki, hər yoldan ötən,
Özümü ən bədbəxt sayıram, neynim.

## BAX

Pisin pisdi adı, sən pislik etmə,
Həmişə haqqı gör, ədalətə bax.
El-obaya qarış, tünlükdə itmə,
Gələn dərd-bəlaya, qiyamətə bax.

Tutma vardan-puldan, gözün tox olsun,
Dərd gəldikcə gəlsin, demə yox olsun.
Təki bu dünyada dostun çox olsun,
Mərddə boy-buxuna, qədd-qamətə bax.

Mərdlik peşən olsun, kişi tək yaşa,
Ayıq ol, baltanı vurmaynan daşa.
Çox ümid eyləmə qohum-qardaşa,
Zərnişanı eşit, camaata bax.

## BAX-BAX

Dünənki nökərsən, bu günkü ağa,
Bir başımdan qalxan dumana bax-bax.
Meydan gədələrə qalıbdı daha,
Göylərə dirənən amana bax-bax.

Bir ata minibsən patrax adıynan,
Cövlan eləyirsən bizdə yadıynan.
Daha oynayırsan yanar oduynan,
Qəmin dəryasına cumana bax-bax.

Gözün kormu olub, urus başdadı,
Müsəlman olanın əli boşdadı.
Erməninin əli yağlı aşdadı,
Səndəki insafa, imana bax-bax.

Bu dərdi görmürsən, daşsan, dəmirsən?
Sən də "urra" deyib haram yeyirsən.
Haqqı-ədaləti yerə gömürsən,
Tərsinə fırlanan zamana bax-bax.

Xəstə Zərnişanam, dözə bilmirəm,
Əlimi Tanrıdan üzə bilmirəm.
Bu eldə-obada gəzə bilmirəm,
Yağıya, kafirə, yamana bax-bax.

## BİR GÜN

Dərd də sırayladı, gəlir dəm kimi,
Bu dar gün sənə də gələcək bir gün.
Gendən dolanırsan, könüldən uzaq,
Əlin göz yaşını siləcək bir gün.

Qəlbimi almırsan bir quru sözlə,
Yanımdan ötürsən niyə boz üzlə?
Göylərdən yetişən bəlanı gözlə,
Bilməyən dərd nədi, biləcək bir gün.

Xəstə Zərnişanam, bəllidi soyum,
Ay sənin başına külləri qoyum.
Dirənir göylərə odum-alovum,
Bilirsən, ağlayan güləcək bir gün.

# AĞLASIN

Canla çəkişirəm, ağır günümdü,
Ah çəkib, od tutub dağlar ağlasın.
Şörəyel tərəfdən başlasın tufan,
Sahibsiz, virana bağlar ağlasın.

Qaraxan, Arpagöl, o Arpaçayı,
Görən eşidirmi bu hay-harayı.
Sel-sular, Lalaxan tutsunlar vaşı,
Bulaqlar, çeşmələr çağlar, ağlasın.

Kənarda dayansın canı yanmayan,
Dərdə tuş gəlməyən, qəddi sınmayan.
Zərnişan, ağlamaz məni qanmayan,
Vətənsiz dərd çəkən ağlar, ağlasın.

# EYLƏR

Allah heç bir kəsi salmasın dara,
Kasıblıq çətindi, halı pis eylər.
Başını qaldırmaz xəcalətindən,
Kasıbın özünə dərdi bəs eylər.

Tay-tuşun yanında sözü söz olmaz,
Alovu səngiyər, közü köz olmaz.
Utanar hər yanda, üzü üz olmaz,
Ehtiyac dünyanı ona sis eylər.

Çox yaxşı olsa da boyu-buxunu,
Rahat o gecələr yatmaz yuxunu.
Qohumu tanımaz, olmaz yaxını,
Çırası sozalar, əcəb his eylər.

Belə ömrü boyu qınında yanar,
Özünü danlayar, özünü qınar.
Ürəkdən alışar, kədərdən sınar,
Zilini endirib axır pəs eylər.

Zərnişan, dünyada həyat belədi,
Həmişə fağıra gələn bəladı.
Varlının, zənginin kefi əladı,
Fağır kəsin bəxti ləli mis eylər.

## KÖNÜL

Nə çıxar bu qədər qan ağlamaqdan,
Sən də yürüsənə, sürünən könül.
Açılsan bir qədər dünya dağılar?
Min dərdə, min qəmə bürünən könül.

Bircə dərddəndimi ömür deyilən?!
Fələyindi fərman, əmir deyilən.
Sızlayan canımdı, qəlbdi oyulan,
Sevinclə dəmlərdi kürünən, könül.

Zərnişan da gülsün, sevinsin bir az,
Odda yanır yazıq, belə yaramaz.
Sən özün bilirsən, deyil yaram az,
Qərəmətdə qalar ərinən, könül.

## DEYİM

Dağlar da ahımdan diksinir mənim,
Dərdim artır-artır, azalmaz, deyim.
Fələk əcəb aldı o xoş günləri,
Zimistanın yerin yaz olmaz, deyim.

Kasıblıq, ehtiyac, dərd ilə bəla,
Tutuban yaxamdan saldı bu hala.
Cavankən qocaltdı, döndərdi çala,
Ömrümü-günümü az almaz, deyim.

Zərnişan, gününü keçirdin odda,
İndi hünərin var bu oddan adda.
Ağrılar-acılar qalacaq yadda,
Bunu deyən, bilən az olmaz, deyim.

## TUTULUB

“Yox”um Ağbabadı, “var”ım dərdlərim,
Dövlətim kədərdən, qəmnən tutulub.
Ahım göyə qalxar, kəsilməz səsim,
Mənimki əzəldən bəmnən tutulub.

Elə bil ölmüşəm var ola-ola,
İndi yaşayıram qahr ola-ola.
Qışda odlanıram qar ola-ola,
Sevincim həmişə kəmnən tutulub.

Zərnişan, adına deyirlər köşkün,
Baxıram, gözlərdə ölürəm hər gün.
Talesiz, yuvasız, yurdsuz, didərgin,
Səninki də belə “dəmnən” tutulub.

## YOXDU

Var-yox əldən gedib, qaldım ortada,
Məni heç yadına salanım yoxdu.
Bir isti yuvaya möhtac qalmışam,
Bu küskün könlümü alanım yoxdu.

Qohum-qardaş kordu, görmürmü məni?!
Mən yaxşı seçirəm dostu-düşməni.
Ay qanan, deyirəm, başa düş məni,
Mənim ki sözümün yalanı yoxdu.

Zərnişan neyləsin, bəd gəldi tale,
Dərd-bəla yeridi, gəldi dal-dala.
Əzildim, incəldim, düşdüm bu hala,
Bir sınıq sazam ki, çalanım yoxdu.

## DÖNDÜ

Dünya çalxalandı səksən səkkizdə,
Ağbaba deyilən virana döndü.
Dağda yurd eləyən, yuva eləyən
Çox çarəsiz qaldı, arana döndü.

Yağı düşmən bizi qəfil haqladı,
Bənd-bərəni tutdu, yolu bağladı.
El köçü başladı, ürək dağladı,
Bizim yaz yağışı borana döndü.

Düşdük qapı-qapı, olduq didərgin,
Pis həyat başladı çətin, həm gərgin.
Kimsəyə qalmadı adamın ərki,
Zərnişan, yurd dərdi yarana döndü.

## MƏNİ

Elə yanıqlıyam “sinor” sözündən,
Dilimə gələndə yandırır məni.
Gör neçə illərdi oda yanıram,
Ayrılıq odunda sındırır məni.

Sinorda yerləşir bizim İbiş də,
Dağlar da burdadı, qəribə işdi.
Fələyin kəməndi mənə ilişdi,
Al edir, həmişə qandırır məni.

Zərnişan, taleyin dönməz ki geri,
Sinordan quş olub o yana yeri.
Get dolan Çıldırı, o gözəl yeri,
Həsrəti yollara qondurur məni.

## HƏMİŞƏ

Namərdin dərdi yox, sevinci çoxdu,
Haramdan yükünü tutar həmişə.
Loxması halaldan olsa haramdı,
İçinə nə isə qatar həmişə.

Çox sevir, istəyir müftə yeməyi,
Fitnə-fənd sayılar onun əməyi.
Əyridən-üyrüdən gələr köməyi,
Vicdanı, qeyrəti atar həmişə.

Eldən ayrı gəzər, elə qarışmaz,
Qaşları çatılmaz, alnı qırışmaz.
Şeytan olduğundan haqla barışmaz,
Tülkü tək marığa yatar həmişə.

Zərnişan, sərrafsan, seçirsən düzü,
Bir mərdə qurbandı namərdin yüzü.
Ürəyindən gəldi, saxlama sözü,
Olmaz beləsində tutar həmişə.

## BİLMİRƏM

Xoş gün atlı olub, mən isə yəyax,
Dalınca yüyürüb çata bilmirəm.
Dərdim elə artıb, çox sıxır məni,
Gecələr də rahat yata bilmirəm.

Əlim boşda qalır hara əl atsam,
Demə boşunaymış dağ da yaratsam.
Əgər ovçu olub bərəyə yatsam,
Tüfəngim açılmaz, ata bilmərəm.

Qaradan qaraymış bu baxt dediyim,
Ağu-zəhər olur mənim yediyim.
Mən belə taleyə axı nə deyim,
Əksik olmaz məndən xata, bilmirəm.

Məndən niyə dönüb üzü dünyanın?!
Heç vaxt danışmadım axı hədyanı.
Fələk çox incidir bu Zərnişanı,
Başımı bir şeylə qata bilmirəm.

## DEYİL

Sanki mənə gəlir harda dərd varsa,
Sevinc, dəmlə nəşə gələn ha deyil.
Nə qədər ah çəksəm kim duyasıdı?
Bu dünya qədrimi bilən ha deyil.

Saflıq, təmiz olmaq suçummu olub,
Sinəmə qəm cumub, min bir dərd dolub.
İndi tülkü-çaqqal daha qurd olub,
Kefi yuxarıdı, ölən ha deyil.

İnsaf-mürvət yoxdu, çıxıbdı yoxa,
Namərdin əynində məngülə çuxa.
Mərdin ehtiyacdan ha canı çıxa,
Müxənnət dərdini bilən ha deyil.

Doğma da yadlaşıb, yan öz halına,
Hamı vurulubdu dünya malına.
Sən niyə aldandın dünya alına?!
Zərnişan, göz yaşın silən ha deyil.

## DURDUĞUM YERDƏ

Əhmədi tutdular, dağıldı dünyam,
Qəza gəldi tapdı durduğum yerdə.
Deyirdim əfsanə, nağıldı dünya,
Mat qaldım min xəyal qurduğum yerdə.

Uşaq yetim qaldı, işim pis oldu,
Tutatut başladı, kəsəkəs oldu.
Könül zildən düşüb daha pəs oldu,
Şeytanın qıçını qırdığım yerdə.

Eldə mərd kişidən nişan qalmadı,
Müxənnət insafı yada salmadı.
Sovet haqqı dandı, saya almadı,
Qəmdən dizlərimə vurduğum yerdə.

Deyirəm özümə, ay axund qızı,
Bu necə taledi, bu necə yazı.
Zərnişan bu işə olmaz irazı,
Özüm öz könlümü yorduğum yerdə.

## MƏNİ

Mən yaşa dolmuşam, qəm həmən, həmən,
Artıb ki azalmaz – yandırar məni.
Qan-yaşı axıdar didələrimdən,
Quş kimi yollara qondurar məni.

Çatmaz köməyimə nə qohum, nə yad,
Ürəksiz adama çatarmı fəryad?!
Fələk də eşitmir, eyləsəm də dad,
Hərdən xoş xəyalla qandırar məni.

Zərnişan, beləcə ömür-gün keçir,
Qəmin zəncirini boynuna keçir.
Sənin ki sözlərin qəmdən su içir,
El-oba yanında sındırar məni.

## BAŞ-AYAQDI Kİ...

Mən mətəl qalmışam gördüklərimə,
Qara da bizlərdə bir boyadır ki.
Mərdin meydanı yox, adı qalıbdı,
Namərd uyumayıb, o oyaqdı ki!

Pul-para, var-dövlət çıxıbdı əldən,
Əlim üzülübdü obadan, eldən.
Əksikmi qəm-kədər mən əhli-dildən?
Didərginin ömrü bu sayaqdı ki.

Ehtiyac, yurd dərdi oyur içimi,
Zərnişan, keçirdin belə keçimi.
Ömür dediyimiz oldu heç kimi,
Dünyanın işləri baş-ayaqdı ki!

## OLDUM

Dərdi çəkə-çəkə ömür-gün keçdi,
Nalə-ah çəkməkdə birinci oldum.
Nə qədər istədim mən də sevinim,
Di gəl dərd-ələmin girinci oldum.

Nə qədər gözlədim ağ günüm gələr,
Qara gün üzülər, axır incələr.
Ürək sakitləşər, könül dincələr,
Qanmazın, nadanın gülüncü oldum.

Fələk döydü mənim daşla başıma,
Zəhəri əndərdi bişmiş aşıma.
Yaxşı nə vardısa gəlmir huşuma,
Zərnişan, beləcə zarıncı oldum.

## ÇƏTİNDİ

Varlı-hallı idik qabaq, əzəllər,
İndi palan içi eşmək çətindi.
Şura quru yerdə buraxdı bizi,
Vardan yoxsulluğa düşmək çətindi.

Nəyimiz var idi dartıb aldılar,
Bizi müxənnətlər haldan saldılar.
Ac-gic zəngin olub vara daldılar,
Dərd-sərin odunda bişmək çətindi.

Yox etdi zamana ağanı, bəyi,
Gəldi başa çıxdı adamın səyi.
Zərnişan, mərdlərin yox gələcəyi,
Havlayan yaranı deşmək çətindi.

## ÖRGƏDİR

Deyirəm, dünyanın işinə bir bax,
Görməmiş görənə ağıl örgədir.
Ağlı kəm, işbilməz pək kişi olub,
Yaşlı nağılçıya nağıl örgədir.

Vara-pula çatıb, qalxıbdı baxtı,
Sanki şaha dönüb-qurulub taxtı.
Heç düşmür yadına dilənçi vaxtı,
İndi olub eldə “oğul”, örgədir...

Namərdin, nakəsin yeriyir suru,
Gədənin, namərdin yox ki, qüruru.
Zərnişan, azalıb gözünün nuru,
Baxt sənə hər şeyi mağıl örgədir.

## BALA

Hər yetən gədənin tutma əlindən,
Zatını-əslini sən ara, bala.
Nə lazım başına bəla alasan,
Sonra günün olar qapqara, bala.

Qızsan, ağlın olsun, ağıllıyı seç,
Eşq deyilən ataş, od-alovdan keç.
Mərdin əlindəki zəhəri al, iç,
Olmaynan sərkərdan, avara, bala.

Xoşbəxtlik yetişmir boynan-buxunnan,
Pisdən uzaq dolan, düşməz yaxandan.
İraq ol, pünhan gəz əyri baxandan,
Baxma mal-dövlətə, davara, bala.

Könlü zəngin olan qəlbən gözəldi,
Beləsini bulsan işin düzəldi.
Hər insandan ötrü ağıl əzəldi,
Zərnişan söyləyir dübara, bala.

## OĞLUM

Uçmağı öyrətsən könül quşuna,
Qəlbindən sən ona dən ara, oğlum.
Camala aldanma, dərindən düşün,
Ağıllını axtar, sən ara, oğlum.

Demə çətinlikdi, qorxma heç nədən,
Qız var putla yeyər-içər öynədə.
Qız var ömür yeyər, ürək göynədər,
Qoyma dediyimi kənara, oğlum.

Səy gözəl görəndə vurulma ona,
Yazıqsan, özünü salarsan qana.
Sonra haq verərsən bu Zərnişana,
Dönəndə gözlərin fanara, oğlum.

## BƏS OLDUĞUNU

Gədəçə qızısan, bəxtin gətirib,
Səs salma, bildirmə pis olduğunu.
Səni qızıl bilib bu ər dediyin,
Göstərmə özünün mis olduğunu.

Baxtın kəsər gedər, dövranın dönər,
Göydə uçan axır yerə də enər.
Qarğış-lateyiri sən sayma hünər,
Zilə qalxma, bildir pəs olduğunu.

Eşit nəsihəti, ziyanı olmaz,
Heç vaxt gözü acın kisəsi dolmaz.
Zərnişan deyər ki, sənə də qalmaz,
Anla burda sözün bəs olduğunu.

## YAXŞIDI

Kimi ağıllıdı, nimdaş geyinər,
Kiminin libası, donu yaxşıdı.
Kiminin evində bişmişi bişər,
Kiminin buğdası, unu yaxşıdı.

Kimi kasıblıqdan tapıbdı azar,
Tanımaz nə şəhər, nə də ki, bazar.
Kimi dərd əlindən olubdu bezar,
Kiminin surfası, xonu yaxşıdı.

Kimi hey düşünür dünya işini,
Səbr edər çətində sıxıb dişini.
Zərnişan, buraxmaz əcəl peşini,
Kiminin axırı, sonu yaxşıdı.

## DÜŞƏRMİ?

Yoxsula həmişə bəla tez gələr,
Müxənnət bu zaman yada düşərmi?
Göydən enib gələn neçə min azar,
Pisin ürəyinə qada düşərmi?

Mərdi imtahandan keçirər Allah,
Gədə bəy olarmı qoysa da küllah?!
Ağıllı hər şeyə qalmaz sirillah,
Özü görə-görə oda düşərmi?

Zərnişan, hər dərdi ürəyə salma,
Namərd qızıl versə, sən onu alma.
Sonun qara torpaq, xəyala dalma,
Sənə bir ağ otaq, oda düşərmi?!

## SƏNİN

Mənə lağ edirsən, gədəçə qızı,
Özündən xəbərin yoxdumu sənin?
Axı nə görübsən, nə götürübsən,
Ağıl-huş başında çoxdumu sənin?!

Yersiz danışırsan, gülürsən eldə,
Kol-kos kimi bir gün axarsan seldə.
Gərdənin saxlamaz kəməri beldə,
Baxışın zəhərli oxdumu sənin?!

Burnun göz çıxardır, çopurdu üzün,
Dodaqların əyri, dombadı gözün.
Lateyir-qarğışdı ən gözəl sözün,
Çəkdiyin həmişə "ax"dımı sənin?!

Hər yoldan ötənə göz eyləyirsən,
Əsl gözəlləri söz eləyirsən.
Sən elə bilirsən düz eləyirsən,
Düşün gör son günün ahdımı sənin?!

Saçın at yalıdı, qarğa yuvası,
Yöndəmsiz geyimin, donun, libasın.
Başda dəliliyin betər havası,
Zərnişan tək gözün toxdumu sənin?!

## YOXDU

Deyirəm dərdimi yazın bir yerə,
Könül dəftərimin varağı yoxdu.
Qəm elə göllənib bu can evimdə,
Qarası görünmür, qırağı yoxdu.

Neynim, hər yetənə söz demək olmur,
Elə ömrü boyu qəm yemək olmur.
Günlər qara gəlir, tökülən dolmur,
Dəmin heç xəbəri, sorağı yoxdu.

Allah bilən yaxşı, nə deyim axı,
Fələk hey fağıra çəkdirər ahı.
Mən də etdim peşə qan ağlamağı,
Qəm karvanım keçər, durağı yoxdu.

Zamana üstümə əlini çəkdi,
Qəlbə ataş saldı, qəlbə qəm əkdi.
Zərnişan tənhadı, otaqda təkdi,
Nə odu-ocağı, çırağı yoxdu.

## AĞLAR

Ellər köçür, dağlar qalır kimsəsiz,
Dərə ağlar, təpə ağlar, daş ağlar.
Bircə qalır yurd daşları burada,
Bahar ağlar, payız ağlar, qış ağlar.

Taleyimiz niyə belə gətirdi?!
Elimizə ağır bəla yetirdi.
Yurdumuzu, yuvamızı itirdik,
Ağbabanın gözlərində yaş – ağlar.

Bu bəlaya qoca-cavan nə desin,
Bilən yoxdu dərd-sitəmin vədəsin.
Ay Zərnişan, yerin yoxdu gedəsi,
Yan-yörəndə damlar-daşlar boş, ağlar.

## OLAR

*(cığalı qoşma)*

Mənim dərdim artdı-artdı yüz oldu,
Düz olanın dərdi-qəmi bol olar.
Bol olar
Mərdin qəmi bol olar.
Dərd belədi: hey artar;
Artar, artar-balalar.
Fələk əydi, namərd gəldi düz oldu,
Biz görmüşük, dərd görməsin balalar.

Bu taledi, baxt verəndi deyirəm,
Könül evim bir virandı deyirəm.
Mənim yerim dağ-arandı deyirəm,
Eləmi dağ-arandı,
Fikir qəlbi oyandı.
Dərdi görüb qaynadı,
Yatmış könül oynadı.
Dəli könül haqqa gedər, yol alar.

Ay Zərnişan, artıq-əksik söz demə,
Ocaq altda kül olana köz demə.
Xoş gününü bu fələkdən gözdəmə,
Eləmi gözdəmə sən,
Namərdi gözdəmə sən.
Yandım, yandım, kül oldum,
Qəlbimi közdəmə sən.

Yazan yazıb nə olacaq ol olar.

## BİLMİRƏM

Dağlarsız, yaylaqsız dəli olmuşam,
Arandan dağlara köçə bilmirəm.
Bulaqlar yenə də qaynayıb axır,
O soyuq sulardan içə bilmirəm.

Yaşın bu vaxtında yurd itirmişəm,
Çiynimə dağ boyda dərd götürmüşəm.
Vətəndən göz yaşı, qəm gətirmişəm,
Dərdin dustağıyam, qaça bilmirəm.

Zərnişan nə desin dərd çağlayanda,
Bütün yollarını qar bağlayanda.
Təsəllim nədi ki, mən ağlayanda,
Bu quru canımdan keçə bilmirəm?!

## QARAXAN

Sakitcə axarsan, gələrsən asta,
Məndən türkə xəbər apar, Qaraxan.
Mən bir namə yazdım göz yaşı ilə,
Sən də ol nə olar çapar, Qaraxan.

O tayda bacım var, Tükəzdi adı,
“Bacı”, “bacı” deyir, gözü yoldadır.
Həsrətin ayazı, fələyin badı,
Harda olsam məni tapır, Qaraxan.

Ara kəsilibdi, yollar bağlanıb,
Çıldır həsrətindən sinə dağlanıb.
Yaram ürəkdədir, pünhan saxlanıb,
Barı sən bir havar qopar, Qaraxan.

Xəbər-ətər yoxdu gör neçə ildi,
Bilirsən, Zərnişan bir əhli-dildi.
Səninlə söhbəti qənimət bildi,
Söz ilə təsəlli tapar, Qaraxan.

## CANIM OY

Uca dağlar gözdən itdi, görünməz,
Dağlar boyda kədər alan canım oy.
Qərib düşən qaralara bürünməz?
Qəm əliylə talan olan canım oy.

Əbəs yerə xəyallara dalmışam,
Ağ saçımı çəngə-çəngə yolmuşam.
Dərbədərəm, küçələrdə qalmışam,
İndən belə oda qalan canım, oy.

Yapışan yox, yıxılıram, əlimdən,
Var nicatım, bu da asan ölümdü.
El-obasız ağbirçəyə zülümdü,
Yeri-yurdu yalan olan canım, oy.

Qara bəxtim öz yerində sayınca,
Tale məni eləyibdi oyuncaq.
Zərnişanam, heç gülmədim doyunca,
Yurdlu ikən yurdsuz qalan canım, oy.

## MƏNİ

Qəm çiynim üstündə, həsrət gözümdə,
Göynədir, yandırır o dağlar məni.
Yurdsuzluq, ayrılıq düşdü bəxtimə,
Tanıyan tanıyar bu dağla məni.

Bozardı bizlərə dövranın üzü,
Halal loxma kimi yedi şər düzü.
Ayağa düşmüşəm, gülərmi üzüm?
Dərdin kabab etdi, a dağlar, məni.

Xəstə Zərnişanam, daşa dönmüşəm,
Qanadı qırılmış quşa dönmüşəm.
Yurdum, gözlərində yaşa dönmüşəm,
Öləndə sən ağla, ya dağlar məni.

# TÜKƏZ BACIM

Yazan qara yazdı mənim bəxtimi,
Hardasan, yanıma gəl, Tükəz bacım.
İtirdim yurdumu – qızıl təxtimi,
Daha didərginəm bil, Tükəz bacım.

Bu dünya gözümü qəmlə doyurdu,
Ehtiyac qılıncın qından sıyırdı.
Fələk doğmaları məndən ayırdı,
Oldu para-para el, Tükəz bacım.

Daha torpaqdadı Əbdüləzim də,
Xəyala gedirəm əlim üzümdə.
Həsrətin bulud tək oynar gözümdə,
Bilməm necə keçir il, Tükəz bacım.

Qocalıq əlində düyçə olmuşam,
Talesiz insanam, xətər almışam.
Xəstə Zərnişanam, yerdə qalmışam,
Nəmli gözlərimi sil, Tükəz bacım.

## GƏLDİ KEÇDİ

Nagahan yurdumda durduğum yerdə,
Dəlib ürəyimi qəm gəldi keçdi.
Ağbaba elləri dağıldı bütün,
Əzəlki gözəl gün, dəm gəldi keçdi.

Elin yoxluğundan ah çəkdi dağlar,
Qaldı Şörəyeldə viranə bağlar.
Ölən ölüb getdi, sağ qalan sağlar
Çiynində dərd yükü cəm gəldi keçdi.

Vətən həsrətindən yandıq, kül olduq,
Dərdi çəkə-çəkə əhli-dil olduq.
Həddi aşdı kədər, günlər il oldu,
Həsrət ağzımıza gəm gəldi keçdi.

Zərnişan sazını çala bilmədi,
Bir də o dağlarda qala bilmədi.
Bu suala cavab ala bilmədi,
Dərdsiz bu dünyadan kim gəldi keçdi?!

## GƏLİRƏM

Mənə yurdsuz deyən, didərgin deyən
Qəddimi gör necə əyif gəlirəm.
Ağbaba dərdindən dəli olmuşam,
Cütəlli başıma döyüf gəlirəm.

Yurdum yadın oldu, sahibsiz obam,
Bumbuza dönübdü isticə yuvam.
Sanki boğuluram, çatışmır havam,
Bayatı, həm ağı deyif gəlirəm.

Tutmuşam yükümü qəmdən beləcə,
Dəli-divanəyəm yurdsuz eləcə.
Dağlar hey yuxuma girir hər gecə,
Yuxuda dağlara dəyif gəlirəm.

Dönübdü dönəlgəm yaşın bu vaxtı,
Günüm ağlar keçir, çəkdiyim ahdı.
Ümidim, pənahım göydə Allahdı,
Düşmüşəm canbəsər, zayıf, gəlirəm.

Ağbirçək vaxtımda dərdədərəm mən,
Körpə uşaqdan da beşbetərəm mən.
“Vətən”,”Vətən” deyə hey ötərəm mən,
Ağlayıb-ağlayıb doyuf gəlirəm.

Qəm çəkib qılıncı aldı üstümü,
Yanıram, bir kimsə görmür tüstümü.

Qəfil əcəl bir girmədi qəsdimə,
Dağlarda ölmədim, hayıf, gəlirəm.

Xəstə Zərnişanam, bir adım qalıb,
Mənim o dağlarda muradım qalıb.
Şaxta vuran gül tək irəngim solub,
Vətənsiz mayıfam, mayıf gəlirəm.

## AĞLARAM

Qohum-qardaş döndü mənə yad oldu,
Yer-yurdumu qamarladı, yad aldı.
Bu möhnətdən alovlandım, od aldım,
Pəjmürdəyəm, pərişanam, ağlaram.

Ahım-naləm bu dünyanı tutmadı,
Köçən gündən bircə gecə yatmadım.
Əlim atdım, o dağlara çatmadı,
Hanı orda bir nişanə, ağlaram?

Köməksizəm, kimsəsizəm arada,
Kölgəsini əsirgədi Yaradan.
Dərd əlindən ürək neçə paradı,
Ağbirçəyəm, Zərnişanam, ağlaram.

## GETDİ

Sovetin gəlişi olmayaydı kaş,
Elimin nizamı pozuldu getdi.
Silah qabağında Əhməd kimi ər,
Alnına qaralar yazıldı getdi.

Qalmadı obada başıpapaqlı,
Qadınlar-gəlinlər qaşlı-qabaqlı...
Kəndin kişiləri qolları bağlı,
O gedər-gəlməzə düzüldü getdi.

Fələyin sitəmi bizlərə bəsdi,
Yollar üstündəyəm, qulağım səsdə.
Gözəl Zərnişanım olandan xəstə,
Hicrandan ürəyi üzüldü getdi.

## KÖNÜL

Ötəni-itəni salıb yadına,
Yaralar sızıldar – əllətmə, könül.
Mənim dərdim çoxdu, dərmanım yoxdu,
Bir də dərdə-sərə bəllətmə, könül.

Əzəldən dərdliyəm, vaxt belə gəlib,
Talem belə gəlib, taxt belə gəlib.
Dərdə yanmalıyam, baxt belə gəlib,
Əlini-qolunu yellətmə, könül.

Xəstə Zərnişanam, tanıyır aləm,
Sən mənim alınmaz şəhərim, qələm.
Tale verməsə də əlimə qələm,
Haqq bilər, sən özün həll etmə, könül.

## KÖNÜL

Yenə süvar oldun dərdin atına,
Yolun hayanadı, desənə, könül.
Bu dərdin çözümü tapılmır niyə,
Dərdimə dərman nə, desənə, könül.

Yaram bir-ikidi, beşdi – sayı yox,
Nədən ürəyimin sevinc payı yox.
Ömrümün baharı, nə də yayı yox,
Keçib gedib neçə de sənə, könül.

Xəstə Zərnişanam, dərd edib zəlil,
Hərdən insafa gəl, göz yaşımı sil.
Əzabın içində mənə əhli-dil,
Düzələr deyirsən, desə nə, könül?!

## BƏSDİ

Haqqın zərrəsinin işığı yetər,
Gözümü-könlümü bürüsə, bəsdi.
Dərdin ağır daşı dönməyə geri,
Könül qanad açıb yürüsə, bəsdi.

Pis olmaz baxçada bülbüllər ötsə,
Əyri olanların yönləri itsə.
Paxıllıq ağacı çürüyüb getsə,
Namərdliyin kökü qurusa, bəsdi.

Ay Xəstə Zərnişan, hələ sözün var,
Yaşamaq şirindi, onda gözün var.
Əlbət, el yanında bir ağ üzün var,
Haqq yolunda ömrün ərisə bəsdi.

## YARALAR MƏNİ

Betər çox incidir, betər yandırır,
Sinəmə vurulan yaralar məni.
Həmdəm yox, simsar yox, bəs kimə deyim,
Bu dərdin əlindən yar alar məni.

Yar, bacı, övladdı... bunların adı,
Qəm gələndən mənə qismət olmadı.
Fələk də incitdi, saya salmadı,
Müxənnət tənəylə yaralar məni.

Bu Xəstə Zərnişan müştaqdı dərdə,
Elə yönü düşür niyə namərdə?!
Bir az xoş gün görmək olmaya sirdi,
Gərək doğrayalar, yaralar məni?!

# TƏCNİSLƏR

## QARALAR MƏNİM

Əzəldən tanıyıb hicran yaxamı,
Fələk hey başıma qaralar mənim.
Qürbətə düşəndən yazda, yayda da
Üstümü qış alar, qar alar mənim.

Dağlar görünməyir baxsam da dala,
Vətən havasından adam dad ala.
Bülbülün ötərdi, qonardı dala,
İndi peşimlədir qaralar mənim.

Zərnişan nə desin qəlbi oyana,
Yatıb qara baxtım çətin oyana.
Güzarım düşərmi dağa-o yana,
Gözüm yol çəkməkdən qaralar mənim.

## QƏMƏ MİN

Görən niyə qara gəldi bəxtimiz,
İndi burda qəm əlindən qəm əmim?
Yurd boşalır, ellər köçür, köç gedir,
Yurd həsrəti ürək deşən qəməmi?

Nə deyəcik sonra gələn nəsilə,
Könlümüzdən qübarları nə silə.
Tuşmu olduq nəhs aylara, nəhs ilə?
Yoxsa dağda dağlar boyda qəməmi.

Zərnişanım, can evinə çən gələ,
Ürəyini keçirdilər çəngələ.
Kimi ağlar, kim pulu çəngələr,
Bəxtim deyir düz üzümə: qəmə min.

## BİR QƏM ÇİLƏDİ

Tale oyununda qərq oldu gəmim,
Bir yandan başıma qəm qəmçilədi.
Fələk də aldatdı: "Gəminəm, gə min",
Əridib bədənim lap qəmçilədi.

Yurd həsrəti adlı bir bəndə düşdüm,
Dərd-ələm çəkməyə bir bən də düşdüm.
Dünyaya talehsiz bir bəndə düşdüm,
Gördüm kədər çilə, həm qəm çilədi.

Yaz başında yağan qar qara gəldi,
Axdı göz yaşlarım Qarqara gəldi.
Oynadı qəfildən qarqara gəldi,
Zərnişan, üstümə bir qəm çilədi.

# DİVANİLƏR

## VERDİM

Hər yetəni adam bilib hörmət-izzət etdim mən,
Ömrü boyu yolum birdi, Haqq yoluyla getdim mən,
Məclislərdə, yığnaqlarda bülbül kimi ötdüm mən,
Bilən bildi, görən gördü – özümü nişan verdim.

Nələr çəkdim, nələr gördüm, Yaradana çox şükür,
Mənim də baxtım belədi: hey bacadan dərd tökür.
Sonu nədi – Allah bilir, eyləsəm də yüz fikir,
Dərd təpəmdən ataş vurdu,tüstüylə duman verdim.

Kileylənmə əbəs yerə, tabla bir az, Zərnişan,
Zimistandan sonra yəqin gələcək yaz, Zərnişan,
Təntidib səni deyəsən soyuq, ayaz, Zərnişan,
Sözünü üzə deməyə mən sənə aman verdim.

## VERƏR

Bu fələyin qaydasıdır, mərdə dərdi bol verər,
Müxənnətə qanad gərər, gədələrə yol verər.
Kişi olan kasıb düşər, əzab çəkər dünyada,
Nanəcibə arxa durar, çulsuza da çul verər.

Gəl incitmə, dəli könül, qurğu belə quruldu,
Lil-palçıqlı axan sular axıb belə duruldu.
Bu dünyada çox karvanlar yolda qalıb yoruldu,
Gül bitməyən o boz çöllər tikan tutar, kol verər.

Ay Zərnişan, gəl qane ol, qismətin nədi bəsdi,
Tamahkarla bəhsə girmə, Haqqa yürü, tələs di.
Yaxşılığa yönünü sal, öz özün tələsdir,
Payın nədi bilən bilir, vədəsində Ol verər.

## BİLƏR

Gözəlliyi verən verib, qədrini bilən bilir,
Dərdə-qəmə könül açan gözünü silən bilər.
Sən qanmazsan bu işləri, var tutubdu gözünü,
Qəm qoşunu gəşt eləyib üstünə gələn bilər.

Halın yaxşı, kefin əla, gözəlliyin yerində,
Nə olsun ki, kamalın yox, bircə qırıq sərində.
Mərifət bir dəryadır ki, üzəmməzsən dərində,
Mən deyəni kədər əyib ürəyin dələn bilər.

Qansa idin halal nədi, haramdan tutmaz idin,
Əyriliyi doğru bilib rahat yatmaz idin,
Anlasaydın bu hikməti, başını qatmaz idin,
.........................................................

## GÖRDÜM

Bu dünyada çox dolandım, yoxsulları ac gördüm,
Namərd çoxdu, əyri artıq, pisləri taraz gördüm.
Allah, sənə qurban olum, bu nə işdi qanmıram,
Gədə-güdə bəyə dönüb, kef-halını saz gördüm.

İnsaf, mürvət sözdə qalıb, həqiqət də heç yoxdu,
Namərdlərin nə vecinə, qiyamət də heç yoxdu,
Dünya elə yalan dünya, mərhəmət də heç yoxdu,
Saf ürəkli adamları qəlbi qırıq saz gördüm.

Ay Zərnişan, ah-uf etmə müxənnətin yanında,
Haqq nurudu axıb gələn damarında, qanında.
Yaradana baş əyənsən, halallığın canında;
Mən nə deyim, boran-qardı, yaz içində yaz gördüm.

## GƏLƏR

İtin-qurdun kefi yaxşı, səsi hər yandan gələr,
Mərd olanın comərdliyi damardan-qandan gələr.
Hər yetəndən adam olmaz, hər gədədən bəy-ağa,
Mərifətlə namus, qeyrət həlbət ki, candan gələr.

Candan gələr eylik işi – eyilərin əməli,
Kök üstündə qurulubdu hər bir kəsin təməli.
Patpat da gözə xoş gələr, amma olmaz yeməli,
Qada-bəla, ya dəlilik, şər-xata ondan gələr.

Haqdan gələn nur-bol işıq, göyün yeddi qatından,
Saf ürəyə işıq salar, salmaz mərdi atından.
Ay Zərnişan, bəlli olar hər kəs kəndi zatından,
Gün gələr ki, qəza-qada, gün var ki, xəndan gələr.

## GƏLƏR

Yaxşı işlər, yaxşılıqlar hər vaxt halaldan gələr,
Gözəl həyat, dərin hikmət əhli-kamaldan gələr.
Hər yetəndən adam olmaz, hər adamda haqqı-say,
Əlbət xeyir, həm xoş əhval gözəl camaldan gələr.

Söz lətifdi, qədir bilən onu elə bilər xas,
Çərənçidən uzaq dolan, söz deyənə qulaq as.
Bəlanı alma başına, gəzdirmə əlində tas,
Mərdə ağlı Allah verib, sanma pul-maldan gələr.

Zərnişanam, dərdim çoxdu, sözü dərman bilmişəm,
Ağlamışam neçə kərə, göz yaşımı silmişəm.
Haqq-talanın qulu mənəm, dərgahına gəlmişəm,
Mənim ağlım yerindədi, bu, düz amaldan gələr.

## KİMİ

Sən gələndə cındırından cinlər ülkürdü, gördüm,
Üz-gözündən namərdliyin havası vurdu, gördüm,
Sənin arxanda dayandı, vəzifən durdu, gördüm,
İbiş oldu yağlı tikə, görünmədi kət kimi.

İnsaf-mürvət tanımadın, adamları tutdurdun,
Kölgə kimi hey izləyib zindanlara atdırdın.
Zalımlıqda betər olub özün həddə çatdırdın,
Qanımızı sorub əmdin birə kimi, bit kimi.

Allah yetirdi bəlanı, səni yəyax qoydular,
Vəzifədən endirdilər, səni gədə saydılar.
Kasıblar intiqam aldı – səni yaxşı yaydılar,
Qovuldun eldən-obadan bir sahibsiz it kimi.

## MƏNİ

Bu taleyə mən nə deyim, çıxarır haldan məni,
Uzaq etmir dərd-bəladan, həm qeylü-qaldan məni.
Ulu Tanrım, sən bilirsən, nə çəkirəm dünyada,
Hicran ilə qəni etdin dövlətdən-maldan məni.

Üzüm gülməz, könlüm qəmli, kədərsiz olmaz günüm,
Qalxar göyə, bülənd olar, ərş-əlaya ah-ünüm.
Mənimki də belə gəlib, gərək qəm üstə dinim,
Fələk də müxənnət olub daşlayır daldan məni.

Ay Zərnişan, qismət budu, şikat etmə, bəsdi, bəs,
Eyliyini heç unutma, yaxşılığa sən tələs.
Namərd ilə işin yoxdu, mərd olana eylə səs,
Qorusun uca Yaradan fitnədən, aldan məni.

## GƏLƏR

Müftə yeyən haramxorun səsi ucadan gələr,
Dərdli adam yata bilməz, dərdi gecədən gələr.
Kim neyləsə öz əməli qabağına çıxacaq,
Qada-bəla haqq işidi, göydən, bacadan gələr.

Müxənnətin işi bəlli, mərdin işi mərd işi,
Enər, qalxar – bir qaydadı, Fələk eylər gərdişi.
Yaradanım qoruyandı “Yahu” deyən dərvişi,
İman candan, mərdlik qandan, hikmət xocadan gələr.

Zərnişanın dərdi çoxdu, sayı-sanbalı yoxdu,
Sinəsi qəmin yaylası, qəmdən çox yeyib, toxdu.
Belə gəlib əzəl gündən, boyanıb qara baxtı,
Cavan deyil qəhqəh çəkə, nalə qocadan gələr.

## VAR

Dəm tapılmır can evimdə, amma qəmdən minim var,
Namərdlikdən çox uzağam, comərdlikdən çinim var.
Haqq oduna yanan mənəm, odum, ataşım ordan,
Kəmfürsətə düşməz yolum, nanəcibə kinim var.

Bu dünyanın naz-neməti tutmayıbdı gözümü,
Tamahın iti qılıncı qızartmayıb üzümü.
Bir Allahın qulu kimi söyləyirəm sözümü,
Qəlbi təmiz müsəlmanam, imanım var, dinim var.

Zərnişanam, pərişanam, pozuq halım-əhvalım,
Gedib əldən o əzəlki o zənginlik cəlalım.
Yerindədi huşum, ağlım, halal loxma halalım,
Təbim qaynar, mətləb bəlli, xoş məramım mənim var.

## OLDU

Mərdlik getdi, dövran döndü, gəda gəldi şah oldu,
Sovet gəldi, betər gəldi, şeytan-çuğul sağ oldu.
Ağa-bəyi qaralayıb göndərdilər sürgünə,
Gədənin yavan çörəyi qaymaq oldu, yağ oldu.

Mərd igidlər seçildilər, qolu bağlı getdilər,
El-obadan yoxa çıxıb ilim-ilim itdilər.
Nanəciblər, müxənnətlər elə zülüm etdilər,
Əyrilərin dəmi gəldi, damaqları çağ oldu.

Gədələr də ata mindi, patrax gəlib bəy oldu,
Dünyagörmüş zəngin olan indi dəli, səy oldu,
Oğru-tülü meydan açdı, zatıqırıq bay oldu,
Allah, sənə qurban olum, bu olanlar ağ oldu!

Zərnişanam, dərdim çoxdu, demək olmur hər sözü,
Müxənnətin zamanası düzlüyüb bütün düzü.
Halal kəsə bəla olub, qara edib gündüzü,
Olan sözü deyəmmirik, dilimizə bağ oldu.

# İDİ

Bir zamanlar xanım idim, altun, axça bol idi,
Bizim ocaq şah qapısı, hər karvana yol idi.
Gedən-gələn şad olardı, şadlıq, nəşə aparıb,
Üstümüzdə ulu Tanrı qoruyan bir Ol idi.

Nökər-naib xoşbəxt idi, haqq-ədalət yerində,
Dədələr başda durardı, hikmət, kəlam dərində.
Dolansa da neçə hoqqa namərdlərin sərində...
Çəmənlikdə tək-tük bitən qanqal, ya da kol idi.

Bizim elin məclis – xonu açılardı qabağa,
Bu məclisdə əyləşərdi xas adamlar: bəy, ağa.
Zərnişan da yolu salıb durna gözlü bulağa,
Seyr edərdi dağı-daşı, təbiətə qul idi.

# ƏRZİ-HAL

Dərdim çoxdu, kədərim çox, bir yandan da qocalıq...
Əldən çıxıb urvat, hörmət, o əzəlki ucalıq.
Mən nə deyim bu dövrana, qoymaz mərddə xocalıq,
Yaxşını oda yandırar, odu-ataşı sönməz.

Didərginlik alıb canım, qapı-qapı dolandım,
Bir bulaqdım, görən niyə düz gözümdən bulandım?!
Xoş günlərdən ayrı düşüb dərdə-qəmə calandım,
Dəli könül göylərdədi, ölsə də ordan enməz.

Zərnişanım dərd əlində xəstədi, zəlil olub,
Ağbabadan uzaq düşüb, gör bir neçə il olub!
Deme, fələk dinə bilmir, dili yoxdu, lal olub,
Mən həmənəm, qəlbim həmən, bu lafın qəlbə sinməz.

## QIZIM

Qardaş səni çox incidib, demə “qara daş”, qızım,
Ürəyində təpər yoxdu, bağrı olub daş, qızım.
Sən yad olma, uzaq durma, doğma yad olmaz axı,
Arada hasarlar, sədlər olsa belə aş, qızım.

Şükür gözəl boy-buxunun, şirindi suyun sənin,
Xasiyyətin çox gözəldi, əsildi soyun sənin,
İnşallah, başlayar bir gün əlbət ki, toyun sənin,
Mərd sevinər, gözü gülər, pislər qalar çaş, qızım.

Gəl, ey Fatma, ay alagöz, dərdləri unut getsin;
Haqqı tanı, dünyanı gör, həqiqətdən tut, getsin...
Zərnişanın dediyinə gəl həmişə yat, getsin,
Sən təmiz ol, Haqqı tanı, dolandırnan baş, qızım.

## KİMİ

Utanmırsan əməlindən, şirvanırsan tazı kimi,
Üzün padoş, sənə nə var, qızarmazsan pazı kimi.
Təki sənə xeyir gəlsin, tüpürsünlər qoy üzünə,
Bilirəm, gəlməz vecinə, dolanırsan qazı kimi.

Şeytanlıq əsas işindi, yaltaqlıq təzə vərdişin,
Yağlı aşa əlin çatıb, itilənib tamah dişin.
Müftə gəlir yemək-içmək, xörəyin, çiyin, bişmişin...
Maşallah, özün tutmusan, neçə ilin yozu kimi.

Əl-ayağın pamblıq kimi, sinən bir meydan – görürəm,
Baxışların canlar alır, gözlərin şeytan – görürəm.
Nə insafin, mürvətin yox, bircə mərdə "yar" demədin,
Səni görən xəstə olur, tez düşür heydən – görürəm.

Sallanırsan sona kimi, təzə açan gül kimisən?
Sözün şəkər, özün gözəl, bir şeyda bülbül kimisən?
Aşıqları dərdə salan saz üstündə tel kimisən,
Əslin-kökün bəlli, gözəl, işlərin yeydən – görürəm?!

Zərnişanı yaxşı tanı, dediyini al hesaba,
Camalını göstər bizə, hər halda vardır savabı.
Tələsmə, sözüm deyəcəm, sualın vardır cavabı,
Dalınca gəzib-dolanan axmaqdan-səydən görürəm.

## BAX

Altmışı keçibdi yaşın, ərgən qız tək nazına bax,
Dizdə gir yox, gözündə nur, alnına – öz yazına bax.
Cavanlardan uzaq dolan, sənə "nənə" deyənlər var,
Axı abır yaxşı şeydi, çoxuna bax, azına bax.

Büzüşübdü qaşın-gözün, qədd əyilib, dala dönüb,
Uzağı görə bilmirsən, gözlərinə qara enib.
Ataşın yox, közün yoxdu, təndirin, ocağın sönüb,
Qışın çoxdan yetişibdi, xam xəyallı yazına bax.

Sallanmağın yeri deyil, ağır otur, ağıllı ol,
Danışanda diqqət elə, dili şəkər-noğullu ol,
Ağbirçəksən, yerini bil, mağıl otur, mağıllı ol,
Zərnişanın sözü çoxdu, əldə qırıq sazına bax.

## AXMAQ

Oğurluqda nə görübsən imanını yandırıb,
Tamahın ağlını alıb, şeytan səni qandırıb.
Əyri yola düşübsən sən, öz-özünü sındırıb,
Gec deyil ki, düzəl yola, oğurluğu at, axmaq.

Yaşın ötüb, qocalmısan, artıq nənəsən axı,
Bəsdi daha nazar ilə ona-buna baxdığın.
Od alarsan ömrü boyu, çəkmə tamah çaxmağın,
Həqiqətdən yaxşısı yox, həqiqətə yat, axmaq.

Düzənin yox, nizamın yox, bu yaşda yaşdı işin,
Zərnişanam, düz deyirəm, ağzında yoxdu dişin.
Halallıqla işin olmaz, haramdandı bişmişin,
Əyriliyin gölü dərin, qərq olubsan, bat, axmaq.

## KÖNÜL

Bu dünyanın qaydasıdı, öz-özünü yax, könül,
Hərdən gülnən, hərdən ağla, hərdən çəknən ah, könül.
Xeyirnən şər qardaş olub lap bineyi-əzəldən,
Həqiqət bir çeşməkdirsə al, gözünə tax, könül.

Hər gədədən adam olmaz, hər yetəndən bəy-ağa,
Heç yaraşmaz zərrə qədər mal-mülk, dövlət axmağa.
Müxənnətlər yaranıbdı elə könül yıxmağa,
Sən bunları unut getsin, bir irəli bax, könül.

Gəl sən Xəstə Zərnişanı çəkmə belə dərinə,
Yaxşı işlər düşün hər vaxt, ağlın gəlsin yerinə.
Ziyan vermə, xeyir vernən anarına, bərinə,
Haqdan qayna, zümzüməynən bulaq kimi ax, könül.

# GƏLİN

Boy-buxundan çox kasıbsan, acıdı sözün, gəlin,
Qapı-qapı dolanırsan, qırılmaz dizin, gəlin.
Sümsük it tək çox sümsünmə, küçələrdə qalarsan,
Yatar baxtın, dönər çarxın, kor olar gözün, gəlin.

Biş-düşün yox, səliqən yox, zibilin evdə çoxdu,
Pintilikdən vaxtın olmur, evində nizam yoxdu.
Gödənin doymaq bilir ki, deyəm gözlərin toxdu,
Hisə-misə bulaşıbdı, qaradı üzün, gəlin.

Zərnişanam, məni eşit, iş-gücünə yaxşı bax,
Təmizliyi əldən qoyma, bulaq olub qəlbə ax.
Haqla iş gör, zora düşsən şirin sözə qanad tax,
Qalx göylərə, dünyanı gör, görünsün düzün, gəlin.

# DİVANİ

İştahana əhsən deməm, qız olan yeməz belə,
Yekə gərdan, yekə əndam yaraşmaz incəbelə.
Lateyiri, həm qarğışı gətirirsən sən dilə,
Nəciblikdən xəbərin yox, səndən gəlin çıxarmı?!

Qız olanın gərək bir az qırıq olsun boğazı,
Bülbül kimi hərdən gəlsin qonşulara avazı.
Eşq ataşı yandırsın ki, alsın əlinə sazı,
Bədəsilə dönüb bir kəs bir də belə baxarmı?

İş bilmirsən, Zərnişana çığırırsan ucadan,
Utanmırsan böyüklərdən, yaşlılardan, qocadan.
Cınqır döşlərin sallanır, geyinibsən yekə don,
Belə sifət, belə əda dəli könül yaxarmı?!

## FƏLƏK

Mənnən belə əlləşirsən, nədi qəsdin, ay fələk,
Xoş günümü alıb əldən, etdin ömrüm zay, fələk.
Dərdim azmı, qəmim azmı, nə tutubsan yaxamdan,
Əzəldən bəla veribsən, yaxşılığın say, fələk.

Başıma daşı yağdırıb, sinəmə dağ düzdürdün,
Bu yaşımda qaçqın edib qapı-qapı gəzdirdin.
Namərdlərə möhtac edib tənə ilə əzdirdin,
İnsaf elə barı indi, məni əldən qoy, fələk.

Zərnişanam, sən bilirsən Haqqa qulam əzəldən,
El içində hörmətim var, əhli-halam əzəldən.
Vaxtsız solub çəmənzarım, gülüm, lalam əzəldən,
Sən də barı bu dərdləri bu aləmə yay, fələk.

## DƏRD

Bəsdi mindin çiynimə sən, məni gəl az yana, dərd,
İşdəklərin car eləyib yayacam dörd yana, dərd,
Ah çəkməkdən bu qəlbimi döndərmisən qana, dərd,
Görünmür ki, heç gözünə oda, otaq, xana, dərd.

Yandırdıqca odun məni, gözlərimdən sel gedir,
Günlər ötür, ömür keçir, əldən çıxıb il gedir,
Köç eləyib yaz olanda yaylaqlara el gedir,
Gətiribsən söylə niyə məni belə cana, dərd?!

Zərnişanım adı bəlli, ağbirçəyim söz deyər,
Doğmasıyla görüşməyən həsrət çəkib qəm yeyər.
Yasda olan qara bağlar, göy qurşanar, göy geyər,
Mən dedikcə, söylədikcə zülmün özün sana, dərd.

## GƏLİN

Dilin uzun, ağlın azdı, xasiyyətin pis, gəlin,
Təmizlikdən xəbərin yox, üstü-başı his gəlin,
Qoy açılsın qaş-qabağın, tökmə duman-sis, gəlin,
Adam olmaz qəlbi xayın, həmi çox xəbis, gəlin.

Mən anayam, sən də ana, niyə pismiş qaynana?
Qulluq etmək, zəhmət çəkmək sığmır sənin şaynına?
Tərs-tərs baxma həm ərinə, həmi böyük qaynına,
Var dağılar, dövlət olmaz, olarsan müflis, gəlin.

Zərnişanam, mən baxıram, anan öyüd vermiyib,
Mərifəti qanmayıbsan, düz söz başa girmiyib.
Qabırğası çox qalınsan, Haqqı gözün görmüyüb,
Soyun yoxdu, bir ocaqda olubsan iblis, gəlin.

## ORDA SƏN

Dəli könül, getmə geri, gözlə burda, burda sən,
Boran-tipiyə düşərsən belə qarda, qarda sən.
Hey əl atsan çatmaz əlin uca-uca zirvəyə,
Görərsən özünü yenə belə qırda, qırda sən.

Əhvalın bütün qarışıb xəyal yurdu gəzsə də,
Bir ağ baxtı, ağ dünyanı, bir ağ qurdu gəzsə də,
Əslim nurdu, nurdan enib yenə nurdu gəzsə də,
Yerin-yurdun bəlli deyil, bir bax harda, hardasan.

Sinəsi dağlı Zərnişan qara-ağda dolanır,
Ruhu Şörəyel-Ağbaba, quş tək dağda dolanır,
Alçaqlara enməz-enməz, elə ağda dolanır,
Bulsan vətəndə bularsan, elə orda, orda sən.

## BELƏ

Həmi varam, həmi yoxam, ruhum uçur, həm qayıdır,
Gəzirəm iki dünyanı, gözüm-könlüm toxdu belə.
Haqqın qulu-nökəriyəm, nurdu bəzəyim mənim,
Həm kasıbam, həm varlıyam, kədər dəmdən çoxdu belə.

Var-dövlət gözümdə heçdi, sözüm safdı, dürr-incidi,
Taleyin qara yelləri əsəndə qəlbi incidi.
Kimi dünyada pir kimi, kimi dərdin girincidi,
Kimi bəlaya qalxandı, kimi uçan oxdu belə.

Bir mahnıyam dərd avazlı, Haqqın gözəl bəsdəsiyəm,
Sevdanın ətrini verən bir qızıl gül dəstəsiyəm.
Zərnişanam, qəlb sakini, bir saf könül xəstəsiyəm,
Bir də gördün bu söz deyən bu dünyada yoxdu belə.

## BAX

Əynimdə xırxa olsa da sinəm yara, yara bax,
Dərd əlində parçalanıb elim para-para, bax!
Tanrı əmriylə ölməyin Vətən dərdli adı var?
Fələk çəkib gözümüzdən bizi dara, dara, bax!

Qaralarda çox qalmışıq, heç düşməz ağ gün ələ,
Tale təzə ad veribdi köçkün, didərgin elə,
Fələk qəfil eləyibdi həyatı gərgin elə,
Dəli könül dərman bulmaz, tapmaz çarə, çarə, bax!

Zərnişanam, günüm ağlar, matəmdə qalan mənəm,
Can evini boran alan, ürəyi talan mənəm,
Nalə çəkib Ağbabada hay-haray salan mənəm,
Gəz, gözlərim, vətənini, yurdun ara, ara, bax.

# MÜXƏMMƏS

## ÇOBAN

İtiribdi qoyunları bu nabələd dəli çoban,
Çomaq, yapınçısı yoxdu, özü çox gülməli çoban,
Nə qanır, nə qandırır, nə də deyir "bəli" çoban,
Tərslikdən möhkəm yapışıb, daha olub zəli çoban;
Arxadan çıxmaz qabağa, yeriməz irəli çoban.

Yatır qalır səhər erkən, zalım oğlu xandı görən?
Qız-gəlin görsə gərnəşir, deyirlər "piyandı görən"?
Nəsihəti qəbul etmir, söz buna ziyandı görən?!
Gedib çölə mürgü vurur, diksinir: hayandı görən;
Yuyunmaz, çimməz heç zaman bu bitli-birəli çoban.

Bir putdur əlinin kiri, gözlərini zığ tutubdu;
Xartaxartla hey qaşınır, guya özün tox tutubdu.
Zərnişan bunun boyuna üççə arşın ağ tutubdu;
Bəhsi düşübdü ellərə, sədası ayaq tutubdu.
Bu sözümdən sonra barı olacaq pirəli çoban?!

# USTA MƏCİD

1927-ci ildə Ağbabanın Təzə İbiş kəndində dünyaya gəlmişdi. Kəndin varlılarından sayılan Məşədi Qurbanın nəvəsi, Əhmədin oğlu idi. 1937-ci ilin tutatutu Əhməddən də yan keçmədi. Məşədi Qurbanın üç oğlunu (Tağı, Nağı, Əhməd) tutub Gümrüyə, Qara qalaya apardılar. Onları "sinfi düşmən" adı ilə güllələdilər. Əhmədin böyük qardaşı Səmədə toxunmadılar, çünki xəstə idi.

Məcid kənddə açılan ibtidai məktəbdə ancaq dördüncü sinfə qədər oxuya bildi. Kəndin ilk müəllimi Oruc müəllim (əslən İrəvan şəhərindən gəlmişdi. O, kənddə Nazlı adlı bir qadınla evlənmişdi, iki qızı vardı. Müharibəyə gedib qayıtmadı) həmişə onu tərifləyirdi. "Məcid, səndən böyük adam olacaq, oxumağına davam et".

Məcid atası tutulanda on yaşında idi. O əvvəlcə Bağırın yanında, daha sonra Yetim Əskərin yanında dəmirçi şəyirdi oldu. Yetim Əskər həm də təbli el şairi və sinədəftər olduğundan Məcid ustasından saza-sözə vurğunluğu da əxz etdi, onunla bərabər on-on beş il kənddə aşıqlıq edib məclis qurdular, yığnaqlar keçirdilər.

Usta Məcid təkcə Təzə İbiş kəndində deyil, bütün Ağbabada tanındı. O, Aşıq İsgəndər Ağbabalı, Aşıq Qənbər kimi ustad aşıqlarla əlaqə saxlayır, dostluq edirdi. Buna görə də onların ədəbi irsinə yaxından bələddi. Usta özü də təbli adamdı. Təəssüflər ki, ondan çox az folklor örnəkləri toplayıb yazıya almışıq. Usta Məcid 1988-ci ilin məlum hadisələri ilə bağlı Azərbaycana, Qaradağın Sahil qəsəbəsinə pənah gətirdi. Burada 1994-cü ildə vəfat etdi.

# BAYATILAR

Eləmi sən gədəsən,
Olmaya kölgədəsən.
Bu dərd fələkdən gəlib,
Nə mən gülləm, nə də sən.

Xəyal qanadım olar,
Qaçağan atım olar.
Dərd çəkənlər içində
Mənim də adım olar.

Dərdi çəkdim, qədd əydi,
Ürəyimə bəd dəydi.
Neynim, gülə bilmədim,
Yetimliyim kətdəydi.

Dağda tonqal qaladım,
Od qayanı yaladı.
Kimim var ki, söz deyəm,
Qəmi qəmə caladım.

Sözü qanana denən,
Dərddən yanana denən.
Dərd görməyən nə bilsin,
Onu qanana denən.

Verən qara bəxt verdi,
Nə bir xoş gün, vaxt verdi.
Bilmirəm suçum nədi,
Fələk qəmnən taxt verdi.

# QOŞMALAR

## GÖRÜNDÜ

O ötən illərin uzaq olsa da,
Xəyalı gözümdə yaxın göründü.
Şirin xatirələr dilə gəldi ki,
Qəlbimdən dilimə axın göründü.

Uşaqlıq çağımı yadıma saldım,
Dərddən atəş aldım, dərddən od aldım.
Tənhalıq əlində naümid qaldım,
Yetimlik dirçəldi, baxın-göründü.

Ay Məcid, kişisən, mərdsən, döz buna,
Özünü, taleyi, bəxti az qına.
Onsuz da dalmısan qəm dəryasına,
Sinənin üstündə dağın göründü.

## GÖRÜNDÜ

Ürək yaz istədi, bahar istədi,
Gözümə dağların qarı göründü.
Xəyal damağıma ayrı dad verdi,
Yarı duman kimi, yarı göründü.

Axtardım, aradım ötən günləri,
Nə vaxt itirmişəm, yoxmuş xəbərim.
Nə qədər çox imiş dərd ilə sərim!
Könlümün, zənginmiş varı – göründü.

Atasız yaşamaq çox çətin işdi,
Demə Usta Məcid bir bağrı daşdı.
Fələk zülm eylədi, həddini aşdı,
Əzabı, bəlası, karı göründü.

# AŞIQ RƏVAYƏTLƏRİ

# AŞIQ QƏNBƏRİN BİR ƏHVALATI

Bir gün damda işdiyirdim. Bir də baxdım ki, Aşıx Qənbər şıldırımşırp girdi içəri. Elə bil mana dünyanı verdilər. Dedim:

– Ay sana Allah uzun ömür versin, Aşıx Qənbər, sən nə yaxşı gəldin.

Dedi:

– Usda, sən özün də aşıx adamsan... Təzə bir dasdana oxşar bir nağıl düzəltmişəm. Sana bunu danışacam.

Dedim:

– Bir qabaxcax isdi xörəh-zad hazır olsun, sonra...

Dedi:

– Ay usda, o da olacax. Əmə indi sən mana qulax as.

Bu sözə başdamax isdiyəndə Qara dayın içəri girdi.

– Ay əmoğlu, bə mana niyə demirsən Aşıx Qənbər gəlif. Mən onda gedif bir heyvan kəsdirim. Sən də ona kimi bir-iki çolpa-beçədən kəsdir, isdi xörəh bişitdir. Mən də bir əvə dəyif qayıdım.

Qara dayın, doğurdan da, getdiyinnən qayıtdığı bir oldu. Ona kimi Aşıx Qənbər sazını sinəsinə basıf bir az dınqılladannan sonra vurdu qoltuğuna, başdadı ortada dolanmağa:

– Getmişdim yuxarı Ağbaba kətdərinə. Bu kətdərdən birində işim olduğuna görə birinə qonağ oldum. İnsafən mana yaxşı hörmət elədilər. Əmə gördüm kişi yerə baxır, arvat da ona baxıf başını buluyur. Axırda əvin kişisi bir arvadına, bir də mana baxıf dedi:

– Qonax qardaş, heç əməlli tanış da olmadıx. Sən nəçisən, hansı kətdənsən?

Baxdım əyə, canın hakqı, bu məni heç tanımadı. Daha mən də üsdünü vurmadım. Yanı nə aşıx paltarımı geymişdim, nə də sazımı götümüşdüm. Odu ki dedim:

– İlannıdanam, çobanam, kəndin qoyununa gedirəm.

Dedi:

– Heç mal-heyvan satıf eliyifsənmi?

Dedim:

– Vallah, mən qoyun saxlıyıram. Mal o qədir saxlamıram. Yanı tüşəndə bir-iki can qoç, quzu satıram.

Dedi:

– Yaxşı.

Baxdım əyə bu sözdü adama oxşuyur, əmə... Dedim onda səbir eliyim, indi elə bu sahat içini tökəcəh. Doğurdan da, belə oldu. Kişi dedi:

– Bax, a çoban qardaş, mənim bir yaxşı ala cöngəm varıydı. Vallah, çox gümrah heyvanıydı. Qonşu kətdən biri buna müşdəri çıxdı. Cöngüyü dörd yüz manata buna verdim. Əmə ürəyimdə nəsə qaldı. Öz özümə dedim ki, əyə, bu ucuz olmadımı.Bir də geri qayıdıf pulunu dala qaytarıf cöngüyü alıf saldım qabağıma. Getdim əvə. Bax bu arvat bunu görəndə başdadı məni dannamağa:

– A kişi, utanmırsanmı, verdiyin sözü geri götürürsən.

Dedim:

– Sən arvatsan, kişi işinə qarışma.

Əmə ürəyimdə bu arvada hak verdim. Dedim əyə mən səf eləmişəm. Bir-iki gün keçənnən sonra cöngiyi aparıf verdim əlinnən aldığım adama, pulunu aldım. Qayıtdım geri. Genə axlıma boş-boş şeylər gəldi. Dedim:

– Yox, genə mən uduzdum. Hələ sən dünyanın işinə bax ki, öz əyağımnan öz malımı su qıymatına satdım.Yox əşi, məndə heç axıl-zad yoxdu.

Sən demə, bizim bu arvat anardan mana göz qoyurmuş. Dedi:

– A kişi, sən özünü yüngülsakqal eləmə. Ayıfdi, görən-bilən sana nə deyər?! Belə alış-verişmi olar?!

Mən genə arvadı alazdadım:

– Arvatsan, arvat yerində otu. Mən özüm neynədiyimi yaxşı bilirəm.

Həyə, genə gedif cöngənin pulunu verif onu geri gətdim. Xüləs, bu əhvalat bir neçə dəfə davam elədi. Yanı gah heyvanı geri aldım, gah da onu aparıf pulunu aldım. Bu yazıx arvat ha mana nəsiyət elədi, əmə mən bu arvadı heç eşitmədim. Bilirsən bu işin  axırı nə oldu?!

Dedim:

– Nə oldu?

Bir də peşman oluf həmən kişinin əvinə gedəndə kişi məni pəyiyə aparıf  dedi:

– Əyər cöngüyü apara bilirsən apar, apara bilmirsənsə qoy pul səndə qalsın.

Dedim Allah, Allah, bu zalım oğlu nə deyir?! Toba əyər bunun dediyinnən bir şey qandımsa. İçəri girdim nə?! A başına dönüm, cöngənin başı bir yanda, cəmdəyi bir yanda.

Dedim:

– Əyə, bu nə deməhdi?!

Dedi:

– Vallah, sənin bu gedif-gəlməyin məni də cana gətdi. Belə elədim ki, sənin də, elə mənim də canım qurtulsun. İndi sən bilərsən, isdiyirsən cöngüyü apar, isdiyirsən...

Mən kor-peşman, əli ətəyinnən uzun ordan geri qayıtmax isdiyəndə əv sahabı dedi:

– Gəlifsən, gəlifsən.Barı bu cöngənin ətinnən də bir qarın yeyif get.

Hersimnən ona cavaf verməsəm də ordan düz yola tüşdüm. Bir də baxdım ahan gəlif əvə çatmışam. Genə bu arvat saldı məni çənəsinin altına. Bax indi genə o məsəliyi deyirdi arvat. Deyir, desin da. Bir səfdi oldu.

Elə bu söhbətini kutaran kimi içəri uzun, əmə arıx bir kişi girdi. Baxdım bunun üz-gözünnən şeytannıx yağır. Bu mənnən görüşüf bir tərəfdə əyləşdi. Mənim çoban olduğumu bilәndə tişdərini ağartdı:

– Mən çoban-zad olmamışam. Həmməşə ferma müdürü-zad işdəmişəm. Yanı heç olmasa dördüncü sinifi bitirmişəm.

Dedim:

– Mən heç məhtəv üzü görməmişəm.

Dedi:

– Bə sən heç uzağa-zada getmiyifsənmi?

Dedim:

– Yox, çoban adamam, kətdən qırağa çıxmamışam.

Dedi:

– Belə de. Onda mən bir söhbət eliyim, sən də qulax as.

Dedim:

– Buyur.

Dedi:

– Mənim atam bir dəfə gedif Gürcüsdana. Boççalıdınədi, bax orya. Nə bilim, vallah, deyillər o yerin torpağı çox verimlidi. Sözüm onda dəyil, burda atam birinə qonağ olur. Buna yaxşı hörmət eliyillər. Qabağına da xeylax mer-

meyva qoyullar. Baxır əyə qavda üzüm də qoyuflar, əmə bu heç belə üzüm görmüyüf. Həm bunun salxımı iridi, həm də bu par-par yanır, özü də yetmiş iki irəh çalır. Deyir Allah, Allah, Allah, bu möcüzədi nədi. Yaqin bu cənnət meyvasıdı. Elə bunnan bircə gilə götürüf ağzına qoyur... Baxır elə şirindi, daha demə. Elə onun dalıncax dalbadal düz on isdikan çay içir. Çay içir ki, bunun ürəyinin yanğısı keçir.

Bu kişi söhbətini kutarıf mana baxanda başımı tərpətdiyimi görüf acıxlanan kimi oldu. Dedi:

– Ay qonax qardaş, sən başını niyə qaryol atı kimi yırğalıyırsan?

Dedim:

– Başımı yırğalamıyım, neyniyim?! Yanı deyirəm gör mənim dünyada bilmədiyim nələr var.

Mən belə deyəndə deyəsən arıx kişinin kefi duruldu. Mən əv sahabına dedim:

– A qardaş, Allah sənin birini min eləsin. Bəyaxdan siz danışırsınız, mən də qulax asıram. Darıxdım, indi də, deyirəm, mən danışım, siz qulax asın.

Dedilər:

– Bə bəyaxdan sən heç danışmırsan, deməh, sən də danışmax isdiyirsən. Nolar, danış, görəh nə danışırsan?

Dedim:

– Sizin söhbətiniz məni də hala gətdi. Əmə mən əyax üsdə dolana-dolana danışacam.

Bu ona baxdı, o da buna baxdı. Dediyimnən bir şey annamasalar da razı oldular.

– Yaxşı, qoy sən deyən olsun, necə isdiyirsən elə də danış.

Dedim:

– Onda mana ya bir çombax, ya da bir yarmaça tapıf gətirin.

Baxdım bunnarın ikisi də qorxuya tüşdülər.

Dedim:

– Mən bu dedihlərimi dava-dalaş üçün isdəmirəm. Sinəmə basmaxdan ötürü isdiyirəm.

Mən belə deyəndə əv sahabı başını buladı:

– Ay sağ olasan səni, de ki, saz isdiyirəm. Onda belə eliyəh: uşağın birini yolluyum qonşuya. Onnarda bir köhnə saz var. Genə bu köhnə saz yarmaçadan-zaddan yaxşı olar.

Dedim:

– Yaxşı. Onda bu köhnə sazı gətirdin.

Dedi:

– Bə sən dedin çobanam. Sazı hancarı çalacan?

Dedim:

– Qardaş, sən heç darıxma, elə-belə dındılladacam.

Həyə, ona kimi köhnə sazı gətirif verdilər mana. Saza bir əl gəzdirdim. Gördüm köhdən tüşüf, bir-iki pərdəsi də yerində dəyil. Sazı bir az əlləşdirənnən sonra basdım bağrıma.

– Ay əv sahabı, xətirinə dəyməsin, qabaxcax sana bir-iki söz deyəcəm. Əmə isdiyirsən küs, isdiyirsən inci. Əmə deyəcəm sözümü.

Götürüf görəh burda nə dedim.

Pulun betər kəm oldu,
Yeri, a cöngəm, yeri.
Bu da mana qəm oldu,
Yeri, a cöngəm, yeri.

Satdım səni birinə,
Sanki quzu yerinə.
Betər tüşdüm dərinə,
Yeri, a cöngəm, yeri.

Peşman oluf qayıtdım,
Genə də səni tutdum.
Dərdi-qəmi unutdum,
Yeri, a cöngəm, yeri.

Gah gətirdim, gah aldım,
Qadanı cana saldım.
Hərdən boşaldım-doldum,
Yeri, a cöngəm, yeri.

Bu yollarda yoruldum,
Yəyax gəzif duruldum.
Yıxılmışdım, quruldum,
Yeri, a cöngəm, yeri.

Dünyanın işinə bax,
Kəsiflər mənnən qabax...
Dur yerinnən, yeri, qalx,
Yeri, a cöngəm, yeri.

Qənbər çözdü bu işi,
Dedi, dərd yemə, kişi.
Daha unut keçmişi,
Yeri, a cöngəm, yeri.

Söz tamama yetəndə əv sahabı yerinnən dih qalxdı:

– Deyirəm axı mən bu kişiyi hardasa görmüşəm. Başına dönüm, Aşıx Qənbər, nə isdiyirsən verim, bircə bu sözdəri bir də başqa yerrərdə oxuma.

Dedim:

– Hələ bunun dalı da var.

Kişi ölüsü ölmüş kimi başını aşağı saldı. Onda dedim:

– Yaxşı. Sənnən keçdim, əmə bu qonşuna da bir-iki sözüm var.

Mən belə deyəndə bu uzun, arıx kişi dəvihdi:

– Əyə, sən nə yaman adamsan, bəyaxdan deyirsən ki, yazı-pozu bilmirəm. Əmə sən aşıxsanmış ki!

Dedim:

– Görürsən da. Əmə sən isdiyirsən burdan geniyəsən, sənin də sözünü deyəcəm.

Dedi:

– Əvə gedif qayıdacam. Mənim Gürcüsdannan bir qonağım gəlif. Bu bir şayır adamdı, onu da götürüf geri – burya qayıdacam. Buna razısanmı?

Dedim:

– Razıyam.

O sahat arıx kişi eşiyə çıxdı. Bir az keşmədi ki, bir yaşdı kişiynən qayıtdi geri. Baxdım bu kişi də onu kimi şeytan adama oxşuyur.

Dedim:

– Buyur, sözünü de.

Kişi başını silkələdi:

– Yox, qabaxcax sən bu kişiyə nə deyəcən, de. Sonra mən sözə başdıyacam, görüm dalımcax gələ biləcənmi? Bacarmasan da lal-dinməz mal olarsan.

Dedim:
– Yaxşı. Mal kimdi məlum olacax.
İndi görəh burda götürüf nə dedim.

Üzümə bax, yetmiş iki rəngi var,
Həmi gözəl, həm alışar, həm yanar.
Arif olan bu söhbətdən nə qanar?
Yalan gördüm, beləsini görmədim.

Kim bilir ki, nəyin neçə rəngi var?
Yalançıda heç olarmı etibar?
Adam olan saxlamalı ar-abır,
Yalan gördüm, beləsini görmədim.

Yeddi olsa, on dörd olsa söz deməm,
Yirmi olsun, bir o qədər qəm yeməm.
İrəng olan belə artmaz, olar kəm,
Yalan gördüm, beləsini görmədim.

Aşıx Qənbər sözün deyər həmişə,
Adın çəhməm, tüşmə elə təşvişə.
Qanan kəslər heyrət edər bu işə,
Yalan gördüm, beləsini görmədim.

Söz tamam olan kimi baxdım arıx kişi qıfqırmızı qızarıf, laf pazı kimi. Götürüf görəh burda genə nə dedim.

İnsaf elə, düzgün danış, gəl girmə dalana, kişi,
Mərd olannar mərd dayanar, heç getməz talana, kişi.

Əyri getməz, haram yeməz ümidin haqqa bağlıyan,
Atdı atını minəcəh, yüyürmə palana, kişi.

Bir put bala bərabərmiş o üzümün bir giləsi,
Cənnətdən gələn meyvaymış, görünmüyüfdü beləsi.
Bu söhbətin yayılacax el-obaya ünü, bəsdi,
Adamlar heyrət edəcəh bir belə yalana, kişi.

Aşıx Qənbər haqq quludu, ona gizdin olan yoxdu;
Sənin belə yalanına onun ku sözdəri çoxdu;
Tənəsi ürəkdən gəlir, sanki nizə, qılınc, oxdu;
Əlbət ki, ucuz satmaram mətahım alana, kişi.

Söz tamama yetən kimi qoca kişi qalxıf keşdi qabağıma. İndi görəh o götürüf mana nə dedi, mən ona nə cavaf verdim.

**Aldı qoca kişi:**

Coşma, bir az asda getnən, birdən dara tüşərsən,
İlişərsən ac asdana, baxdı qara tüşərsən.
Can bədənnən tez ayrılar, kimsə yetməz havara,
Yazdı demə, kış qabaxda, boran-qara tüşərsən.

**Aldı Aşıx Qənbər:**

Çağıraram Yaradanı, heç vaxt dara tüşmərəm,
Mən özüm də ac asdanam, baxdı qara tüşmərəm.
Ömürümü verən verif, ehtiyac yox kimsiyə,
Mənim könlüm hər vaxt yazdı, boran-qara tüşmərəm.

**Aldı qoca kişi:**

Bu nə sözdü, öz sözümü sən özümə deyirsən?
Yedin, doydun, bəsdi daha, bir ucadan gəyirsən.
Yoxsa qorxdun, axlın getdi, gözdərini döyürsən,
Kor quyuya yaxınnaşıf betər paza tüşüfsən.

**Aldı Aşıx Qənbər:**

Sözün yoxdu, söhbətin yox, gəyirirsən, dur gəyir,
Səni kimi dara tüşən quzu kimi mələyir.
Haqqı görmür, kordu gözü, hərdən ağzını əyir;
Tanrının əziz quluyam, betər nara tüşmərəm.

**Aldı qoca kişi:**

Qoca çoban dünya görüf, sən də kəndi-kəsəyi,
Nə bilirsən məni kimi sözə olan bəzəyi;
Tüsdü versin, his eləsin, doldur peçə təzəyi;
Səni ataram yuxarı, para-para tüşərsən.

**Aldı Aşıx Qənbər:**

Dünya görən boş danışmaz, kənd-kəsəyi pisləməz,
Aşıx Qənbər səni kimi el-obanı səsləməz.
Təzəh peçi yaxşı yanar, tüsdülüyər, hisdəməz,
Zorun çatmaz, göydən yerə para-para tüşmərəm.

Söz tamama yetdi, baxdım bu arıx kişiynən qoca kişi bir-birinə göz-qaş eliyillər.Yanı bu ona deyir əyə, bu bulax

kimi qaynıyır.Bu da ona deyir ki, bə nə qayırax. Bu da deyir buna bir bağlama deyəcəm. Genə qoca kişi qabağa tüşdü.

O nədi ki, beş il keçər, altıdı?
Bir də baxdın gəldi çıxdı on beşə.
Həm geyinnən, həmi yenən-kutarmaz,
Mən mətələm, sən də mat qal bu işə.

**Aldı Aşıx Qənbər:**

O qoyundu, beş il keçər, altıdi,
Bir də baxdın gəldi çıxdı on beşə.
Pendiri var, qatığı var, yunu var,
Mən bilirəm – mat qalmaram bu işə.

**Aldı qoca kişi:**

Var olanın biri artar, biri yox,
Biri vardı, biri dövlət-işə bax.
Biri qaynar, biri isə qalacax,
Qismət olmaz dilənçiyə, yesirə.

**Aldı Aşıx Qənbər:**

Var olanın biri artar, biri yox,
Qızıl vardı, heyvan dövlət-işə bax.
Biri qaynar, biri isə qalacax,
Qismət olmaz dilənçiyə, yesirə.

**Aldı qoca kişi:**

Mən deyəni yaxşı tüşün, ay aşıx,
Çətin oldu sənin işin, ay aşıx.
Qoca çoban söz söylüyər qarışıx,
Səni salar əndişiyə, təsirə.

**Aldı Aşıx Qənbər:**

Sən deyəni mən düşündüm, ay çoban,
Get sürünü o dağlara yay, çoban.
Qənbər sana sözdən versin pay, çoban,
Salma özün əndişiyə, təsirə.

Söz tamama yetdi. Baxdım daha qoca kişinin söz dağarcığınnan söz kurtuluf. Dedim:

– A kişi, sözün varsa genə bir-ikisini de.

Dedi:

– Yox. Mənim sözüm kutardı.

Dedim:

– Onda mənim sözüm var. Elə ortalığa deyəcəm.

İndi görəh burda götürüf nə dedim.

O kimdi ki, şeytannıxda usdadı?
Qonşusunun toyuğunu kişdiyər.
Altdan-altdan arvadına göz vurar,
O da duruf onu-bunu daşdıyar.

Halal yeməz, haram yeyif şad olar,
Haram loxma şirin dadar, dad olar.
Yada deyil, qohuma da yad olar,
Müfdə tüşsə mədəsini aşdıyar.

Hər nə desəm azdı buna camahat,
Gecə gəzər, günüz olar irahat.
Adam dəyil, qıyamatdı, qıyamat,
Zəhmət çəhməz, əmə bol-bol tişdiyər.

Yeyər-içər, şükür etməz Allaha,
Xirtdəyəcən hər vaxt batar günaha.
Bu namərdin görən kimdi pənahı,
Bilə-bilə haya-küyə başdıyar.

Aşıx Qənbər nə deyirsə düz deyir,
Qulax asın, qızıl kimi söz deyir.
Zalım oğlu aşıxnan da saz dəyil,
İmansızdı, adamlığı boşduyar.

Söz tamam olan kimi qoca kişiynən arıx kişi bir-birinə baxanda dedim:

– Bunu bax bu arıx kişiyə deyirəm. Niyə? Bu, oğrudu. Qonşularda toyux-cücə qoymuyuf. Söz tüşəndə də deyir tülkü aparıf. Bə o tülkü bunun niyə toyux-cücəsinə dəymir. Bəlkə bunnan qohumluğu-zadı var? Qalanı da dediyim kimi... Söhsəm köhnə palanı, içinnən çox şey tökülər. Qaldın, a qoca kişi, sən... Əslin bizim Ağbabadandı. Gedif yalannan orda-burda mollalıx eliyirsən. Nə bilim, duva-zad yazırsan, arada bir söz deməyin də var.Əmə mən sənin yaşına görə sana ağır bir söz demədim, sən də inən belə yerini qan. Genə bunnar mat-mat bir mana, bir də dönüf özdərinə baxanda dedim:

– Mənim sizdə işim yoxdu. Əmə bu söhbət yaddan çıxmıyacax, yeri gələndə danışacam.

# MİSGİN TAĞININ SINIX SƏFƏRİ

Sınıxda Rzaqulu addı bir varrı-hallı kişi varıydı, əmə kişinin yaşı səhsəni deyirdi. Di gəl hələ canı suluydu. Burda da bir bic molla varıydı Qara adında.Bu molla kişiyi dilə tutdu ki, a kişi, sənin pulun var, varın-varıyyatın var. Bə deməzsənmi fian kətdə bir telli-tokqalı gəlin var, qızıl-qırmızı. Ərdən təzə boşanıf. Dodaxları bal, yanaxları al, gəl onu al, qadasını canına sal. Özü gözəl, yerişi gözəl, boyu-puxunu yaxşı. Daha nə isdiyirsən sən?!

Dedi:

– A molla, yanı bu olan işdimi? O gəlin mana gələrmi?

Dedi:

– Onu mən razı salaram. Həlbət ki, sən razı olsan...

Dedi:

– Əyə, mən buna dünənnən razıyam.

Ey bunnar mollaynan razılaşdılar. Molla gəldi gəlinin yanına. Dedi:

– Belə, belə... Fursatı əldən vermə, qoy toy eliyif bu səni alsın. Qoca kişidi, əlinnən nə gələcəh. Sən gecəynən əvdən qızıl-gümüş götürüf, bir də bir at götürüf aradan çıx. Mən də başımın çarasını qılacam. Bir də mən o köy-dən dəyiləm ki. Bu kişi mənim heç yerimi-yurdumu da dü-rüst bilmir.

Gəlin dedi:

– Sağ ol, molla əmi.

Molla dedi:

– Quru sağ ola bir şey tüşmür. Bəri elə görüm mana nə qədir qızıl verirsən?

Həyə, bu molluya xeylax qızıl verdi. Molla gəlif Rzaquludan da xeylax qızıl alıf getdi. Nolacax, razılaşdılar. Toy başdandı. Toyun axşamı təzə gəlin əlinə keçənnəri götürüf yoxa çıxdı. Rzaqulu kişi də qaldı yana-yana. Bunun da üç oğlu varıydı. Qasım,Yasın, Hasan.Dedilər biz bu işə razı dəyildih,əmə sən bizi eşitmədin. İndi də belə oldu.Əmə şükür genə mal-heyvanımız var, pulumuz var, torpaxlarımız var. Olan oldu, torba doldu. Əmə elin ağzı çuval dəyil ki bağlana. Biri belə dedi, o biri elə dedi.

Həyə, elə bu arada Misgin Tağı da gəlif burya çıxdı. Elə kətdə bu, Rzaqulu kişiyə rasd oldu. Dedi:

– A kişi, kefin niyə yoxdu?

Dedi:

– Sənin mənnən işin olmasın.

Dedi:

– Qoy sən deyən olsun, əmə mənim sana bir neçə kəlmə sözüm var, bunu deyəcəm.

Bu belə deyəndə Rzaqulu kişi dedi:

– Onda gəl gedəh bizə, nə deyirsən elə əvdə de.

Dedi:

– Yaxşı.

Bunnar gəldilər Rzaqulu kişinin əvinə. O sahat heyvan kəsildi, ocax yandı, onun üsdünə də qazan asıldı. Sifdə bir-iki beçə kəsildi. Yanı o yeməh surfuya gələnə qədər də heyvanın əti yaxşıca pişdi. Bozartma, kavaf hazır oldu. Dedilər gənə nə qədir olsa da Misgin Tağı xeylax yol gəlif, acıxıf, yoruluf-filan. Həyə, bunnar bir az Allah verənnən yeyif-içənnən sonra Misgin Tağı indi görəh burda götürüf Rzaqulu kişiyə nə dedi.

Adın Rzaqulu, yaşın keçifdi,
Adam eşqə tüşər bu vədəsində?!
Bu fəndi başına şeytan açıfdı,
Adam eşqə tüşər bu vədəsində?!

Sən cavan olarsan bu sakqal ilə?!
Bir az düzgün dolan əhli-hal ilə.
Kim növcavan oldu dövlət-var ilə?!
Adam eşqə tüşər bu vədəsində?!

"Gəlin" qaçıb getdi, xar oldun eldə,
Söhbətin dolanır dodaqda, dildə.
Unudulmaz bu iş keçsə yuz il də.
Adam eşqə tüşər bu vədəsində?!

Misgin Tağı deyər, köç buralardan,
Əl çəkmə imandan, qeyrətdən, ardan.
İnnən belə sana yar olar hardan,
Adam eşqə tüşər bu vədəsində?!

Söz tamama yetdi, əv sahabı şapbıltıynan əlini dizinə vurdu:

– Mən nə bilim belə olacax?! Allah Molla Qaranın əvini yıxsın, bu işi elə o elədi.

Misgin Tağı dedi:

– A kişi, qulax as, bir söz də deyim.

İndi görəh Misgin Tağı genə götürüf burda nə dedi:

Sən niyə eşitdin Molla Qarıyı,
Qeyrat unuduldu, ar unuduldu.

Müxənnət gözünü elə boyadı,
Tikan unuduldu, xar unuduldu.

Sən xəbər tutmadın, quruldu tələ,
Molla qızıl-gümüş keçirdi ələ.
Balaxdı, indilər döndü bir kələ,
Hər şeyin axırı var, unudulmadı.

Necə danışmasın bu Misgin Tağı,
Sənə kələh gəldi elin axmağı.
Müxənnətin betər canı yaxmağı,
Hər şeydən danışdıx, "yar" unuduldu.

Söz tamama yetdi. Əv sahabı dedi:
– Bə sən bu işə nə deyirsən?
Dedi:
– Qulağ as, mənim genə sana bir neçə sözüm var.
İndi görəh bu burda genə götürüf nə dedi:

Tüş yolun ağzına, köç elə, durma,
Daha buralardan geni, vədəndi.
Əzrayıl peşinnən dolanır sənin,
Sanma dövran dönür, yeni vədəndi.

Başını daşlara vurma boş yerə,
Əcəl yaman yerdə keçirib girə.
Ötən günlərini kim geri verə?!
Köçməyin də gəldi günü-vədəndi.

Var nəyə lazımdı Misgin Tağıya,
Olmuya dönəcəh bu da ağıya?!

Ürəyi isdiyir, gərəh oxuya,
Yayılsın sədası-ünü, vədəndi.

Söz tamama yetdi. Əv sahabı dedi:

– Ay Misgin Tağı, şükür Allaha, varım-dövlətim az dəyil. Üç oğlum var. Bunnarın arasında varımı necə bölüm?

Dedi:

– Qoy sana bir söz də deyim, sonra...

İndi görəh burda bu götürüf nə dedi buna:

Axıl xəzinədi, xəşdə kutarmaz,
Var-pul vəfasızdı, ona güvənmə.
Sürü də, naxır da, ilxı da heç nə,
Qızıla-gümüşə, dona güvənmə.

Nə torpax, nə saray-mülk verməz ki sağlıx,
Nə səsdə adama bir üzüağlıx.
Qocaya nə gərəh baxçalıx, bağlıx,
Əvvəl ötüf keçif, sona güvənmə.

Dünya yola salır hər gələn kəsi,
Çoxu Tağı kimi köçə tələsi.
Bu var-pula həvəs şeytan həvəsi,
Qalmaz xeyri-bəhri sana, güvənmə.

Söz tamama yetdi, ona kimi kişinin oğlannarı da Misgin Tağının başına toflaşanda əv sahabı dedi:

– İndi oku belə oldu, var-dövləti də bunnarın arasında sən böl.

Dedi:

– Yaxşı. Bunu özüm bildiyim kimi bölüm, yoxsa Allah bölən kimi?

Dedi:

– Allah bölən kimi.

Dedi:

– Yaxşı. Qasıma bir at tüşür... Bir də o atın üsdündəki, yanı yəhərin qaşına bağlanan dolu xurcun da onundu. Sən də onun yanında qalarsan. Pütün sürü, naxır-filan Yasına çatır. Əmə torpaxların da yarsı onundu. Qaldı Hasan. Ona da o qalan torpağın yarsı tüşür.

Bu belə deyəndə əv sahabı da, qardaşdar da narazı qaldılar ki, bu hancarı bölgü oldu. Misgin Tağı dedi:

– Mən neyniyim, Allah belə vermiyifmi?! Verif. Bax o qədir axıldan yünül, dəli adam var ki, Allah belələrinə bəs deyincəh var-dövlət verif. Əmə belələrinə bir qırıx axıl vermiyif. Əmə adam var kasıfdı, əmə ona da Allah axıl verif. Baxın, Qasım çox axıllıdı, ona elə bu atın xurcunundakı pul bəs eliyər. Niyə? Genə axlıynan var-dövlət sahabı olacax. Əmə Yasın dəli-doludu. Buna nə qədir pul-para versən yox eliyəcəh. Çünkü sabahı tüşünəmmir. Odu ki, buna bu qədir şey ayırdım. Qaldı Hasan. Hasan yaxşı rəşbərdi. Odu ki, bu da çətinnih çəhmiyəcəh. Əmə genə mənim dənçiyim doluf, bir söz deyəcəm.

Götürüf görəh burda nə dedi:

Allah paylıyanda varı-dövləti,
Axmağa, sarsağa az vermiyifdi.
Gədiyə-güdüyə bir qırıx axıl,
Qanana dərt verif, yaz vermiyifdi.

Belədi bu işdər, dözəsən gərəh,
Gərəhdi haqq ilə döyünə ürəh.
Ağa-bəy tanımaz heç qazma-kürəh,
Xudam kasıflara naz vermiyifdi.

Fələh ümidini çoxdan qırsa da,
Namərdin əlinə fürsət versə də.
Yolunda qalalar, bəndlər qursa da,
Tağının əlinə saz vermiyifdi.

Söz tamama yetdi. Rzaqulu kişi ona da, yanı Misgin Tağıya da nəmər verif, onun dediyi kimi var-dövlətini bölüf oğlannarına payladı. Özü də köçüf Qarsın içərilərinə getdi. Onnarın sonralar başdarına nə gəldi – heç kəs bilmədi. Əmə bu əhvalat o zamannan dildən-dilə tüşdü.

## GÖLƏLİ İRBAHAMIN MUSTUXLU SƏFƏRİ

Göləli İrbahamın musduxlulu Əşrəf ağaynan yaxın dosduğu varıydı. Əmə bu ara bunun işi də heç düz getmirdi. Yanı qoyunnarını canavar qırmış, iki inəh, üç camışını da oğurramışdılar. Ey kasıflığı da Allah kəssin, kəsmişdi bu beçrarnın başının üsdünü. Yanı bunun elə çox yaşı da yoxuydu, cavan adamıydı. Bu elə tüşünə-tüşünə atını sürürdü. Bir də baxdı ahan gəlif çatıf Mustuxlu bulağın başına. Əmə bir boylu-puxunnu gəlin də cınqırrarını suynan dolduruf qantarı qaldırıf çiyninə gedir. Əmə axrası buna tərəfdi deyin, üzü görünmür. Di gəl zalım qızı elə sallanır, elə sallanır, daha demə. Bu dedi, əyə nə təhər olar, şayır olasan, əmə bu gəlinə bir söz demiyəsən? Yox, belə olmaz, sözümü

deyəcəm. Odu ki, görəh burda Göləli İrbaham götürüf nə dedi:

Sallana-sallana gəldin bulağa,
Dəyişdi məndəki hal, gedən gəlin.
Şahmar hörühlərin döyür topuğu,
Bu küsgün könlümü al, gedən gəlin.

Sana çox yaraşır bu boy, bu puxun,
Bir üzün görsədif gəlsənə yaxın.
Üzümə baxmırsan, ölürəm axı,
Saldın ürəyimə xal, gedən gəlin.

Niyə dillənmirsən, səs eləmirsən,
Niyə bu "lallığa" pəs eləmirsən?
Bu gözəl yerrərdən bəs eləmirsən,
Mən hələ deyiləm çal, gedən gəlin.

Göləli İrbaham bilir işini,
Acığın tutmasın, çatma qaşını.
Əsilsən, bilirəm, tərpət başını,
Demirəm yanımda qal, gedən gəlin.

Söz tamama yetdi, əmə daşdan səs çıxdısa, gəlinnən də səs çıxdı. Ona kimi anardan bir əli tapançasında, bir əli xançalında bir nər kimi kişi göründü. O ucadan gəlinə səsdəndi:

– A qız, dur, getmə.

O sahat gəlin dayandı. Kişi Göləli İrbahama dedi:

– Sən bunu təriflədin, əmə sən bunun üzünü görmədin axı.

Bu genə gəlinə çığırdı:

– Geri dön, aşıx sənin gözəlliyini görsün, bəlkə genə bir söz dedi.

Gəlin geri döndü. Baxdı nə?! Çənəsi uzun, üzü çilli, burnu yekə, gözünün biri aya baxır, biri çaya. Özü də qaf-qara camış kimi.

Dedi:

– Allah, sana qurban olum, bə buna bu boy-puxunu niyə verifsən?!

Həyə, indi görəh burda Göləli İrbaham götürüf buna nə dedi:

Hayıf boy-puxuna, bu hörühlərə,
Necə çirkinsənmiş, ay gedən gəlin.
Üzünü görməmiş sözümü dedim,
Sandım bir mələhsən, ay gedən gəlin.

Axıl alan dəyil bu qaşın-gözün,
Burnun betər əyri, çillidi üzün.
Bilmirəm acıdı, şirindi sözün,
Eylədin sözümü zay, gedən gəlin.

Dedim ki, gözəlsən, səf eləmişəm,
Ərinmiş yağımı kəf eləmişəm.
Sanma bu halımla kef eləmişəm,
Olmuşam axmağa tay, gedən gəlin.

Hamı səf eliyir, mən də elədim,
Başıma torpağı, külü ələdim.
Yersiz gözəlliyə səni bələdim,
Töhmətin də oldu pay, gedən gəlin.

Göləli İrbaham gəldi bu yerə,
Durum belə oldu: batdım qan-tərə.
Şəninə tərifi alma nəzərə,
Bunu axmaxlıxdan say, gedən gəlin.

Söz tamama yetənnən sonra kişi genə gəlini səsdədi:

– İndi radd oluf gedə bilərsən.

Gəlin gedənnən sonra həmən adam Göləli İrbahamı yanına çağırdı, dedi:

– Bax, bu köpəh qızı mana da beləcə rasd gəldi bulax başında. Götürüf qaşdım, işi başa tüşəndə gejdi. Özümə sığışdıra bilmədim, arvad oldu. Əmə sən demə, bunun dili bir qarışmış. Deməh, çirkinin dili də zəhər olurmuş. Odu ki, gedif bir başqa qız da aldım. Uşaxlarım da onnan oldu. Bu da əvdə-zadda hərrənir. Mən özüm Sağamoydanam. İndi sən də yanıldın, əmə eybi yoxdu.

Kişi buna xeylax qızıl verəndə Göləli İrbaham almax isdəmiyəndə, o zornan verdi:

– Aşığa, şayıra həmməşə nəmər verəllər. Həm də sən mənim çirkin arvadıma bir yox, iki söz dedin. Bə sən heç demədin burya nəyə gəlifsən. Mən də Seldağlana gəlmişdim, Dahar ağa çağırtdırmışdı. Ordan da Əşrəf ağa çağıtdırdı, burya gəldim.

Göləli İrbaham da Əşrəf ağaynan dosd olduğunu dedi. Bunnar barabar getdilər ağanın əvinə. Əşrəf ağa qonaxlarına yaxşı hörmət elədi.

## DONDARNAN AŞIX QƏNBƏRİN DEYİŞMƏSİ

Bir dəfə Aşıx Qənbər Axırkələyə gedir. Orda, Bağdanofqada, yanı köhnə Xocabəydə bir malağan dosduna qonağ olur. Ona kimi baxır bir yaşdı, sakqallı kişi də gəlif burya çıxdı. Əv sahabı bunu aşığa görsədif deyir:

– Bu kişinin adı Dondardı. Erməni olsa da, dönüf musurman oluf, dinini dəyişif. Namaz qılır, oruş tutur, Quranı əlinnən yerə qoymur.

Aşıx Qənbər deyir:

– Olsun, əmə mən ermənnərə heç vaxıt inanmamışam. Buna da inanmıram.

Bu belə deyəndə Dondar deyir:

– A kişi, sən mənnən çox cavansan, əmə baxıram sən aşıxsan. Odu ki, gəlsənə duruf qabax-qabağa bir-iki söz deyəh. Bu Allaha da xoş getsin, onun bəndəsinə də.

Aşıx Qənbər dedi:

– Əyə, ay erməni, yanı sən söz də deyə bilirsən?

Dedi:

– Sənin nə işin var, mən başdıyım, sən də gəl.

Dedi:

– Ay erməni, yanı sən özünə belə qərrahsan?!

Dedi:

– Mana erməni deyif durma, mən musurman olmuşam. Sən də mana erməni deyif kefimi qaçırırsan.

Odu ki, burda Dondar götürüf görəh Aşıx Qənbərə nə dedi, o buna nə cavaf verdi. Biz deyəh, sizin də canınız sağ olsun.

**Aldı Dondar:**

Sən bir aşıx, usdad adam, mən də qərif, sərgərdan,
Yıxıx könlüm durularmı olarmı heç abadan?
Atan atdı bəla ilə o isdicə yuvadan,
Türk deyəndə səvinirəm, canıma bir can gəlir.

**Aldı Aşıx Qənbər:**

Yalan demə, mən inanmam, gavurdan insan olmaz,
Cırıx torbaya ha pul töh, ağzına kimi dolmaz.
Namərd olan az bilirmi, odur irəngi solmaz,
Türk deyəndə od tutarsan, qabağına xon gəlməz.

**Aldı Dondar:**

Mən bir Allah quluyam ki, günahım çox, xeyrim az,
Öz-özünü el içində qərif etməh yaramaz.
Dərd görmüşəm mən də betər, demə yaran olar az,
"Van" deyəndə gözüm dolur, gözdərimnən qan gəlir.

**Aldı Aşıx Qənbər:**

Ermənidən Allah qulu görməmişəm mən hələ,
Nə deyirsən, danışırsan, olmasın hillə, tələ?
Amma bil ki, qotur dana neylər bir qara kələ,
Ermənin işi qandı, gözdərinnən qan gəlməz.

**Aldı Dondar:**

Bu Dondara belə baxma, gavır-mavır demə sən,
Bu qərivi az küsdürüf salma betər qəmə sən.
Ürəyimi qanatma sən, ürəh yaran qəməsən!?
Yaxşıları bir ansana, bəlkə həmən an gəlir.

**Aldı Aşıx Qənbər:**

Sən Qənbəri axmax bilmə, dalıf aləm sirrinə;
Bəlası yüz yerdən gəlsə, baş endirər birinə.
Gəl sən mənim başım qatıf salma belə dərinə;
Sənin ilə xoş danışmam, bu münasif an gəlməz.

Söz tamama yetən kimi genə Dondar başdadı:

Tərs damarın nə tutufdu, bir az insafa gəlsənə!
Sözüm eşit, biz dosd olax, qəlbimi açım gəl sənə.
Ürəyimdən nələr keçir, nə isdərəm bir bilsənə,
Qaşın-qabağın tutuluf, çatılmasın qaş, musurman.

**Aldı Aşıx Qənbər:**

Ermənidən dosd olarmı? – bunu yaxşı bilirsən,
Bilə-bilə amma genə üzərimə gəlirsən.
Əslin-nəslin nə məlumdu, paxırını silirsən;
Hər nə desən axlım almaz, söhbətin boş, erməni.

**Aldı Dondar:**

Bizimkilər ilandılar, mən bir musurman olmuşam,
Qurana meyil salmışam, betər hikmətə dolmuşam.
Adamlığa baş əymişəm, şirin xəyala dalmışam,
Huşum-başım yerindədi, vurma başa daş, musurman.

**Aldı Aşıx Qənbər:**

Ha yalvarsan, bir ilansan, məqamında çalacan,
Sənə lazım olannarı türk olannan alacan.
Qadasını-balasını həm canına salacan,
Şeytannığın göz önündə, sən ha alış, coş, erməni.

**Aldı Dondar:**

Dondar deyər, dərdim odu, sənin ilə qardaş olum,
Ürəyimi açım sana, yaxşı həmdəm, sirdaş olum,
Qardaş kimi bir dolanax, demirəm ki, mən baş olum,
"Həyə" deyif könlümü al, gəl tərpətmə baş, musurman.

**Aldı Aşıx Qənbər:**

Qənbər bilir dərdin nədi, uzax dolan sən gəl mənnən,
Get babını axdar, ara, gavır, götür əl mənnən;
Fələhdən başının daşı, töhməyə də kül mənnən;
"Dosduğumuz" işə yarar, belə olar xoş, erməni.

Söz tamama yetdi. Aşıx Qənbər dedi:

– Dondar, söznən dedim, mənnən sana dosd olmaz. Ermənnərin qaniçənniyini, zalımlığını bilə-bilə mən sənnən heç vaxıt dosd ola bilmərəm. Sən gəl mənnən incimə. Deyişdih, bəsdi. Gəl elə dərinnərə getmiyəh.

Beləcə Aşıx Qənbər Dondarın dosduğunu qəbul eləmədi.

# ÖTƏN GÜNƏ GÜN ÇATMAZ

# YADIMDA-YADDAŞIMDA QALANLAR

## NƏNƏM XƏSTƏ ZƏRNİŞAN

Nənəm ailəmizdə, qohum-əqraba, eləcə də kənddə adamlar arasında böyük hörmət və nüfuz sahibi idi. Yazı-pozu bilməyən bu qadın özünün xoş münasibəti, şirin danışığı, boy-buxunu, şəxsiyyəti ilə könülləri fəth etmiş, hər kəsin rəğbətini qazanmışdı. Böyük hikmət sahibi idi. Üstəlik, kəramət verilənlərdəndi. Yəni əlləri şəfalı, hər şeyi öncədən biləndi. Şairliyi də öz yerində. Həmişə mənə deyərdi:

– Başının bəlalı olmasına baxma, dərddən-sərdən qorxma. Allahdan köməyin var. Bircə səbr eləsən, nə istəsən düzələr. Nə qədər ki, tamahına qul olmayıbsan, demək, Allahın qulusan. Allah da qulunu sahibsiz qoymaz.

Nə qədər ki, uşaqdım, bu sözlərə o qədər də əhəmiyyət verməzdim, amma yaşa dolduqca nənəmin kəramət sahibi olduğunu anlamağa başladım. Eyni zamanda adamların ona necə hörmət və rəğbətlə yanaşdıqlarını anladım. Buna görə də onun dediklərinə, nəsihətlərinə qulaq asır, sinədəftərliyindən də çalışırdım... Dərdi böyükdü. Bir qardaşı gənc yaşlarında öldürülmüş, böyük bacısı ondan ayrı düşmüşdü. Dəhşətli 37-nin tutatutu ondan da yan keçməmişdi. Babam Əhməd ağanı iki qardaşı ilə bərabər "sinfi düşmən" kimi tutub Gümrüyə, Qara qalaya aparıb güllələmişdilər. Nənəm üç az yaşlı uşaqla bir qaradamın altında tək qalmışdı. Nənəmin dediyi kimi, bu, Allahın almışlığı yox, qədərdi. Qədərdə nə varsa, o başa gəlir.

Sonralar xalam da cavan yaşında vəfat etdi. Nənəmin dərdinin üstə bir dərd də yükləndi. Dalınca da didərginlik... Nəhayət, səksən yaşında dünyasını dəyişdi. Ondan toplayıb yazıya aldığım şeirlər, xeyli folklor örnəkləri qaldı. Düşünürəm ki, nənəmlə bağlı xatirələri də işləyim. Bu kəramət yiyəsi, xeyirxah, sinədəftər ağbirçəyi bir də yada salıb qələmi götürdüm.

## AĞSAQQAL VƏLİ

Nənəmin atasıdır, el arasında böyük hörmət qazandığından ona ağsaqqal deyirdilər. Bu kişi təkcə Təzə İbişdə deyil, Ağbabada, Çıldırda, Qarsda, Ərdahanda, Axırkələkdə tanınmış din xadimi, böyük hikmət sahibi idi. O, kəndə pənah gətirən gözəllər gözəli Hüri ilə evlənmişdi. Onun bu evlilikdən bir qızı olmuşdu – Zərnişan. Sonralar Xəstə Zərnişan kimi tanınan nənəmdi, mənim ana nənəm. Ağsaqqal Vəlinin birinci arvadından üç oğlu (Hümmət, Əsəd, Həsən), bir qızı (Səkinə) vardı. Hüri xanımın da əvvəlki evliliyindən üç oğlu (Ayvaz, Rüstəm, İsa) və bir qızı (Tükəzban) vardı. Hürinin qızı ailəli idi, o, oğlanlarını özü ilə bərabər Təzə İbişə gətirmişdi. Ağsaqqal Vəli onun oğlanlarını da öz övladlarından ayırmamış, onlara dogma ata şəfqəti ilə baxmışdı. Buna görə də ailədə ögeylik məsələsi yada düşmədiyindən rahatlıq və səmimiyyət pozulmamışdı, qorunub saxlanmışdı. Sonralar bu gözəl münasibət ailənin övladları arasında da olduqca isti münasibət yaratmışdı.

Ailənin ən istəkli övladı nənəm Xəstə Zərnişan sayılırdı. Maraqlıdır ki, o, uşaqlığında ailənin son beşiyi kimi, yaşlılığında da nəslin-kökün ağbirçəyi kimi hörmət və

diqqət sahibi olmuşdu. Nənəm qardaş-bacılarını çox sevərdi. Tükəzban nənədən söz salınca qəhərlənərdi:

– Tükəz bacımla az görüşmüşəm... O o yanda, mən bu yanda... Bu dərd məni öldürməsə yaxşıdır.

Nənəmin xatirələri çoxdu. Çoxunu unutmuşam. Ancaq bəzilərini xatırlayıram.

## ƏSƏD BABA

Mən Əsəd babanı görməmişəm. Nənəm deyirdi ki, Əsəd baban evin böyük oğlu idi. Olduqca sakit bir adamdı. O, boylu-buxunlu, kəndin ən uzun adamlarından biri idi. Yəni Yekə Rzadan sonra ondan uca adam yoxdu. Yekə Rza uzun, heybətli kişi idi. Kişinin boyu da çox uca, bığları da çox uzundu. Bığlarını uzadıb boynunun dalından bağlamış, iki qatma vurmuşdu. Kişi çox halal adamdı, istənilən adamı izi ilə tapa bilirdi.

Əsəd baban boylu-buxunlu olduğu kimi, həm də çox iştahalı idi. Yemək yedikcə yeyər, sanki doymaq bilməzdi. Adətən, anam təndirə çörək yapan kimi Əsəd onun dizinin dibini kəsdirərdi:

– Ay ana, acından ölürəm, qoy isti-isti bir-iki çörək yeyim.

Mən də maraqla yüyürərdim təndirin başına. Anam bişmiş çörəkləri yanına yığınca qardaşım da əli-ağzı yana-yana iştaha ilə təndir çörəyi yeyərdi. O, bir neçə təndir çörəyi yeyəndən sonra anam ona acıqlanardı:

– Bəsdi, Əsəd, ağ eləmə. Sənin həyət-bacada işin yoxdumu? Bir işin dalınca getməyəcəksənmi?

Əsəd çox nəcib və əxlaqlı idi. Odur ki, anama mehribanlıqla cavab verərdi:

– Ay ana, betər fənikmişdim, xasiyyətimi bilirsən, mənim aclığa tabım yoxdu.

Əsəd anamdan qətiyyən inciyib eləməz, çıxıb gedərdi. Əsədin olduqca gözəl avazı vardı. Quran oxuyar, avazı ilə adamları heyran edərdi. O, dədəmdən çox şey öyrənib, götürmüşdü. Namaz qılar, oruc tutardı.

Heç yadımdan çıxmır, dədəm Əsədi evləndirəndə çox sevinmişdi:

– Çox şükür... Əsədin hər işi çətin olub. Ayağına çarıq, əyninə çuxa, arxalıq tapılmırdı. Yaxşı oldu...

Bir gün eşitdim ki, Əsədin oğlu olub, onda uşaqdım. Dərhal evə yüyürüb qundağı qucağıma alıb qaçdım eşiyə, sevindiyimdən bilmirdim neyləyim. Tükəzban yengəm birtəhər körpəni əlimdən aldı.

## HÜMMƏT BABA

Təzə İbişdə yaşayırdı, uzun müddət çoban işləmişdi. Nənəm kimi o da sinədəftərdi. Söhbətlərindən doymaq olmazdı. Bu arıq, orta boylu kişi kəndin Yuxarı məhəllə deyilən yerində, biz isə kəndin aşağısında, yəni Aşağı məhəllədə yaşayırdıq. Hümmət baba bizim evə tərəf gələndə də içəri gəlməz, elə qapıdan nənəmə səslənərdi:

– Zərnişan, bir bəri gəlsənə.

Nənəm o saat səsindən qardaşını tanıyıb eşiyə çıxar, bacı-qardaş bir-birini elə qucaqlayardılar ki, sanki bunlar neçə illərin həsrətliləridir. Yəni onların arasında bacı-qar-

daş münasibətləri çox isti idi. Fikir verirdim ki, Hümmət baba həmişə gələndə nənəmə pul verir, arada bir də deyir:

– Ay Zərnişan, axı mən səndən yaşlıyam. Sən heç olmasa həftədə bir dəfə bizə gəl. Söhbət eləyək, çörək yeyək.

– Yaxşı, yaxşı gələrəm.

Bəzən də Hümmət baba nəvələrindən birini bizə göndərərdi. Uşaq içəri girən kimi nənəmə deyərdi:

– Zərnişan nənə, babam səni çağırır.

– Yaxşı, sən get, mən də gəlirəm.

– Yox, gedə bilmərəm. Babam dedi ki, Zərnişan nənənlə bərabər gəl. Səndən qabaq getsəm babamın mənə acığı tutar.

Hümmət babanın evdə, ailədə də böyük hörməti vardı. Onun bir sözünü iki eləyən olmazdı, bir sözlə, əsl ağsaqqaldı.

Bəli, nənəm Hümmət babanın nəvəsi ilə Yuxarı məhəlləyə gedərdi. Anlayardım ki, nənəm azı bir həftə orda qalacaq. Bu müddət ərzində bacı-qardaş həm gəlib-keçəndən danışacaq, həm də ötənləri xatırlayacaqlar. Hümmət babanın xasiyyətinə bələddim. O, bacı-qardaşlarını çox sevərdi. Odur ki, nənəmi yanına çağıtdıranda mütləq Həsən babamı da yanına gətirdirdi. Bu müddət ərzində Hümmət baba xoruz, hinduşka, ya da quzu kəsdirir, yaxşı xörək bişitdirirdi. Həsən baba olduqca sadəlövh olduğundan arada bir şikayətlənərdi:

– Ahan bu Hümmət də məni burda saxlayır, mal-heyvan da orda qalıb... Onun yemini kim verəcək, altını kim kürüyəcək?

Hümmət baba da qardaşına belə qarşılıq verərdi:

– Mal-heyvan cəhənnəmə qırılsın. Evdə adammı yoxdu? Gəlinin, nəvələrin...

Bundan sonra Həsən babanın səsi çıxmazdı. Çünki Hümmət baba yaşca ondan böyükdü.

## RÜSTƏM BABA

Nənəmin qardaşlarından Rüstəm babanı da görməmişəm. Amma nənəmin dediklərindən onun xeyirxah, qeyrətli bir kişi olduğunu anlamışam. Nənəm deyirdi:

– Qardaşım İsanı tutdular. Bu da bir bəhanə idi, kimi kolxoz sədri qoysaydılar bir müddətdən sonra bir bəhanə ilə dolaşdırıb tutur, yerinə bir başqasını təyin edirdilər. Bu da Sovet hökumətinin bicliyi idi. Yeri gələndə də zəif iradəli adamlardan istifadə edir, onları günahsız adamların üzünə durmağa məcbur edirdilər. Sözüm onda yox, İsa babanla daha neçə nəfər tutuldu. Bu, neçə ocağın sönməsi, neçə-neçə uşağın yetim qalması, qadınların dul qalması deməkdi. Məlumdu, tutulanların çoxu geri qayıtmırdı.

Bəli, İsa baban tutulandan sonra Rüstəm baban vaxt itirmədən öz ailəsini də, İsa babanın ailəsini də Balakənə apardı. Gedib orda binə bərkitdi. Bilirdi ki, namərd ermənilər onun yaxasından yapışacaqlar, çünki Sovet hökuməti onlara xüsusi imtiyazlar verib, onları himayə edirdi. Üstəlik, müxtəlif vəzifələrdə də ermənilər təmsil olunurdular. Demək, nə qədər uzaqda olsa bir o qədər başı salamat olar. Amma Rüstəm baba Balakəndə də az əziyyət çəkmədi. Qardaşı qızlarına da öz övladları kimi baxdı, böyüdüb ərə verdi,ailə-uşaq sahibi elədi.

Həmişə olmasa da arada bir deyərdilər ki, Balakəndən xəbər var. Rüstəm baba nənəmi çağıtdırır. Nənəmin bu səfəri xeyli çəksə də o, qoz-fındıq kisələri ilə, hədiyyələrlə kəndə geri dönərdi. Rüstəm baba onun cibinə xərclik qoymağı da unutmazdı. Nənəm gətirdiyi qoz-fındığı qonşulara pay edər, heç kəsi yadından çıxarmazdı.

## HƏSƏN BABA

Həsən baba nənəmin kiçik qardaşı olsa da nənəmdən böyükdü. O da qardaşı  Hümmət baba kimi zəhmət adamı idi. O, sadəlövh və təvəkkülə bir adamdı. Nənəmin dediyinə görə Həsən baba cavanlığında bir qızı istəyirmiş, amma utancaqlığından bunu qıza bildirmədiyindən qızı bir başqa oğlan götürüb qaçır. Bu əhvalatı eşidəndə gənc Həsən özündən gedir, amma nə fayda. Bu yerdə atalarımız yaxşı deyiblər: "Daldan atılan daş topuğa dəyər".

Həsən baba zəhmətkeş adamdı, yaşlı vaxtlarında da evdə iş görər, mal-heyvana baxardı. Arada bir nənəm onu yanına çağıtdırardı:

– Ay Hasan, bir az da dincəlsənə. Gəl bir az danışaq. Biz bacı-qardaş deyilik?!

Həsən baba yeyib-içəndən sonra az keçməmiş narahat-narahat nənəmin üzünə baxardı:

– Ay Zərnişan, bəlkə mənə icazə verəsən, evdə işim var. Sən də Hümmət kimi məni nə tez-tez qonaqlayırsan. Sənin işin yox, gücün yox – boş adamsan.

Nənəm onu ha danlasa da Həsən baba inadından dönməz, evinə qayıdardı.

## NƏNƏMİN KƏRAMƏT SAHİBİ OLDUĞUNU GÖSTƏRƏN ƏHVALATLAR

Mən ali məktəbdə oxuyandan nənəm mənə deyərdi:

– Ay bala, oralarda (Azərbaycanı nəzərdə tutardı) bir yer tap, burdan köçüb gedək.

– Niyə, ay nənə?

– Mən bir şey bilirəm ki, deyirəm.

Mən həmişə kəndə Bakıdan qayıdanda münasib yer tapa bilmədiyimi deyəndə nənəm başını bulayardı:

– Qurban olum Allaha, demək, yol vermir.

Bu əhvalatdan nə qədər keçdi – yadımda qalmayıb. Bir onu xatırlayıram ki, bir gün nənəm dedi:

– Burdan gedəcəyik. Özü də köklü-kömədi...

– Ay nənə, sən nə danışırsan!

– Ay bala, mən Ağsaqqal Vəlinin qızıyam. Mən də dədəm kimi hər şeyi qabaqcadan bilirəm. Vaxtı gələndə dediyimin düz olduğunu görəcəksən.

1988-ci il yaddaşlarda növbəti erməni vəhşəti kimi qaldı. İmkanlı adamlar vaxtında-vədəsində Azərbaycanın müxtəlif yerlərində ev aldılar. Ailələrini də ora apardılar. Qəribədir, hələ də adamlar keçmiş Sovetlər Birliyinin sarsılmazlığına inanırdılar, Kremlə ümid bağlayırdılar. Adamların çoxu çaşıb qalmışdı. Onlar nə edəcəklərini bilmirdilər. Daha doğrusu, köçə hazır deyildilər. Buna hər şeydən öncə yaxşı pul lazımdı. Az-çox bir məbləğ əldə olunardı, yəni mal-qoyunu vaxtında satmaq məsələsi də ağla gəlmirdi. Bir sözlə, yol göstərən, ağsaqqallıq edənlər də yoxdu. Çox

adam çaşıb qalmışdı, nə edəcəyini bilmirdi. Fəlakət isə qapıda idi. Təcili kəndi tərk etmək lazımdı. Bir sözlə, düşmən bizi məhv etməklə bərabər, öncə var-dövlətdən də əl çəkməyə vadar edirdi – bunu ermənilərin adamları sıxışdırması, şəhərə gedənlərin döyülməsi, təhqir olunması da göstərir.

Belə neçə-neçə ailə bütün var-yoxunu itirdi. Çarəsizlikdən yeddi qoyunu quzuları ilə bərabər, bir az da ev əşyalarını götürmək qərarına gəldim. Baha qiymətə Gürcüstandan bir maşın tutdum. Əşyaları da, qoyun-quzunu da Daştəpəyə gətirdim. Kiçik qardaşım Xanların köməyi ilə heyvanları satdım. Burada çox qala bilməyib Azərbaycana, Bakı ətrafına, Sahil qəsəbəsinə yollandım. Həmkəndlilərimin bir hissəsi buradan ev almışdılar. Bir neçə ailə də bizim kimi ortada qalmışdı. Nəhayət, bizimlə maraqlanıb bizi rayonlara göndərmək istədiklərini bildirdilər. Dedilər sizi Qubaya aparırıq. Bunu eşidəndə nənəm razı oldu:

– Gedək, yaxşı olar.

– Ay nənə, orda neyləyəcəyik?

– Sən bir səbrli ol. Nə deyirəm, onu da elə.

Daha dillənmədim. Quba şəhərinə gəlib çatanda nənəm dedi:

– Bala, biz bu yaxında durub gözləyək, sən bir az irəli get. Orda bir “Villis” görəcəksən. İçində də bir silindrli kişi oturub. Bax, o, bizə bu yaxın yerdə bir güzaran yaradıb.

– Ay nənə, sən nə danışırsan!

– Bala, sən mən deyəni elə.

Mən ordan xeyli aralananda öncə məndən xeyli aralıda dayanan “Villis”i, daha sonra içində oturan gülərüz kişini görəndə çox təəccübləndim. Baxdım həmin şəxs maşından düşüb irəli gəldi, əlini mənə uzatdı:

– Xoş gəlmisiniz, mən bu zavodun direktoruyam, adım Məmməddi. Sizin ailə üçün burda bir isti otaq ayırmışam.

Dərhal Məmməd müəllimin adamları bizi deyilən yerə apardılar. Bizə verilən otaq, doğrudan da, isti idi. Onun içində bir neçə çarpayı, döşək, adyal vardı. Biz orda bir az dincələndən sonra isti xörək də gətirdilər. Məmməd müəllim dedi:

– Narahat olmayın, hər gün ərzaqla da təmin oluncaqsınız.

Beləcə bir az üzümüz güldü, ürəyimiz açıldı. Amma bilirdim ki, bu müvəqqətidir. Yəni mən mütləq ev almalıyam. Odur ki, Məmməd müəllimin yanina gəldim:

– Mənim Sizdən bir xahişim var. Bilirəm, bura zavodun ərazisidir, biz burada çox qala bilmərik. Amma mənə bir neçə ay vaxt verin, bu vaxt ərzində evimi dəyişim.

– Nə deyirəm, olsun. Sənədlərin hazır olanda mənə deyərsən.

Beləcə razılaşdıq. Mən geri – Ermənistana qayıtdım. Evin sənədlərini hazırlayıb Azərbaycana qayıtmaq da, sənədləri lazımi yerə aparıb təqdim etmək də, digər işlər də xeyli vaxt apardı. Nəhayət, bir erməni ilə dil tapıb evimi dəyişə bildim. Üstəlik, ona üç min pul da verdim. O, gedib mənim ordakı evimin də sahibi ola bilərdi. Evin orderini alan kimi Qubaya – Məmməd müəllimin yanına getdim. Sağ olsun, mənə ev əşyalarımı Sahil qəsəbəsinə gətirmək üçün bir maşın da ayırdı.

Qubada yaşadığımız bir neçə ay ərzində qubalılardan böyük hörmət və diqqət gördük. O yaxşı insanların xeyirxahlıqlarını, qonaqpərvərliklərini heç vaxt unutmamışıq.

Qubada nənəmin maraqlı möcüzələri də unudulmazdır. Fikirləşirəm ki, bu barədə söz açmasam bu xatirələr yarımçıq qalar, natamam görünər – mən belə düşünürəm.

Yadımdadır, Məmməd müəllimin zavodun həyətində ayırdığı otağa təzəcə yerləşəndən bir-iki gün keçəndən sonra nənəm mənə dedi:

– Bir taksi tut, məscidə gedək.

– Ora nəyə gedirik?

– Namaz qılacağam. Orda bir seyid qızı var, onunla da görüşəcəyəm.

Dərhal nənəmin dediyini yerinə yetirdim. Doğrudan da, nənəm orda namaz qıldı, sonra bir yaşlı qadının yanına getdi, ona vaxtilə mənə verilən Kərbala təsbehini verdi, nəsə dedi, qadın ağladı. Nənəm onunla sağollaşıb yanıma gəldi. Biz mənzilə çatanda nənəm dilləndi:

– Ay rəhmətliyin nəvəsi, nə yaxşı dillənmirsən?

– Nə deyim, ay nənə?! Fikirləşirəm ki, o məsciddə görüşdüyün qadın haqqında nəsə danışacaqsan.

Gülümsündü:

– O gördüyün yaşlı qadın kordu. Özü də seyid qızıdı. Bilirsən, ona nə dedim? Dedim ki, gəlib burda dilənmə. Bu, imanlı adama yaraşmaz. Öz təsbehimi də ona verdim – gördün. Dedim get evinə. Sənin nəzirini gətirib evində verəcəklər. Ona nəzir də verdim.

– Yaxşı eləmisən, amma...

– Nə amma?

– Ay nənə, mən indi sənə bəyəndiyin təsbehi hardan alacağam?

Yenə gülümsündü:

– Sən niyə qorxursan ki?! O da gələcək. Vaxtı çatanda deyəcəyəm.

Daha dillənmədim, çünki nənəmin xasiyyətinə bələddim. Əmin olmadığı işə razılıq verməzdi. Sözü üzə deməyi çox sevirdi. Vaxtılə Quranın bəzi surələri haqqında onunla mübahisə etsəm də, həmişə o haqlı çıxmışdı. Çünki o, hafizdi, Quran ayələrini əzbərdən bilirdi. Qeyri-adi yaddaşı, dərin təfəkkürü vardı. Odur ki, səbrlə gözləyirdim ki, bu təsbeh əhvalatı necə olacaq.

Payız vaxtı idi. Bir gün xəbər gəldi ki, dostun Mahmud İraqdan gəlib. Çox sevindim. Axı o neçə illərdi ki, müqavilə ilə İraqda işləyirdi. Mən yola düşməmişdən əvvəl nənəm dedi:

– Sənə yaxşı yol, amma mənim payımı da gətirməyi unutma.

– Əlbəttə, əliboş gəlməyəcəyəm. Qaraməryəmdə gülöyşə nar, xurma çox olur.

– Onu demirəm, mən nə istədiyimi yaxşı bilirəm. Bala, get, sən qayıdanda danışarıq.

Yenə təəccüblənsəm də artıq-əksik danışa bilmədim. Axı nənəm meyvə sevəndi, dadlı, iyli meyvələri yeyərdi. Yəni hər meyvəni bəyənməzdi. Təbii ki, sandığından da meyvə əksik olmazdı. Bəs niyə müəmmalı danışırdı? Düşündüm ki, gedib geri qayıdandan sonra soruşaram, belə daha yaxşıdır.

Bəli, Qaraməryəmə gedib çatdım, dostum məni hərarətlə qarşıladı. Baxdım mənə bir neçə hədiyyə də gətirib. O, onları mənə təqdim edəndən sonra mənə bir bükülü də uzatdı:

– Bunu da nənənə gətirmişəm.

– Bu nədi?
– Bir canamaz, bir də təsbehdi.
– Allah, Allah...
– Nə deyirsən?
– Heç nə, elə-belə sözdü gəldi, dedim.

O saat başa düşdüm ki, nənəm heç vaxt zənnində yanılmır, nə desə o olur.

Bəli, yola düşəndə dostum qoltuğuma bir iri yeşik də verdi.

– Narla xurmadı.

Ona razılıq edib yola düşdüm. Evə qayıdanda nə düşündümsə dedim:

– Ay nənə, sənin payını gətirmişəm.

Nənəm gülümsəsə də başını buladı:

– Sən mənim payımı – adıma göndəriləni verəcəksən, yoxsa?.. Təsbehi, canamazı deyirəm.

Bu sözləri eşidəndə yüyürüb onun əllərindən opdüm:

– Ay nənə, sən nə mübarək adamsan, sən nə desən düz çıxır.

Yadımdadır, Qubada yaşayanda da nənəmin yanına çoxlu qız-gəlin gələrdi. Qızlardan biri həmişə təzə çörək və alma gətirərdi. Bir gün nənəm ona dedi:

– Sən qal, səninlə işim var.

Qız-gəlin gedəndən sonra onu lap yanına çağırdı, əlini başına çəkdi:

– Ay mənim alagöz balam, sənin qismətini verən verib. Qardaşına acığın tutmasın, ona qara daş demə, Allaha xoş getməz. Sən ondan duanı əsirgəmə.

Qız heyrətlə nənəmə baxıb onun əllərindən öpdü. Həmin hadisədən çox keçmədi ki, o qızın üzü gülməyə

başladı. Çünki ona nişan taxılmışdı, sonra toyu olacaqdı. O yenə həmişə olduğu kimi təzə çörək və alma gətirər, nənəmə razılıq edərdi:

– Nənəcan, sən nə mübarək adamsan!

Sahil qəsəbəsində də həmişə qız-gəlinlər onun yanına gələrdilər. Ara həkimliyini, türkəçarəni yaxşı bilirdi. Üstəlik, əlləri çox şəfalı idi. Nənəmin boy-buxunu, xoş görkəmi hamını valeh edərdi. Adətən, o, qonaqlarla yeyib-içməyi çox sevərdi. Onun özünün iri qabı (kiçik qazançaya oxşayırdı) vardı. Xörəyin üstünə parçın yarısı qədər yağ tökər, xörəyini ağız dadı ilə, şirin-şirin yeyərdi. Onun yanına gələnlərin arasında bir qaşlı-qabaqlı gəlin də vardı. O, adətən, nənəmdən xeyli aralıda oturar, ona yaxınlaşmağa cəsarət etməzdi. Nənəm də ona elə əhəmiyyət verməzdi. Bir gün mən nənəmdən gəlinin niyə belə elədiyini soruşanda nənəm təəccübləndi:

– Sənə aid olmayan işlərlə niyə maraqlanırsan ki?! Bu gəlin böyük günah eləyib, qayınanasına əziyyət verib, onu ac saxlayıb. Odur ki, övlad üzünə həsrət qalıb. Mən bunu ona dolayı yolla olsa da anlatmışam. Amma yenə yanıma gəlir, mən də ona bir şey deyə bilmirəm.

# NƏNƏM DEYƏRDİ...

Nənəm nə deyərdi? Hikmət, kəramət sahibi nə deyər, bax ondan. Sualı da özüm verib, cavabını da özüm deyirəm. Nədən ki, nənəm görüb-götürmüş, özünü-sözünü bilən, ağzından dürr tökülən bir ağbirçəkdi. Deyərdi:

– İnsan qəlbində paxıllığa, haramlığa, əyriliyə yer yoxdu, çünki insanlıq hər bir naqislikdən uzaqdır. Ancaq şeytan xislətlilərin qəlbində insana yaraşmayan naqisliklər var. Axı insan adını daşıyan öncə haqqı tanımalı, halalla haramı ayırmalı, pisə də yaxşılıq etməlidir. Çünki onun işi yaxşılıq, xeyirxahlıqdır – bunu insan olan unutmamalıdır. Naşükürlük də yaxşı əlamət deyil, halal adama yaraşmır. İnsana yaraşan ona xas nəcib işlər, gözəl əməllərdi. Ağlı, kamalı olan hər kəs gözəl əməllər dura-dura niyə çirkin işlərdən, əyrilikdən yapışsınlar?! Adam Allahına şükürlü olsa, onun halalıgı da yadına düşər, əyri işlər də onu özünə çəkməz. Bunu el-obanın gözündə, düşüncələrində də görmək olar. Elə “Ərlə arvadın əhvalatı ” kimi söhbətlərdə bu bəllidir.

Nənəm deyirdi:

– Keçmişdə bir kasıb əkinçi, bunun da bir arvadı varmış. Kişi həm tənbəl, həm ağzıpartoy, söyüş söyən, naşükürmüş. Arvad ərinin tərsiymiş, yəni Allahına şükür eləyən, işini-gücünü bilən, ağzı dualı, babat əhli-halı olan bir qadınmış. Əkinçinin əkməyə yeri, səpməyə toxumu, kotana qoşmağa öküzü olsa da, kişinin həmişə qış ərzağı az, malının yemi qıt, əl-ayağını yeyərmiş bit. Deyinə-deyinə, öküzlərə söyə-söyə kotanın məcindən yapışıb onu yerə yaxşı sıxmazmış, elə torpağın üzünü qanadar, toxumu da necə

gəldi səpərmiş. Axı səpinin də öz qaydaları var. Odur ki, bunun əkin yerində alaq otu çox bitər, taxıl da adda-budda olarmış. Baxımsızlıqdan öküzlər arıq, mal-heyvan yaza halsız çıxarmış. Əkinçi bunların səbəbkarı özü olduğunu ağlına gətirməzmiş. Bir gün nə fikirləşirsə bir az fələyi söyüb yamanlayandan sonra üzünü göyə tutur:

– Ay Allah, mənə də başqaları kimi var-dövlət versəydin, dünyamı dağılardı?! Bu nə dolanışıqdı, ac, gic ...

Burda kişinin arvadı dillənir:

– A kişi, sən ömründə bir dua ağzına almısanmı? Yox, sən söyüşdən başqa bir şey bilmirsən ki.

Kişi dəli olmurmu. Çubuğu alıb düşür arvadın üstünə. Vur ki, vurasan. Axırda yorulub çubuğu atır bir yana. Nə fikirləşirsə deyir:

– Ay baxt, hardasan, gəl bir mənə kömək elə, kasıblıqdan qurtar məni.

Bu vaxt qapı döyülür, tez kişi qalxıb qapını açır, baxır yaşlı bir kişidi. Gözünün biri kor, ayağının biri topal, əlinin də biri biləkdən yox. Deyir:

– Nə istəyirsən?

– Allah qonağıyam.

– Mən Allahdan var-dövlət istədim, qonaq istəmədim ki.

– İstədin.

Qonaq ona qulaq asmayıb keçir içəri. Ev sahibi ilə üz-üzə oturur. Arvad ürəyində yanıb tökülür ki, indi qonağın qabağına yeməyə nə qoyacaq, evdə dişə dəyən bir şey yoxdu. Bu vaxt qonaq ev sahibinin başına elə bir qapaz endirir ki, kişinin ağrıdan gözlərindən od tökülür.

– Dur, o yanındakı xurcunumu mənə ver.

Kişi qorxusundan dinməzcə deyiləni yerinə yetirir. Qonaq qayıdır ev sahibinin arvadına:

– Burda yeməli şeylər var,dur onu sürfəyə düz,bu da zəqqumlansın. Adına da kişi deyir, sürfəsində bir parça pendir-çörək də tapılmır.

Bəli, evin arvadı ortalığa süfrə salır, xurcundan da yeməli şeyləri çıxarır, qoyur ortalığa. Bunlar ağız dadı ilə yeyəndən sonra yenə evin qadını sürfəni yığır. Qonaq ev sahibinə deyir:

– A kişi, heç demirsən, a qonaq, adın nədi, nəyə gəlibsən. Bu da söyüşdümü söyəsən, arvadı, mal-heyvanı döyəsən.

Kişi mətəl qaldı ki, bu qonaq bunları hardan bilir. Ona kimi qonaq yenə dilləndi:

– Sən çağırdın, mən də gəldim.

Yenə ev sahibi qaldı mat. Yəni bu kişi nə deyir, gəl anla, qan. Kişi özünü toplayıb qonağa dedi:

– Sənin adın nədi?

– Naşükür.

– Bu necə addı?

– Naşükür adamın qonağı da mənim kimi olar. Bir gözü kor, bir ayağı topal, bir əli də biləkdən yox. Dədələrimiz yaxşı deyiblər: ”Kor atın kor nalbəndi olar.” Bilirsənmi, nəyə gəlmişəm. Sənə kömək eləməyə. Əkin işini bitirməmiş gedən deyiləm.

Hələ gün çıxmamışdan qonaq ev sahibini yerindən qaldırdı. Bərabər öküzləri də gətirib gəldilər əkin yerinin yanına. Qonaq dedi:

– Mən rəncbərlik eləyəcəyəm, sən də hodaqlıq eləyəcəksən. Əməlli işləməsən bu qamçı ilə dağını çıxararam. Öküzləri də incitmə.

Buna bir yaxşı qamçı ilişdirdi:

– Necədi? Sən bu öküzləri çox incidibsən, qoy bir az da sənin canın yansın.

Beləcə zor-xoş qonaq tənbəl əkinçini işlətdi, döydü də, qamçıladı da. Ayrılanda da dedi:

– Kişi, bir də məni çağırma, ağlını işlət, ruzini qazan. Belə olsa Şükür də gələr.

– O kimdi?

– Gələndə bilərsən. Bir də çağıran olacaq ki, o da gələ.

Bəli, kişi çıxıb getdi,amma o ili əkinçinin taxılı da bol oldu, qış ərzağı da, mal-heyvanının yemi də. Amma ibadət etmədi, dua eləmək də yadına düşmədi. Arvadı əllərini göyə açdı:

– Şükür sənin kəraminə, bu il bizi darda qoymadın. Şükür sənə.

Bir də baxdılar qapı döyülür. Açdılar ki, bir yaşlı kişi. Kişi dedi:

– Məni qonaq eləyərsinzmi?

– Buyur içəri.

Kişi içəri keçib əyləşdi. O saat bunun qabağına evin arvadı sürfə açdı, isti xörək gətirdi. Yeyib-içəndən sonra qonaq başını buladı:

– Sən dünyanın işinə bax, sudan başqa heç nə tapılmayan evdə indi hər şey var.

Ev sahibi mat-mat qonağa baxdı ki, a balam bu bunu hardan bilir. Demək, bu qonaq da elə-belə qonaqlardan deyil. Odur ki, maraqlandı:

– A qardaş, adın nədi?

– Şükür. Bilirsənmi mən kiməm.

– Mən hardan bilim?

– Mən sənin arvadının bəxtiyəm. Məndən əvvəl gələn də sənin bəxtindi. Unutma, onun duaları, şükürlü olması evinə bar-bərəkət gətirdi. Bir də nə naşükür ol, nə ağzına söyüş gətir, nə də ağlını itir.

Dədə-babadan eşitmişik ki, adam ağılsız iş görəndə alan onun əvvəlcə ağlını alır. Beləsi ancaq qarnını, gödənini düşündüyündən burnunun ucundan uzağı görə bilmir. Anlamır ki, zəhmət çəkib bir sənətin yiyəsi olmalıdı. Bundan sonra onun güzaranı da qaydasında olar, yoxsa xam xəyalla gündə plov yemək olmaz.

Deyirlər bir yaxşı kişinin tənbəl,işbilməz bir oğlu vardı. Kişi nə qədər cəhd eləsə də, oğlu bir sənət sahibi olmadı. Usta yanına qoydu, iki gün keçməmiş qaçıb gəldi, çəkic əlimi əzdi, pinəçinin yanına qoydu, yenə qaçıb gəldi:

– Biz əlimə batdı.

Kişi dedi:

– Ay bala, sən bir iş görməmiş hara gedirsən bir işin qolpundan yapışmamış əlinə zaval gəlir. Onda səni özümə hodaq götürəcəyəm. Barı əkinçi ol, zəhmətin qədrini bil.

– O dediyin iş çətin deyil ki?

– Çətindi, yeri gələndə səni döyəcəyəm də.

– Bu nə deməkdi, ata?!

– Bu iş zəhmət tələb edir, yaxşı iş tələb edir.

– Yox, onda gedib balıqçı olacağam. Bu asan işdi deyirlər.

– Yaxşı, get öyrən, bizə də bir neçə balıq gətir.

– Yaxşı, gətirərəm.

Ağılsız oğlan elə başa düşdü ki, bu balıqçı olmaq çox asandı, balıq tutmaq da ondan asan. Bu, yolda bir kişiyə rast gəldi. Baxdı bikef oturub, yanında da bir tor var. Qanmadı ki, balıqçının bu dəfə bəxti gətirməyib, kefsizliyi də ondadı. Bu düşündü ki, bu kişi balıqçıdır, balıq tutacaq, mən də bundan bir-iki balıq alıb evə apararam. Atam nə biləcək bunu balıqçıdan almışam. Sabaha da Allah kərimdi. Bəli, gəldi balıqçıya salam verdi, oturdu yanında:

– Burda nə eləyirsən.

Balıqçı oğlanın agıldan elə də kamil olmadığını anlayıb məzəylə dedi:

– Görmürsənmi, a bala, balıq tuturam?

– Nə yaxşı oldu.

– Başa düşmədim, bala, sən nəyə yaxşı deyirsən?!

– Səndən bir xahiş etsəm eləyərsənmi?

– De görüm nə deyirsən?

– Dedin balıq tutursan, tutanda bir-ikisini də mənə ver.

– Yaxşı. Oturub gözlə, tora balıq düşsün, sənə də verim.

Elə bu vaxt bir yolçu yoldan keçirdi, bunların yanına gəldi, balıqçıya dedi:

– Burda nə eləyirsiniz?

Balıqçı yanında əyləşən ağılsız oğlana baxıb məzəylə səsləndi:

– Balıq tuturuq.

– A kişi, dəli-dəli danışma, çöldə balıq nə gəzir, sən gicsən, nəsən.

Söz buraya çatanda balıqçı əli ilə yanındakı oğlanı göstərdi:

– Gic budur ki, məndən çölün ortasında balıq istəyir.

Oğlan kor-peşiman gəldi evlərinə. O saat atası onu yanına çagırdı:

– A bala, tutduğun balıqlar hanı?

– Balıqçının yanına getdim, amma kişinin toruna balıq gəlmədi.

– Harda oturmuşdunuz? Dəryanın qırağındamı?

– Çölün ortasında.

Kişi oğlunun başına bir yaglı qapaz endirdi:

– Bu ağılsız başa ağıl gələndə çölün ortasında da balıqçının toruna balıq düşəcək.

Nənəm çox hazırcavab idi. Odur ki, həmişə qız-gəlin ondan çəkinərdi.

1.

Bir dəfə nənəm bir qonşusunun evinə gedir. Baxır evdə hər şey biri-birinə qarışıb. Səliqə-sahman yoxdu. Evin yaşlı qadını xeyli aralıda oturub iştaha ilə xəşil yeyən gəlinini göstərib deyir:

– Ay Zərnişan, bizim bu gəlin necədi, iştahlıdımı?

Nənəm gülümsünür:

– İştahlılığına iştahlıdı... Yeməyin ustası, iş görməyin xəstəsidi.

Gəlin o saat xəşil tavasını bir yana qoyub dik ayağa qalxır. Ortalığı sahmana salır. Nənəm yenə gülümsünür:

– A bala, gəlin olanda nə olar, kimsə onu bizləməmiş ev-eşiyini süsləsin.

2.

Bir gün nənəm rəfiqələrindən birinə rast gəlir. Baxır həmişə deyib-gülən bu qadının üzü gülmür. Deyir:

– Dərdin nədi?

– Sən mənim evimdəki qızımı bilirsən, nə iş görər, nə qeyrət eləyər. Xasiyyəti də tünd.

– Yəni sən deyirsən ki...

– Nə deyirəm?

– Qarnımdan çıxıb qada.

– Kimə gedim imdada?

– Atalarımız nə deyiblər?

– Nə deyiblər?

– Axmağa söz, künbəzə qoz yapışmaz.

3.

Bir gün nənəm xatirini istədiyi bir nəfəri bulaq başında görür, baxır o, eşşəyi suvarır. Nə fikirləşirsə bunun içki aludəsi olduğunu xatırlayıb deyir:

– Xatirinə dəyməsin, sənə bir söz deyəcəyəm.

– De, xatirimə niyə dəyir ki?!

– Bir sözdü dedim.

– De, nə deyəcəksən.

– Bax, bu eşşək bu suyu içib hara da getsə axşam yerinə gedəcək, amma sən acı suyu içib itirsən. Bu eşşək qədər də ağlın yoxdu?! Bəs eşitməyibsənmi, araq başa çıxanda ağıl butulkaya düşər?!

4.

Bir gün nənəm yenə qohumlardan birinin evinə gedir. Onu hörmətlə qarşılayırlar. Xeyli keçəndən sonra evin arvadı gəlinə səslənir:

– A bala, bizə bir çay gətirsənə.

Gəlin deyiləni yerinə yetirib gedib aralıda bir yerdə əyləşir. Bir xeyli söhbətdən sonra yenə qaynana gəlinə deyir:

– Dur, xörək-zad hazırla.

Gəlin durub mətbəxə keçəndə nənəm deyir:

– Bu necə gəlindi, oturduğu yerdə qalır?!

– Neyləyim, deməsəm bir iş görmür. Xasiyyəti belədi.

Ona kimi gəlin xörəyini ocağın üstə asıb gəlir nənəmgilin yanına. Nənəm qayıdır ki:

– A qızım, oturmaqdan bir şey çıxmaz, gəlin boş dayanmaz axı.

– Necə? Nə eləyim ki?

Nənəm gülümsünür:

– Əlini vur əlinə, ətəyini belinə...
Bəlkə oxşadın gəlinə.

5.

Bir dəfə nənəmin yaxın dostlarından biri qızından çox şikayətlənir:

– Bu qız məni eşitmir, ay Zərnişan bacı, bəlkə sən buna bir şey deyəsən.

– Yaxşı, bir münasib vaxt gələrəm.

Bundan bir neçə gün keçəndən sonra həmin dostunun evinə gedir. Baxır yemək yeyirlər, bunu da dəvət edirlər. Nənəm gözucu arvadın qızına baxır. Baxır qız yarım tava

xəşili aşırdı, iki çörəyi də dürmək elədi. Başını bulayanda qızın anası deyir:

– Görürsənmi, yeməyə ustadı-ac qurd kimi, işləməyə də yaxşıdı – dağı dağ üstünə qoyar.

– Ay arvad, qoysana halallıqla bir çörəyimizi yeyək.

Qız səsi gəldikcə bağıranda yenə nənəm dillənir:

– Xaşılı yedi, çörəyi dürməklədi. Həmişə belədi?! Danışanda da bağırır, çığırır... Səsi üç günlük yola gedir. Bilmir mərifət nədi. Kor-kobuddu, bir az nazik,nəcib olsa, qız olduğunu yadına salsa... Dünya dağılar? Aglı olsa özünə yığılar.

6.

Yaxın qonşulardan biri gəlir nənəmin yanına:

– A qonşu, bizim hində toyuq-cücə qalmayıb, tülkü bir-bir aparıb.

– Qonşunun da toyuq-cücəsini aparıbmi?

– Yox, yox. Elə bizim hinə gəlib-gedib.

Nənəm sirli-sirli gülümsünür:

– Uşaq yolla, qonşunu da çağıtdır.

Qonşu onun dediyini eləyir.O biri qonşu da gəlib çıxır. Nənəmi görən kimi özünü yığışdırır:

– Bıy, ay Zərnişan, sən də burdasan?

– Qonşu deyir onun hininə bir tülkü dadanıb, amma sənin toyuq-cücənə toxunmur, eləmi?

– Düz deyir, elədir.

– Onda sən o tülküyə de bu qonşunun toyuq-cücəsinə bir də toxunmasın.

– Bu nə deməkdi? Mən tülkünün dilini bilirəm?!

– Onun dilini bilirsən ki, sənin toyuq-cücənə toxunmur. Yoxsa qohumundu, dostundu?! Bunun nə olduğunu sən bilirsən, mən də bilirəm.

7.

Bir dəfə nənəm qonşuların birinin qapısından keçib gedəndə hay-küy eşidib ayaq saxlayır. Baxır ana-qız mübahisə edirlər, sözləri düz gəlmir. Salam verib içəri keçir:

– Bu nə hay-küydü belə.

Qız dillənmir, anası qızına tərs-tərs baxıb deyir:

– A qonşu, bu qız məni eşitmir. Bir pullu-hallı oğlan elçi düşüb bunu istəyir, bu onu bəyənib getmir. Deyir bir çoban var, ona gedəcəm.

– A qızım, anan düzmü deyir?

Qız başını tərpədəndə nənəm dillənir:

– Qonşu, indi mənə yaxşı qulaq as. Mən bu dediyin oğlanların ikisini də tanıyıram. Birinin pulu-varı var-adamlığı yoxdu, birinin də pulu-varı yoxdu – adamlığı var. Sən də özünün adamlığını göstərib qızını adama ver. Atalarımız yaxşı deyiblər: ”İki könül bir olsa samanlıq seyran olar”.

8.

Bir gün nənəm baxır qonşunun ikisi mübahisə edirlər:

– Sən düz demirsən, küçük hələ qanmır, yoxsa qazı aparardımı. Harda olsa gələr. Qoy qayıtsın, gör onun başına nə gətirəcəm.

– Nə olub, küçük qazın birini boğub, eləmi?

– Hə, deyirəm, ya qazımın əvəzinə qaz, ya da onun pulunu versin. Bu da deyir küçükdü, qanmayıb...

Nənəm bunu eşidəndə küçük sahibinə acıqlanır:

– Tərsinə iş görmə. Sən bu qonşunun qazının pulunu ver. Sonra o küçüyə qulaqburması verərsən.

## SOYDAN, KÖKDƏN...

Nənəm həmişə qış gecələrində ötüb-keçənlərdən elə şirin-şirin danışrdı ki, damağıma ayrı ləzzət verər, nənəmə olan sevgim birə min artardı. Onun gözəl danışığı, xoş sifəti, hərdən bir kövrəlib ah çəkməsi məni həm heyrətləndirər, həm də maqnit kimi özünə cəlb edərdi. Adətiydi, nənəm dədə-babadan da danışmağı çox sevərdi. Deyirdi:

– Hə, sənin Əhməd babanın babası, atası haqqında da bir-iki kəlmə danışacağam. Hə, Əhməd babanın babası Mir Qasım ağadır. Mir Qasım ağa Qarsın tanınmış seyidlərindən, varlı-hallı adamlarındandı. Kişinin Qarsda qohumları, dostları vardı. Yaşlıların dediklərinə görə Mir Qasım ağanın iki oğlu (Qurban, Məhərrəm) olub. Sonralar Qurban baban ziyarətə gedib məşədi olub, buna görə onu adamlar Məşədi Qurban kimi çağırıblar. Yenə deyilənə görə Qurban baban əsgərlikdə olanda çavuşla dava eləyib onun dişinin birini sındırır. Buna görə araya qanqaralıq düşür. Mir Qasım ağa Qarsdan Ağbabaya köç eləməli olur.Onlar Təzə İbişdə binə bərkidillər. Bu əhvalat Həmzə ağanın Təzə İbişə gəlməmişdən az sonra baş verib. Hə, Mir Qasım ağanın bir ələmi, bir sirri-xuda deyilən tası olub.

Məşədi Qurbanın iki arvadı (Havva, Şirin) olub. Onun dörd oğlu (Səməd, Tağı, Nağı, Əhməd), bir qızı (Səhnə) olub.

Səməd baban, yəni Səməd qaam (nənəm Səməd babama qaam deyirdi) mədrəsə təhsili alıb, oxuduğu Quran da qədim Quran kitablarından biridi.

Hə, Sovet hökumətinin tutatutundan yaxa qurtara bilmədik. Əhməd babangili “sinfi düşmən” kimi tutub Gümrüyə, Qaraqalaya apardılar. Mal-heyvanımızı əlimizdən aldılar.

Hə, Məhərrəm babanın bir oğlu (Bağır), iki qızı (Əsmər, Fatma) olub. Bağır baban çox qoçaq adamdı, usta idi. Dəmirçiliyi ,ağac ustalığını yaxşı bilirdi. Dayın Məcid tez-tez onun yanına gedirdi, çünki ustalığa marağı vardı. Dəhşətli 37-də Bağır babagili də qolçomaq adı ilə uzaq Qazaxıstana sürdülər.

Qəflətən nənəm söhbətini kəsdi, baxdım ağlayır, birtəhər özünü ələ aldı:

– Heç yadımdan çıxmır, hələ yola düşməmişdən əvvəl Sənəm yengəm bizə gəldi:

– A Zərnişan, sənnən bir işim var.

– Sənəm yengə, buyur, nə deyəcən de.

– Sənə bir amanat verəcəm, onu saxlaya bilərsənmi?

– Niyə saxlamıram. Amanata xəyanət yoxdu.

Baxdım bir iri bağlama gətirib, açıb göstərdi. Baxdım qızıl üzüklər, bahalı boyunbağılar, nələr, nələr var. Sənəm yengəm bunları mənə göstərib dedi:

– Qorxuram yolda yoxlayıb bunları əlimizdən alsınlar. Bunu sənə amanat kimi verirəm. Gələrəm qaytararsan, gəlmərəm ananın südü kimi sənə halaldı.

– Sənəm yengə, arxayın ol, amanatını saxlayacam. Nə vaxt gəlsən özünə qaytaracam.

Halallaşdıq. Ağlaya-ağlaya bir-birimizdən ayrıldıq. Bilmirəm, aradan neçə il keçdi. Bir gün baxdım qapıdan kimdisə səslənir:

– Zərnişan, ay Zərnişan.

Baxdım səs tanış gəlir, bir az irəli getdim:

– Kimdi? İçəri gəlsənə.

Belə baxdım Sənəm yengəm. Buna sarılmadımmı. Xeyli beləcə səssizcə ağlayandan sonra aralandıq. Onu içəri dəvət etdim. Allah verəndən qabağına qoydum. Yeyib-içəndən sonra bir az ordan-burdan danışandan sonra Sənəm yengəm qəmli-qəmli üzümə baxıb dedi:

– Ay Zərnişan, sənə bir şey deyəcəm. Bilmirəm, unutmayıbsan ki.

– Sənəm yengə, nə deyəcən de.

– Yadındamı, bundan neçə illər qabaq sənə bir amanat verdim.

– Hə, bir amanat verdin.

– Onu saxlayıbsanmı?

– Saxlamışam.

Bağlamanı gətirib ortalığa qoydum. Sənəm yengəmin sevindiyindən əlləri əsirdi. Bağlamanı açanda üzümə təəccüblə baxdı:

– A Zərnişan, bunu necə sənə vermişəm, eləcə durur. Üstündən niyə bir şey götürməmisən?

– Sən bunu mənə amanatlığa vermədinmi? Verdin. Allah qismət eləyirdi niyə minlərlə qoyunu, yüz başlarla inəyi olan bir varlı kişinin arvadı bu günə qaldı. Sovet hökumətinin adamları qızıl dolu sandığımızı gözlərimin qabağında götürüb apardılar. Deməyim o ki, Sənəm yengə, sizin

vəziyyətiniz orda daha çətindi, bunu apar, yenə darda karınıza gələr.

Sənəm yengəm mənə bir şey deməyib yenə məni qucaqladı, ağlaya-ağlaya bir-birimizdən ayrıldıq. Bir də Sənəm yengəmi görmədim.

# XATİRƏLƏR

## HÜSEYN ƏSƏD OĞLUNUN XATİRƏLƏRİ

Mənim yaxın dostum Əliydi, Məşədiqurbanlardan. Düzdü, o, məndən bir neçə yaş böyükdü, amma tay-tuş kimi rəftar edirdi. Olduqca mərd və cəsarətli idi. Həmişə ermənilərdən söz düşəndə deyrdi:

– Onlar qorxaq, amma olduqca hiyləgər və zalımdılar. Adamın üstünə it xılı, çaqqal sürüsü kimi tökülərlər... Onlarınkı namərdlikdi, arxadan vurmaqdı. Meydana girməzlər, çünki meydan aslanlarındı, çaqqalın nə işi var orda.

Mənim ona diqqətlə qulaq asdığını görüb həvəslə sözünə davam edərdi:

– Lap tək olsan da, bərk ayaqda qorxma. Ermənilərin bərkdə əli yoxdu. Həm də həmişə fürsəti düşmənə vermə, birinci sən vur. Elə vur ki, qan çıxsın. Ermənilər qandan qorxurlar.

Dostum beləcə ermənilərin təbiətini və kəmfürsətliyini mənə tanıtdı.

Doğrudan da, dəfələrlə onlarla üz-üzə gəldim. Bu namərdlərin türk düşmənçiliyini yaxşıca anladım. Yadımdadır, Əlini müharibəyə aparandan ermənilər mənim tək qaldığımı görüb məni əzişdirmək üçün fürsət axtarırdılar. Mən də ehtiyatlı davranırdım. Buna görə də onlar mənə zərər verə bilmədilər.

Heç yadımdan çıxmır, Əli müharibədən yaralanıb gəlmişdi. Bunu eşidən ermənilər bir bəhanə ilə yuxarılarla əlaqə saxlayıb onu yenidən müharibəyə yola saldılar. Bu namərdlərin məqsədi aydındı. Əli müharibədə həlak olsun.

Amma bu olmadı, Əli sağ-salamat geri qayıtdı, amma ondan əl çəkmədilər. Daha sonralar da Əli qaçaq oldu, Sovet hökumətində on il başqa adla yaşadı. Sonralar getdi Qazaxıstana. Amma bizim əlaqəmiz kəsilmədi. Həmişə görüşür, keçənləri yada salırdıq.

**Tacir SƏMİMİ**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# XƏSTƏ ZƏRNİŞANIN XATİRƏLƏRİ

1.

Kəndimizdə üç uzun, yekə adam varıydı. Dədəm, yanı Ağsaqqal Vəli, Əsəd, bir də Yekə Rza. Yadımdadı, dədəm söz tüşəndə deyərdi ki, ona cavan vaxıtdarında Yekə Vəli də deyiflər... Qaldı Əsəd... Qardaşım çox boylu-puxunnu, qollu-budaxlıydı. Bir oturuma beş-on adamın yeməyini yeyər, bir o qədər adamın da işini görərdi. Çox işdahlıydı, çox vaxıt doydum deməzdi. Anam təndirdə çörəh pişirdihcəh o da isdi-isdi onnan bir-ikisini yeməsə əl çəkməzdi. Əsəddən söz tüşəndə dədəm zarafatnan deyərdi:

– Ahan mən bu Əsədə nə deyim. Nə başına papax, nə əyninə paltar, nə də əyağına çarıx tapılmır. Ay səni sağ olasan, ay oğul, indi bə neyniyim?!

Əsəd çox rəşbər, işgüzar adamdı, qəti işdən-gücdən qorxmazdı, qoldan da çox quvatdıydı. Bir də Əsədin çox gözəl səsi varıydı. O, Quran oxuyanda hamı ona valeh olardı. Hamı onu səsinnən tanıyırdı. Ahan bax, yadıma da salmadın... Qabaxcax dədəmnən danışasıydım, əmə Əsəddən danışdım.

...Həyə, dədəm də çox qollu-budaxlı bir adamıydı. Onu qədər səbirri, axıllı, hər şeyin yolunu bilən, insaf-mürvət sahabı, halal adam görməmişəm. Dədəm həm də çox zarafatcıl adamıydı. Çox vaxıt dosdu Hamza ağaynan çox zarafatdaşardı. Dədəmin də yeməh-işməyi yaxşıydı. Nə az, nə çox – bir dəfə çay içəndə az qala bir kəllə qənd lazım olurdu. Dədəm hər əvə, ocağa qonax getməzdi. Odu ki, onun yaxın dosdarı varıydı, onnarın əvlərinə gedərdi.

Dədəm hər şeyi qabaxcaxdan bilirdi. Hikmət və kəramət sahabı olduğuna görə hamı ona hörmət eliyirdi.

Qaldı Yekə Rza. Bu adam kəndin ən uzun, zəhimli adamıydı. Kişinin bığları o qədər uzunuydu ki, o, bığlarını boynunun dalınnan iki qatma vuruf bağlıyırdı. Yekə Rza o qədər iri adamıydı ki, ata minəndə əyaxları az qala yerə dəyirdi.

2.

Bir dəfə ağalar, bəylər yığılıflarmış Gümrüyə. Yanı Məmmədqasım ağanın əvinə. Söz hardan tüşürsə ağalardan biri dədəmə deyir:

– Ay Ağsaqqal Vəli, sən bilərsən, bizim axırımız necə olacax?

Dədəm başını yırğalayır:

– Ay ağa, gəl sən bunu mənnən xəbər alma. Yanı nə sənin, nə də mənim qanımız qaralmasın.

– Ağsaqqal Vəli, olmuya genə zarafat eliyirsən. Əmə indi yeri dəyil.

Deyir:

– Mən də deyirəm, bunu mənnən xəvər almıyın.

– Sən nə olacağını de.

– Deyirsən de, deyim da. Tezdihnən əlində qırmızı bayrax bir gədə hökuməti gələcəh. Küçədə itnən yatanı gətirif bizə rəhbər eliyəcəh – başa keçirəcəh. Nə qədir yaxşı kişilər var, təhsillilər, mollalar var – hamısını ya Sibirə, ya da uzax Qazaxıstana sürgün eliyəcəhlər. Bir söznən kətdərdə bir başıpapaxlı qalmıyacax.

Deyillər:

– Ay Ağsakqal, sən genə biznən zarafatmı eliyirsən?

Dədəm deyir:

– Yox, zarafat-zad eləmirəm. Nə olacax, onu deyirəm. Mən nə vaxt yalan demişəm, bir yadınıza salın.

Doğurdan da, dədəmiz dediyi olur.

3.

Dədəmin çuxasının qoyun cevində bir xırda dəri kisə varıydı. Həmməşə axşam vaxdı kefinin yaxşı vaxdında onu cevinnən çıxardıf baxar, əlini üstünə çəkərdi. Deyərdim:

– Ay dədə, bu kisə hardandı?

Dədəm dillənməmiş əlini saçdarıma çəkərdi:

– Mənim göyçəh balam, bunun əhvalatı uzundu. Qulağ assan deyim. Yox, asmıyacan, qalsın.

Dədəm belə deyəndə onun əlinnən bərk yapışardım:

– Yox, qalmasın. Danış, dədə.

Deyirdi:

– Yaxşı, onda qulağ as. Uşax vaxtdarımıydı. Məni dədəm Qızılqoç ziyaratına aparmışdı. Ordan çıxıf gələndə bir məclisə gəlif çıxdıx. Yadımdadı, orda beş-altı nəfər dərviş də varıydı. Biri tütəh çalır, o biri toy... Biri də oxuyurdu. Arada bir “ya hu”, “ya hu” deyirdilər. Mən bunnara mətəl qaldım. İki dərviş də fırranırdı... Elə fırranırdılar daha demə. O gecə sabaha qədər beləcə keşdi. Denən bir gözümü yumdummu. Onda bir dərviş mana bu kisiyi verdi, dedi:

– Bunu yaxşı saxla. Hərdən bir cevinnən çıxardıb əlini çək, onda əhvalın xoş, ürəyin rahat olacax, elə də olur. Bunu neçə illərdi beləcə saxlıyıram.

4.

Dədəm təhcə Ağbabada yox, Çıldırda, Qarsda, Axırkələhdə, Gümrüdə, İrəvanda Ağsakqal Vəli kimi tanınmışdı. Hər şeyi qabaxcaxdan bilən kimi. Ədətiydi, halal, xeyirxah, səxavətdi adamları çox isdiyərdi. Dədəm Hamza ağıyı çox isdiyirdi. Düzünə baxanda bunnarın ikisi də zarafatcıl adamlardı.

5.

Dədəmin tənbəl adamları, əliəyriləri, haramzadaları görməyə gözü yoxuydu. Həmməşə adamlara nəsiyət eliyərdi:

– Üz qaraldan işdən yapışmıyın, üz ağardan işdər görün.

## HÜSEYN BABAM

Əsl köhnə kişilərdəndi. Onunla söhbət eləmək, danışığına qulaq asmaq bir ayrı aləmdi. Baxışları, hərəkətləri, duruşu, sözləri... bir sözlə, ölçülü-biçili idi. Hər şeydən öncə hikmət sahibi idi.

Deyirdi:

– Əslində olan dırnağında göstərər.

Deyirdim:

– Dədə, bu nə deməkdir?

Deyirdi:

– Düşün, özün tap. Dədələrin dediklərini nəvələr döşürməli, yaddaşlarına yazmalıdılar.

Halal ol, harın olma; yengin ol, özünü dartma. Sadəlik insanın yaraşığıdır. Unutma, gün gələcək sən də dədə olacaqsan.

Qolunun gücünə güvənmə, ağlına güvən. Yəni nə iş görsən ağılla gör. Çünki insan ağlı insana həmişə hörmət gətirir. Sən də həmişə hörmət qazan, töhmət qazanma.

Hüseyn babamın özünəməxsus zəhmi, xasiyyəti vardı. Atam da, əmilərim də ondan çəkinər, yanında heç vaxt səslərini qaldırmaz, onun dediklərinə əməl edər, nəsihətlərinə də diqqətlə qulaq asardılar. Hüseyn babamın dünyagörüşü geniş, ürəyi böyükdü, olduqca alicənab bir kişi idi.

Yadımdadır, məndə Əhli-beyt sevgisini də o yaratdı. Babam dindən, şəriətdən, Məhəmməd peyğəmbərdən elə maraqlı danışardı ki, bunu təsəvvür etməkdə acizəm.

...Üstəlik, babam adət-ənənələrimizi, folklorumuzu yaxşı bilirdi. Onun nanay oxumaları bir ayrı tamaşa idi.

Bəli, mənim taleyimdə babamın təsiri, nəsihətləri az rol oynamayıb. Bu barədə nə qədər yazsam da azdır.

***Anar Hüseynov***

# SON SÖZ

Yaşım yetmişi keçib, çətinliyin hər üzünü görmüşəm. buna rəğmən Allah mənə imkan və şəriat də verib. Vaxtilə olduqca məsul vəzifələrdə işləmişəm. Həmişə ədalətli olmuş, halallığa fikir vermişəm. Dədə-babalardan qalan ənənələri, insanın yaxşı cəhətlərini yaşatmağa çalışmışam. Bu gün mən çox şadam ki, oğlum Anar öz yaddaqalan işləri ilə el-oba arasında tanınıb. Oğlum bizim soy-kök, şəcərə ilə bağlı dəyərli bir kitabı Tacir Səmimi ilə bərabər işləyib. Zənnimcə, bu həm də Qərbi Azərbaycanla, ordakı ailələrlə, tayfa və tirələrlə bağlı əhəmiyyətli bir işdir. Bizim Qərbi Azərbaycandakı izimizi, mədəniyyətimizi, varlığımızı əks etdirməkdədir. Təbii ki, mən yazı-pozu adamı deyiləm. Buna görə də hisslərimi və duyğularımı yaxşı ifadə edə bilməsəm də, mənə elə gəlir ürəyimdən keçənləri elə bu bir-iki kəlmə ilə də deyə bilmişəm. Burada həm bizim dədə-babalarımızın az-çox tarixi, yaşantıları, onların hikmət sahibi olmaları, təbli olanları... Folklorlaşanları, elin gözündə, sözündə yaşayanları da bəlli olur... Rəvayət kimi...

Bu kitabın hazırlanmasında əməyi olan hər kəsə öz dərin minnətdarlığımı bildirirəm.

***İsfəndiyar VƏLİYEV***

# SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

**Tırınqılar.** Söyləyən: Hüseyn baba, 87 yaşında (Amasiya rayonu, Təzə İbiş kəndi)

**Rəvayətlər. Əliynən naxırçı. Əliynən Əhməd ağa.** Söyləyən: Mahmud baba, 70 yaşında (Amasiya rayonu, Təzə İbiş kəndi);

**Əliynən ermənilər.** Söyləyən: Hüseyn baba, 87 yaşında (Amasiya rayonu, Təzə İbiş kəndi);

**Oğurruğun haqqı.** Söyləyən: Mahmud baba, 70 yaşında (Amasiya rayonu, Təzə İbiş kəndi);

**Aşıq İsgəndərnən Hüseyn. Çobannan Hüseyn.** Söyləyən: Xəstə Zərnişan, 80 yaşında (Amasiya rayonu, Təzə İbiş kəndi);

**Ağsaqqal Vəliynən Xallı ağa.** Söyləyən: Süleyman baba, 76 yaşında (Amasiya rayonu, Təzə İbiş kəndi);

**Çıldırrı Çobannan Ağsaqqal Vəli.** Söyləyən: Xəstə Zərnişan, 80 yaşında (Amasiya rayonu, Təzə İbiş kəndi);

**Oğruynan Hüseyn. Dəli Səfərnən Ağsaqqal Vəli.** Söyləyən: Usta Məcid, 67 yaşında (Amasiya rayonu, Təzə İbiş kəndi)

**Xəstə Zərnişanla bağlı rəvayətlər**

**Lazım gələndə Zeynaf xalanın çiyninə vurarsan. Ala dana. Tülkü-çaqqal əhvalatı. Pəhləvan arvadı.**

Söyləyən: Mahmud baba, 70 yaşında (Amasiya rayonu, Təzə İbiş kəndi)

**Aşıqlar və el şairləri. Yetim Əskər**

**Gəraylılar.** Qalmadı. Olmaya. Söyləyən: Hüseyn baba, 87 yaşında (Amasiya rayonu, Təzə İbiş kəndi)

**Qoşmalar.** Kasıblıq. Maşallah. Ola-ola.. Ay fələk.

Söyləyən: Usta Məcid, 67 yaşında (Amasiya rayonu, Təzə İbiş kəndi);

**Məni. İndi. Gəlmir. Qoşma. Allah. A qardaş. Deyil. Ay fələk. Qadındadı. Ərzi-hal.** Söyləyəni: Yetim Əskər, 80 yaşında (Daşkəsən şəhəri)

**Aşıq rəvayətləri.**

**Aşıq Qənbərin bir əhvalatı. Miskin Tağının Sınıx səfəri.** Söyləyən: Usta Məcid, 67 yaşında (Amasiya rayonu, Təzə İbiş kəndi);

**Göləli İbrahimin Mustuxlu səfəri. Dondarnan Aşıx Qənbərin deyişməsi.** Söyləyən: Hüseyn baba, 87 yaşında (Amasiya rayonu, Təzə İbiş kəndi)

# DİALEKTOLOJİ LÜĞƏT

**Al** – 1. hiylə. 2. qırmızı rəng

**Ağüzüm** – Akyaka ilçəsində kənd

**Aşdıbaba** – Ağbabada dağ adı. Ağbaba dağının qonşuluğunda yerləşir.

**Ağunmaq** – acından haldan düşmək

**Anarı** – kənar, uzaq

**Bəri** – yaxın

**Balaq** – camış balası

**Bə** – bəs

**Bədəl** – əvəz.

**Cınqır** – vedrə

**Colpa** – atın cilovundan tutan, yedəkçi

**Çışır** – tikanlı məftil. Keçmiş Sovetlər Birliyi ilə Türkiyə arasında dövlət sərhədi tikanlı məftillərlə çəkilmişdi.

**Çıldır** – Türkiyədə yer adıdır.

**Çal** – qoca

**Er** – tez, erkən

**Əv** – ev

**Əmə** – amma

**Duraq** – əslində "durak"dır (Türkiyə türkcəsində), təhrif olunmuşdur. Dayanacaq anlamındadır.

**Hancarı** – necə

**Həyə** – hə

**Kaloğlan** – Ağbabada dağ adı, zirvə. Ağbaba dağının yanındadır. Kaloğlan Anadolu türkcəsində "keçəl" anlamındadır.

**Kəf** – torta

**Küst tutmaq** – güləşmək

**Kət** – kənd

**Kal** – kəl

**Kora** – iri mıx

**Koralamax** – mıxlamaq

**Kərənti** – dəryaz

**Külverən** – Akyaka ilçəsində kənd

**Karvan yolu** – Qədim ipək yolunun Təzə İbişin önündən keçib gedən hissəsi. Bu günə qədər qalmışdı.

**Lök** – dəvə

**Matrax** – şallaq

**Mürdəşir** – ölü yuyan

**Məzartəpə** – Sərhədə yaxındı. Təzə İbişin kənd qəbiristanlığı burada idi.

**Nanay** – xalq nəğməsi. Yallıların müşayiəti ilə oxunurdu. Hər bir nanay iki, ya da üç vəsfi-hal və bir nanayarasından formalaşırdı. Bir-birindən ritminə görə fərqlənirdi. Yavaş, orta və sürətli oynanılan yallılarla müşayiət olunurdu. Hər bir nanayarası bir hava, motiv sayılırdı. Bu xalq nəğmələrinin çoxsaylı motivləri, eləcə də hər bir nanayın bir neçə variantı da məlumdur. Bu gün də bu xalq nəğmələri Çıldırda, Ərdahanda, Qarsın kəndlərində, eləcə də ağbabalılar arasında yaşamaqdadır.

**Pazı** – çuğundur.

**Poralamaq** – acılamaq, sərt cavab vermək.

**Patrax** – yoxsul. Sovet hökuməti patraxlara vəzifə və müəyyən imtiyazlar vermiş, onları varlılara, “sinfi düşmən” adlandırılan adlı-sanlı adamlara qarşı qoymuşdu.

**Pin** – hin

**Pəsanda kişi** – görüb-götürmüş kişi

**Qərəl** – qərar

**Təzmək** – hürkmək

**Qarqara** – Yaz vaxtı qar əriyəndə iri qar parçaları belə adlanırdı. Məsələn: qarqara oynadı.

**Qımqımı** – xalq məğməsi. Bu xalq nəğməsi pəsdən, xəlvət bir guşədə oxunurdu. Müəllifin dərd-sərini, üzüntülərini əks etdirirdi. Həcmi də müəllifdən asılı idi. Toplanması olduqca çətindi, çünki müəlliflər kimsənin ona qulaq asmasını arzulamırdılar. Bu xalq nəğməsi də motivli idi.

**Qurdcul** – qurdbasar (it)

**Qavalamaq** – qovmaq

**Quva** – qüvvə

**Qədər** – aqibət

**Sinor** – əslində "sınır"dı (Anadolu türkcəsindədir). Sərhəd.

**Sirillah qalmaq** – mat qalmaq, təəccüblənmək.

**Səhsənmək** – diksinmək

**Səf** – səhv

**Şırat** – südün altı, yağsız hissəsi. Maşnada çəkilən süd iki yerə ayrılırdı: üz (qaymaq), şırat. Adətən, şırat təndirin üstünə qoyulmuş qazanda qızdırılır, içinə maya atılır, pendir tutulurdu. Buna çeçil pendir, yəni yağsız pendir deyirdilər. o, motala basılandan sonra göyərib daha dadlı olurdu.

**Şıpbıltı** – gurultu

**Şıldırımşırp** – qəflətən, birdən

**Şura** – Sovet hökuməti nəzərdə tutulur, yəni Şura hökuməti.

**Tırınqı** – xalq nəğməsi. El-oba arasında qürbət nəğmələri kimi tanınıb. Quruluşca qoşmalara oxşasa da, onlardan xeyli fərqlənir, əsasən qəmli aşıq havaları üstə oxunur.

**Yey** – yaxşı

**Yoz** – erkək mal

**Yəyax** – piyada

**Yaxmaq** – yandırmaq

# KİTABIN İÇİNDƏKİLƏR

Ön söz (Anar Hüseynov) ........................................ 3
Redaktordan ........................................................... 7
**Soy-kök, şəcərə** ..................................................... 10
Bayraməlilər tayfası ............................................... 14
Bayramalı ............................................................... 15
Hüseyn Bayraməli oğlu .......................................... 15
Əli Bayram oğlu ..................................................... 15
Məhəmməd Bayram oğlu ........................................ 16
Oruc Əli oğlu .......................................................... 16
Əlinin uşaqları tirəsi ................................................ 16
Vəlinin uşaqları
(Ağsaqqal Vəlinin uşaqları) tirəsi .......................... 16
Hümmət Vəli oğlu .................................................. 17
Rüstəm ................................................................... 17
İsa ........................................................................... 18
Həsən baba ............................................................. 18
Hürü nənə ............................................................... 18
Əsəd Vəli oğlu ........................................................ 19
Hüseyn Əsəd oğlu ................................................... 19
Güllər Əsəd qızı ...................................................... 20
Süleyman ................................................................ 21
Ağbaba Süleyman oğlu .......................................... 21
Vəliyev Qulu Hüseyn oğlu ..................................... 22
Ceyran Hüseyn qızı ................................................ 22
Vəliyev İsfəndiyar Hüseyn oğlu ............................ 23
Vəliyev Ələsgər Hüseyn oğlu ................................ 23
İdris Əskər oğlu ..................................................... 24
Əhmədov Cavanşir Süleyman oğlu ........................ 25

Vəliyev Mübariz Həsən oğlu ................................ 25
Vəliyev Tahir Eyyub oğlu .................................... 25
Hüseyn Ələsgər oğlu ............................................ 26
Almaz Ələsgər qızı ............................................... 26
Esmira Ələsgər qızı .............................................. 26
Vəliyev Rafayıl Ağbaba oğlu ............................... 26
Sona Ağbaba qızı ................................................. 26
Sevil Ağbaba qızı ................................................. 26
Vüsal Əlizadə ...................................................... 26
**FOLKLOR ÖRNƏKLƏRİ**
Bir neçə söz (Tacir Səmimi) .................................. 28
Tırınqılar ............................................................ 30
**SÜLEYMAN DAYININ LƏTİFƏLƏRİ**
Dəyişik salıb ........................................................ 34
Dədə belə dədəlik eləməz ..................................... 35
Dəli gəlin baş çıxardar .......................................... 35
Təpiyə dırmaşdırıf ................................................ 36
**RƏVAYƏTLƏR**
Əliynən naxırçı .................................................... 38
Əliynən Əhməd ağa ............................................... 38
Əliynən ermənilər ................................................. 39
Oğurruğun haqqı ................................................... 39
Aşıq İsgəndərnən Hüseyn ...................................... 40
Çobannan Hüseyn .................................................. 41
Ağsaqqal Vəliynən Xallı ağa ................................. 41
Çıldırrı Çobannan Ağsaqqal Vəli .......................... 43
Nıkkız ağaynan Ağsaqqal Vəli .............................. 46
Oğruynan Hüseyn .................................................. 47
Yuxusu qaçan çoban .............................................. 47
Dədəm bunu deyirmiş ........................................... 48

Dəli Səfərnən Ağsaqqal Vəli ................................ 49
Qara Cənnət ........................................................ 52
**Xəstə Zərnişanla bağlı rəvayətlər**
Lazım gələndə Zeynaf xalanın çiyninə vurarsan... 54
Ala dana .............................................................. 54
Tülkü-çaqqal əhvalatı .......................................... 56
Pəhləvan arvadı ................................................... 58
**AŞIQLAR VƏ EL ŞAİRLƏRİ**
**YETİM ƏSKƏR**
Yetim Əskərin poetik dünyası (Anar Hüseynov).. 62
**Gəraylılar**
Qalmadı ............................................................... 66
Olmaya ................................................................ 67
**Qoşmalar**
Kasıblıq............................................................... 69
Maşallah .............................................................. 70
Ola-ola ................................................................. 71
Ay fələk ............................................................... 72
Məni..................................................................... 73
İndi....................................................................... 74
Gəlmir.................................................................. 75
Qoşma.................................................................. 76
Allah .................................................................... 77
A qardaş............................................................... 78
Deyil .................................................................... 79
Ay fələk ............................................................... 80
Qadındadı ............................................................ 81
Ərzi-hal................................................................. 82
**XƏSTƏ ZƏRNİŞAN** ........................................... 83
Hikmət və kəramət sahibi (Anar Hüseynov)......... 85

Bayatılar ........................................................ 93
Qımqımılar ........................................................ 110
Tırınqılar........................................................ 112

**Gəraylılar**

Dağlar ........................................................ 115
Eləyib........................................................ 116
Tox deyincə ........................................................ 117
O dağlardan ........................................................ 118
Ayrılığın sinoru yox ........................................................ 120
O dağların arası........................................................ 121
Günahım nə ........................................................ 122
Kimə deyim? ........................................................ 123
Bu dağlardan o dağlara........................................................ 124
Məni........................................................ 125
Məni........................................................ 126
A Çıldırdan əsən külək........................................................ 127
Kor olsun gözlərin... ........................................................ 128
Ağbabanın gözəl qızı........................................................ 129
Var ........................................................ 130
Belə olur ........................................................ 131
Hələ bizim gəlinə bax........................................................ 132
O dağlarda ........................................................ 133
Qaldı ........................................................ 134
Ayrılıq gəraylısı........................................................ 135
Bağışlamaz ........................................................ 136
Gözüm qaldı o dağlarda ........................................................ 137
Odlana-odlana........................................................ 138
Qaloşun tərifi........................................................ 139
Görünməz ........................................................ 140
Dözüm ver, Allah ........................................................ 141

Mən ........ 142
**Qoşmalar**
Yoxdu ........ 144
Elə ........ 145
Muradına çat ........ 146
Betər yaram var ........ 147
Vaxtında ........ 148
Zamanaya bax ........ 149
Silənə kimi ........ 150
Baxır ........ 151
Şura ........ 152
Dağlara ........ 153
Çıxardıb ........ 154
Öküzüm yorulub... ........ 155
Söz gələn kimi ........ 156
Dərdim çoxdu ........ 157
Qalıb ........ 158
İstərəm ........ 159
Qaldı ........ 160
Ay könül ........ 161
Ay Allah ........ 162
Bardı deyənlər ........ 163
Vaxt var idi ........ 165
Düşməzdi ........ 166
Bilmədik ........ 167
Deyin ........ 168
Gəlmişəm ........ 169
Olar ........ 170
Əzizim ........ 171
Gedər ........ 172

Əzizim ........................................................................ 173
Olacaq.......................................................................... 174
A dünya ....................................................................... 175
Çıldırın......................................................................... 176
Ola .............................................................................. 177
Olsa.............................................................................. 178
Könül ........................................................................... 179
Gətirər.......................................................................... 180
Olmaz .......................................................................... 181
Olacaq.......................................................................... 182
Yalan danışırsan... ....................................................... 183
İtib xoş günlərim... ...................................................... 184
Neynim ........................................................................ 185
Bax............................................................................... 186
Bax-bax........................................................................ 187
Bir gün ......................................................................... 188
Ağlasın......................................................................... 189
Eylər ............................................................................ 190
Könül ........................................................................... 191
Deyim .......................................................................... 192
Tutulub ........................................................................ 193
Yoxdu .......................................................................... 194
Döndü .......................................................................... 195
Məni............................................................................. 196
Həmişə......................................................................... 197
Bilmirəm...................................................................... 198
Deyil ............................................................................ 199
Durduğum yerdə.......................................................... 200
Məni............................................................................. 201
Baş-ayaqdı ki... ............................................................ 202

Oldum ........................................................................ 203
Çətindi ...................................................................... 204
Örgədir ...................................................................... 205
Bala .......................................................................... 206
Oğlum ........................................................................ 207
Bəs olduğunu ............................................................. 208
Yaxşıdı ...................................................................... 209
Düşərmi? .................................................................... 210
Sənin ......................................................................... 211
Yoxdu ........................................................................ 212
Ağlar ......................................................................... 213
Olar ........................................................................... 214
Bilmirəm .................................................................... 215
Qaraxan ..................................................................... 216
Canım oy ................................................................... 217
Məni .......................................................................... 218
Tükəz bacım .............................................................. 219
Gəldi keçdi ................................................................ 220
Gəlirəm ..................................................................... 221
Ağlaram ..................................................................... 223
Getdi .......................................................................... 224
Könül ......................................................................... 225
Könül ......................................................................... 226
Bəsdi ......................................................................... 227
Yaralar məni .............................................................. 228
**Təcnislər**
Qaralar mənim ........................................................... 230
Qəmə min .................................................................. 231
Bir qəm çilədi ............................................................ 232
**Divanilər**

Verdim ........ 234
Verər ........ 235
Bilər ........ 236
Gördüm ........ 237
Gələr ........ 238
Gələr ........ 239
Kimi ........ 240
Məni ........ 241
Gələr ........ 242
Var ........ 243
Oldu ........ 244
İdi ........ 245
Ərzi-hal ........ 246
Qızım ........ 247
Kimi ........ 248
Bax ........ 249
Axmaq ........ 250
Könül ........ 251
Gəlin ........ 252
Divani ........ 253
Fələk ........ 254
Dərd ........ 255
Gəlin ........ 256
Orda sən ........ 257
Belə ........ 258
Bax ........ 259
**Müxəmməs**
Çoban ........ 260
**USTA MƏCİD** ........ 261
Bayatılar ........ 262

**Qoşmalar**
Göründü ............................................................ 264
Göründü ............................................................ 265
**AŞIQ RƏVAYƏTLƏRİ**
Aşıq Qənbərin bir əhvalatı .................................... 267
Misgin Tağının Sınıx səfəri .................................. 281
Göləli İrbahamın Mustuxlu səfəri ......................... 287
Dondarnan Aşıx Qənbərin deyişməsi .................... 291
**ÖTƏN GÜNƏ GÜN ÇATMAZ**
**Yadımda-yaddaşımda qalanlar**
Nənəm Xəstə Zərnişan ........................................... 296
Ağsaqqal Vəli ......................................................... 297
Əsəd baba .............................................................. 298
Hümmət baba .......................................................... 299
Rüstəm baba .......................................................... 301
Həsən baba ............................................................. 302
Nənəmin kəramət sahibi olduğunu
göstərən əhvalatlar ................................................ 303
Nənəm deyərdi ....................................................... 310
Soydan, kökdən... .................................................. 321
**XATİRƏLƏR**
Hüseyn Əsəd oğlunun xatirələri (Tacir Səmimi) .. 325
Xəstə Zərnişanın xatirələri .................................... 327
Hüseyn babam (Anar Hüseynov) .......................... 331
**Son söz (İsfəndiyar Vəliyev)** .............................. 332
**Söyləyicilər haqqında məlumat** .......................... 333
**Dialektoloji lüğət** .................................................. 335

Kompüter və dizayn:
Vüsal Abiyev

Texniki redaktor:
İlkin Qurbanlı

Korrektor:
Vüsal Abiyev

Yığılmağa verilmişdir: 10.11.2023
Çapa imzalanmışdır: 17.11.2023
Tiraj: 200

SkyG MPM-də hazır diapozitivlərdən
çap olunmuşdur.